www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet 28 yanvar 2015-ci il  Çərşənbə  № 19 (6047)  Qiyməti  40 qəpik

**Xəbər**

**Milli Bank sədri kredit faizi söhbətinə son qoydu: "enməyəcək"**

yazısı səh.11-də

**Gündəm**

**Hakimiyyət iki deputatı ABŞ-a göndərdi**



Rəsmi Bakı Vaşinqtonla dil tapmağa çalışır

yazısı səh.9-da

*Arif Hacılı:*
**"Müsavat seçkilərdə böyük ehtimalla təkbaşına iştirak edəcək"**

yazısı səh.6-da

**İqtidar niyə Amerika səfirliyinə bina tikməyə yer vermir?**

yazısı səh.9-da

**İşsizlik artır, "paket sistemi" ləğv olunur, ixtisarlar başlayır...**

yazısı səh.15-də

*Əli Həsənov:*
**"Yəhudi lobbisi Vaşinqtonda bizə kömək edir"**

yazısı səh.9-da

**Zərərçəkənlər Rəsul Cəfərovun məhkəməsində ifadələrindən imtina etdilər**

yazısı səh.3-də

**Qubad İbadoğlu Divana çağırıldı**

yazısı səh.6-da

**"Ayı işi" davam edir, Anar Məmmədov "Yeni Müsavat"dan əl çəkmir**

yazısı səh.4-də

**Leyla Yunus beynəlxalq həkim müayinəsindən keçirildi**

yazısı səh.8-də

**Ziya Məmmədovun kurasiya etdiyi rayonlarda "yerdəyişmə"**

yazısı səh.2-də

**İrandan "Putin İttifaqına qoşuluruq" mesajı**

yazısı səh.10-da

## Düşmən Azərbaycana qarşı təxribat taktikasını dəyişir

# GƏDƏBƏY CƏBHƏSİNƏ XAİN HÜCUMUN PƏRDƏARXASI

Son vaxtlar Qarabağdakı təmas xəttində ciddi itkilər verən ermənilər başqa istiqamətlərdə təxribatlara əl atmaqdadır; ekspertlərə görə, bu, bir mesajdır ki, ordumuz nə vaxtsa torpaqlar uğrunda əməliyyata başlasa, işğalçı qüvvələr başqa istiqamətlərdə bizə problem yaradacaq...




yazısı səh.12-də

# General Mədət Quliyev hədəfdə

Həbsxanalarda yoxlamalara başlanılması ilə bağlı ölkə başçısının qərarı gözlənilir; İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri general-mayoru niyə qisasçılıqda ittiham edir?

yazısı səh.8-də



*Mehman Əliyev:*
**"Mən gedəndə kişi kimi gedəcəm"**

yazısı səh.5-də



*Xoşbəxt Yusifzadə:*
**""Əsrin müqaviləsi" imzalananda neftin 1 barreli 16 dollar idi"**

yazısı səh.7-də



**Xədicə İsmayılın həbs müddəti artırıldı**

yazısı səh.4-də



**Müsavat Partiyasının başqanı Arif Hacılı qocaman müsavatçı Feyzulla Rəhimovu doğum günü münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Feyzulla bəy!**

**Sizi doğum gününüz münasibəti ilə təbrik edir, uzun ömür, cansağlığı, işlərinizdə uğurlar arzulayıram.**

**Siz 1988-ci ildə başlayan Azərbaycan Xalq Hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin ən fəal nümayəndələrindən biri olmusunuz. 1998-ci ildən Müsavat Partiyasının üzvü olmuş və partiyanın işində fəal iştirak etmiş, üzvü olduğunuz rayon təşkilatının gücləndirilməsində, müsavatçılıq ideyalarının təbliğində və yayılmasında yorulmadan fəaliyyət göstərmisiniz. Müsavat Partiyası Xətai rayon təşkilatında fəaliyyət göstərdiyiniz dövrdə keçirilən bütün seçkilərdə, mitinqlərdə göstərdiyiniz fədakarlıqlara görə dəfələrlə təqib və təzyiqlərlə üzləşsəniz və həbs olunsanız da heç zaman öz əqidənizdən dönməmisiniz.**

**Siz mehriban, qayğıkeş bir ailə başçısı, ata və babasınız. İnanıram ki, bundan sonra da hər zaman övladlarınız və Sizi tanıyan insanlar Sizinlə qürur hissi keçirəcəklər.**

**Hörmətli Feyzulla bəy!**

**Sizi bir daha doğum gününüz münasibətilə təbrik edir, Sizə uzun ömür, cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və apardığınız bu şərəfli mübarizə yolunda uğurlar arzulayıram".**

# Nazirə yaxın 3 başçı ilə bağlı sərəncam verildi

## Ziya Məmmədovun əmisi oğlu daha kiçik rayona başçı göndərildi

**Yanvarın 27-də prezident İlham Əliyev 3 icra başçısı ilə bağlı sərəncam verib. Sərəncama görə Göyçayın icra başçısı Mənsur Məmmədov tutduğu vəzifədən azad olunaraq qonşu Ucar rayonuna başçı göndərilib. Bu təyinata qədər Ucarın icra başçısı olan Yaşar Məmmədov tutduğu vəzifədən çıxarılaraq Qubaya başçı təyin olunub.**

Quba Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Ağayev isə Göyçay Rayon İcra Hakimiyyəti başçısı postuna təyinat alıb. Qeyd edək ki, Göyçayın icra başçısı Mənsur Məmmədov nəqliyyat naziri Ziya Məmmədovun əmisi oğludur. İcra başçıları dəyişdirilən hər 3 rayon qeyri-rəsmi olaraq nazirin nəzarəti altındadır. Yerdəyişmə nazirin başçı olan əmisi oğlunun səlahiyyətlərinin azaldılması kimi qəbul olunur. Bildirilir ki, Göyçay aran zonasının mərkəzi rayonudur. Ucar isə əhali sayına və ərazisinə görə ətraf rayonların sırasında axırıncı yerdədir. M.Məmmədovun təyinatı onun üçün "fəxri təqaüdə" gedən yolda tramplin hesab edilir.

Göyçay əhalisinin M.Məmmədovdan şikayətləri həddən ziyadə çox olduğundan prezident sərəncamı coşqu ilə qarşılanıb. Qeyd olunur ki, onun əvəzinə başçısı təyin edilən Mübariz Ağayev əvvəllər Göyçayın icra başçısı olub. Əslən Göyçaydan olan M.Ağayevin idarəçiliyi dövründə əhali ondan razılıq edib. Sonradan M.Ağayev Mingəçevir İcra Hakimiyyətinin başçısı postuna təyin edilib. Quba hadisələrindən sonra M.Ağayev əhali ilə işləyə bilən təcrübəli kadr kimi rayona rəhbər təyin olunmuşdu. M.Məmmədovun fəaliyyətini daim sərt formada tənqid edən hüquq müdafiəçisi Vidadi İsgəndərli M.Məmmədovun vəzifədən çıxarılmasını alqışlayıb: **"7 il idi ki, Mənsur Məmmədov Göyçay əhalisinin günü qara etmişdi. Göyçay talançıdan azad oldu. Mansur Məmmədov bir neçə gündür ki, tutduğu vəzifədən çıxarılıb".**


Mənsur Məmmədov

V.İsgəndərli M.Ağayevin rayona icra başçısı təyin olunması haqda bunları deyib: **"Mübariz Ağayev Göyçayda işləyib, camaat onu yaxşı icra başçısı kimi tanıyır. Mansur Məmmədov isə Göyçayı talayıb. Bunu hamı bilir. Ölkə rəhbərliyi onun əməllərindən bilgili idi. Göyçaylılar bu sərəncamı yalnız alqışlaya bilərlər".**

❑ E.MƏMMƏDƏLİYEV



# Prezident iqtisadi konfrans keçirdi

## "Ermənistan aciz duruma düşüb"

**Yanvarın 27-də Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib.**

Prezident İlham Əliyev konfransda iştirak edib. Dövlətimizin başçısı konfransda giriş nitqi söyləyib.Sonra iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri Heydər Əsədov, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov çıxış etdilər.

Daha sonra prezident konfransda yekun nitqi söyləyib.

Prezident deyib ki, son 11 ildə Azərbaycanda 1 milyon 360 min yeni iş yeri açılıb. Bu iş yerlərindən 1 milyonu daimidir. Həyata keçirilən tədbirlər sayəsində indi yoxsulluq və işsizlik 5 faiz səviyyəsindədir.

**İ.Əliyev bildirib ki, dünyanın aparıcı reytinq agentlikləri Azərbaycanın reytinq göstəricilərini artırıb:** "Davos İqtisadi Forumu ölkəmizi iqtisadi göstəricilərinə görə dünya üzrə 38-ci yerdə qərarlaşdırıb. Hazırda dünyanın inkişaf etmiş ölkələrinin xarici yardımlardan bəhrələndiyi bir vaxtda Azərbaycan uğurlara öz imkanları hesabına, təkbaşına nail olub. İqtisadi güc siyasi səhnədə də öz sözümüzü deməyə, milli maraqları qorumağa imkan yaradır. Azərbaycandan fərqli olaraq Ermənistan aciz duruma düşüb. Kriminal rejimin rəhbərlik etdiyi Ermənistan öz çirkin işğalçılıq niyyətindən əl çəkmədiyi təqdirdə, bu ölkənin müstəmləkə durumu daha da dərinləşəcək".

# YAP "Yeni Müsavat"ın xəbərini təsdiqlədi



**Xəbər verdiyimiz kimi, 2015-ci ilin parlament seçkilərinə YAP fərqli taktika ilə qatılacaq. Bu dəfə deputatlığa namizəd siyahısı tam fərqli hazırlanacaq. Belə ki, 2010-da YAP siyahısından mandat alan bir çoxları bu dəfə kənarda qalacaqlar. 2010-cu ildə YAP siyahısından deputat seçilmiş 70 nəfərdən ən azı 30-u bu dəfə mandatını təhvil verməli olacaq.**

YAP icra katibinin müavini Siyavuş Novruzov bu xəbəri təsdiqləyən açıqlama verib. O "Trend"ə müsahibəsində YAP siyahısının hazırlanması ilə bağlı bunları deyib: "Kimlərin yenidən seçilmək şansının hansı səviyyədə olması, hansı dairədən, hansı kateqoriyadan olan namizədin irəli sürülməsinin daha effektli ola biləcəyi, hansının seçilmə şansının daha böyük ola biləcəyi müəyyənləşdiriləcək. Bu tədqiqatdan sonra müəyyən ediləcək ki, hansı dairədən seçilmiş namizəd artıq seçicinin etimadını doğrultmur və yaxud parlamentdəki təmsilçilik dövründə qanunvericilik təşəbbüsü ilə, ayrı-ayrı məsələlərlə, dövlətçiliklə, dövlətin siyasətinin müdafiəsi bağlı onun apardığı iş qənaətbəxş deyil. Bu halda artıq partiyanın rəhbər orqanları tərəfindən həmin namizədlərin əvəzlənməsi və kimlərin namizədliyinin həmin dairələrdən irəli sürülməsi ilə bağlı təkliflər irəli sürüləcək və bu təkliflər nəticəsində də namizədlər müəyyənləşəcək".

❑ Xəbər xidməti

# Məmmədyarov Krakovda həmsədrlərlə görüşüb

**Xarici işlər naziri Elmar Məmmədyarov Polşaya işgüzar səfəri çərçivəsində yanvarın 27-də Krakov şəhərində ATƏT-in Minsk Qrupunun həmsədrləri Ceyms Uorlik (ABŞ), Pyer Andryu (Fransa), İqor Popov (Rusiya) və ATƏT-in Fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşiklə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi və ATƏT Minsk Qrupunun qarşıdan gələn dövr üçün nəzərdə tutulmuş fəaliyyət planı ətrafında fikir mübadiləsi aparılıb.

E. Məmmədyarov Ermənistanın təxribatçı əməllərinə diqqəti çəkərək bunların danışıqlar prosesinə xələl gətirmək məqsədi güddüyünü bildirib.

Münaqişənin həllinə dair Azərbaycanın mövqeyini bir daha vurğulayan nazir ilk növbədə Ermənistanın Silahlı Qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalı olduğunu diqqətə çatdırıb.

Görüş əsnasında Ermənistan tərəfindən girov götürülmüş soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi məsələsi ATƏT-in Minsk Qrupunun həmsədrləri qarşısında qaldırılıb.

# İŞİD bu dəfə erməni kilsəsini dağıtdı

**"İraq və Şam İslam Dövləti" (İŞİD) terror təşkilatı İraqın şimalındakı Mosul şəhərində yerləşən erməni kilsəsini yandırıb.**

Bu barədə azvision.az "BasNews"-a istinadən xəbər verir.

Kürdüstan Demokratiya Partiyasının rəsmisi Səid Mamuzinin sözlərinə görə, İŞİD yaraqlıları ictimai binaları, evləri dağıdır, ziyarətgahları təhqir edir. Yaraqlılar Mosulun Vahda rayonunda erməni kilsəsini yandırıb.

Xatırladaq ki, ötən il iyun ayının əvvəlindən etibarən İraqda hökumətilə İŞİD silahlıları arasında qanlı döyüşlər davam edir. Mosul və Kərkük şəhərləri də daxil olmaqla, bir sıra İraq şəhərləri İŞİD yaraqlıları tərəfindən ələ keçirilib.

İyunun sonunda "İslam Dövləti" İraqda və Suriyada onun nəzarəti altında olan ərazilərində "İslam Xilafəti" yaratdığını elan etdi. İraq hakimiyyəti bu təşkilata qarşı mübarizədə kömək üçün beynəlxalq birliyə müraciət etdi.

# İŞİD-in çökməsi başladı

**Türkiyə xəbər saytları "İraq Şam İslam Dövləti" (İŞİD) adlı terror qruplaşmasının bir-birinin ardınca ağır zərbələr alması haqda xəbər yayırlar.**

Xəbərlərə görə, qruplaşma keçən ilin payızından çox hissəsini əlində saxladığı Suriyanın Türkiyə ilə həmsərhəd Kobani qəsəbəsindən bugünlərdə tamamilə çıxarılıb.

Daha sonra isə deyilir ki, Suriyanın şimalındakı Diyala şəhərinin çərşənbə axşamı səhər saatlarında İŞİD qüvvələrindən təmizləndiyi bildirilir. Bununla yanaşı, verilən xəbərlərə görə, İraq ordu qüvvələri, kürd peşmərgə birlikləri İŞİD-in paytaxtı olan Mosul üzərinə ciddi hücuma hazırlaşır. Bununla birgə artıq İraq ordusu və peşmərgə qüvvələrinin Mosul şəhəri ətrafındakı əraziləri ələ keçirdiyini də nəzərə çatdırır.

Türk şərhçilər keçən ilin yayından dünyanın siyasət səhnəsinə "hay-küy"lə gələn İŞİD terror qruplaşmasının elə keçən ilin noyabrından bu yana tənəzzülə uğraması haqda şərhlər də veriblər. Onların fikrincə, İŞİD-in məğlubiyyətlərinin bir neçə səbəbi var. Şərhçilərə görə, İŞİD-in ələ keçirdiyi ərazilərdə insanlara qəddarlığına qarşı yaranan dünya birliyi koalisiyası bu məğlubiyyətdə həlledici rol oynayıb.

Son 3-4 ayda İraq siyasi hakimiyyətində və ordu quruculuğundakı dəyişikliklər, yerlərdə şiə və sünni məzhəbindən olan insanların həmrəyliyi kimi xüsusiyyətlər də bu məğlubiyyətləri reallaşdıran amillər sırasındadır.

❑ "Turan"

# Nuşirəvan Məhərrəmli daha 6 il MTRŞ-nin rəhbəri olacaq

**Dövlət başçısı İlham Əliyev Nuşirəvan Məhərrəmlinin Milli Televiziya və Radio Şurasının (MTRŞ) üzvü təyin edilməsi haqda sərəncam imzalayıb.**

MTRŞ-nin digər 8 üzvü də dövlət başçısı tərəfindən 2,3 və 6 il müddətinə təyin edilir.

Bundan sonra MTRŞ üzvləri özlərinə sədr seçirlər. İndiki halda kimin sədr olacağını güman etmək çətin deyil.

MTRŞ KİV qanunvericiliyinə, jurnalistika və etik normalara əməl olunmasına nəzarət edilməsinə yönəlib. Lakin əməldə MTRÇ heç bir məsələyə müdaxilə etməyərək müşahidəçi rolunu yerinə yetirir. KİV və jurnalistlərin hüquqlarının müxtəlif strukturlar, o cümlədən hökumətyönlü KİV tərəfindən pozulması ilə bağlı çoxsaylı müraciətlər cavabsız qalır.

❑ "Turan"

# Günay İsmayılovaya hücum olub

**Yanvarın 26-da, saat 20.30 radələrində hüquqşünas Günay İsmayılovaya hücum olub. İsmayılova "Turan"a bildirib ki, yaşadığı evin blokuna daxil olan zaman 28-30 yaşlarında bir kişi heç bir söz demədən arxadan boğazından tutaraq ona xəsarət yetirməyə cəhd edib.**

"O mənim boğazımdan yapışdı. Sanki ağzımı tutmağa çalışırdı. Bu zaman cəld arxaya döndüm, onun əlində nə isə var idi. Mən çığırmağa başladım və ayaqlarımla qonşunun qapısını döyəclədim. Bu zaman qonşular çıxdı və o qaçdı. Həmin şəxs bir kəlmə belə danışmadı. Orta boylu idi. Məqsədi soyğunçuluq deyildi. Çünki o mənim çiynimdəki əl çantama toxunmadı. Sadəcə əlində nə isə var idi və məni vurmağa cəhd edirdi" deyə, xanım qeyd edib.

Günay İsmayılova Daxili İşlər Nazirliyinin "102-Qaynar Xətt" Xidmətinə zəng edib. Polislər hadisə yerinə baxış keçirib.

G.İsmayılovanın bacısı onun cizgilərini təsvir etdiyi kişini yaşadıqları evin qarşısında son günlər bir neçə dəfə gördüyünü deyib. Günay İsmayılova Reportyorların Azadlıq və Təhlükəsizliyi İnstitutunun (RATİ) direktor müavini olub. Hazırda bu institutun hüquqlarını müdafiə edir.

Hadisə ilə bağlı rəsmi qurumlar hələ münasibət bildirməyib.

# Asim Mollazadə ABŞ-a niyə gedib?

**Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadə və Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov ABŞ-a gediblər.**

Partiyanın mətbuat xidmətindən verilən məlumata görə, deputatlar Vaşinqtonda keçiriləcək Atlantik Şuranın konfransında iştirak edəcəklər. Konfransda "Avropanın Şərqində Transatlantik strategiyaya doğru" mövzusunda ətrafında müzakirələr aparılacaq. Azərbaycanlı deputatlar mövzu ilə bağlı öz fikirlərini açıqlayacaqlar.

❑ Vüqar MURAD

# Obama Səudiyyə Ərəbistanında

**ABŞ prezidenti Barak Obama Səudiyyə Ərəbistanına gedib. Səudiyyənin yeni kralı Salman Barak Obamanı və xanımı Mişel Obamanı paytaxt əl-Riyadda qarşılayıb. Amerika prezidenti Səudiyyə Ərəbistanına ölkəsinə müttəfiq olan dövlətin mərhum kralına ehtiramını bəyan etmək üçün gəlib.**

# Prokuror ovda güllələndi

**Azərbaycan Hərbi Prokurorluğunun şöbə prokuroru Rəhman Bayram oğlu Əhmədov güllələnib. Axar.az xəbər verir ki, 1982-ci il təvəllüdlü prokuror Rəhman Əhmədov ov zamanı dostu tərəfindən ehtiyatsızlıqdan güllələnib.**

Belə ki, yanvarın 24-də R.Əhmədov ov etmək məqsədilə Anar Bayramov, Rafiq İsmayılov, İdris Murtuzov, Şəmsəddin İsayev və İlqar Yusifovla Qobustan rayonunun Xilmilli kəndinə ova gedib.

Ov zamanı Qəbələ rayon Vəndam kənd sakini, 1979-cu il təvəllüdlü İdris Xanbala oğlu Murtuzov prokuror Rəhman Əhmədovu güllələyib. Hadisənin ehtiyatsızlıqdan baş verdiyi bildirilir.

R.Əhmədov Bakı Şəhər Kliniki Tibbi Mərkəzə yerləşdirilib.

## Başsağlığı

**Milli Strateji və Düşüncə Mərkəzinin sədri İsa Qəmbər**
**Çingiz Dəmiroğlunun**
**vəfatından kədərləndiyini bildirir, mərhumun doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

***

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı**
**Çingiz Dəmiroğlunun**
**vəfatından kədərləndiyini bildirir, mərhumun doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 19 (6047) 28 yanvar 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Zərərçəkənlər Rəsul Cəfərovun məhkəməsində ifadələrindən imtina etdilər

## Hüquq müdafiəçisi "qəfəs"dən çıxarılaraq, müdafiəçilərinin yanında əyləşdirildi



**Yanvarın 27-də Bakı Ağır Cinayətlər Məhkəməsində İnsan Hüquqları Klubunun sədri Rəsul Cəfərovun növbəti məhkəmə iclası keçirildi. Əvvəlki iclaslarda olduğu kimi, bu dəfə də ölkəmizin tanınmış bəzi siyasətçiləri, ictimai fəallar, xarici təşkilatların və səfirliklərin nümayəndələri məhkəmə önünə gəlmişdilər.**

Proses 10:30-a təyin olunsa da, vaxtından bir qədər gec-11:00-da başladı.

Hakim Eldar İsmayılov iclası açıq elan etdikdən sonra zərərçəkmiş qismində prosesdə iştirak edən şəxslərin- Anar Cəbiyev (Nağılbaz), İmranlı Nicat, Cahangir Əhmədov və Heybət Əmrahovun vəsatəti oldu. Onlar Rəsul Cəfərova qarşı heç bir iddialarının olmadığını və adlarının qanunsuz olaraq cinayət işi materiallarına daxil olunduğunu bildirdilər.

**Nicat İmranlı istintaq zamanı verdiyi ifadələrin təhrif olduğunu bildirdi:** "Adımdan yazılan ifadələrlə razı deyiləm. Rəsul Cəfərovə qarşı heç bir iddiam yoxdur. Mən zərərçəkmiş qismində prosesdə iştirakdan imtina edirəm. Vəsatətimizin təmin olunmasını xahiş edirəm".

Digər zərərçəkmişlər də İmranlı Nicatın fikirləri ilə razı olduqlarını bildirdilər.

**Müdafiə tərəfinin vəkili Fariz Namazlı hüquqlarını müdafiə etdiyi şəxsin məhkəməyə gətirilərkən qanunsuzluqlarla üzləşdiyini bildirdi:** "Rəsul Cəfərov bir neçə saat zirzəmidə saxlanıldıqdan sonra prosesə gətirilir. Bu isə onun yorğun olmasına səbəb olur. Prosesə kifayət qədər hazırlıqlı olmur. Ümumiyyətlə, məhbusun prosesdən bir neçə saat əvvəl gətirilməsi sırf qanunsuzluqdur. Bu məsələnin həll edilməsini məhkəmə heyətindən xahiş edirik".

**Vəkilin bir sıra vəsatətləri də oldu:** "Biz hesab edirik ki, Rəsul Cəfərov qanunsuz şəkildə həbsdədir. İş materialları bunu sübut edir. Onun barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunmasına bir problem yoxdur. Əvvəlki proseslərdə də bunun barəsində geniş danışmışdıq. İlk vəsatətimiz bundan ibarətdir. İkinci vəsatətimiz prosesin video, audo şəklində aparılmasıdır. Müdafiə tərəfi olaraq hesab edirik ki, bu vəsatəti qaldırmaqda bir sıra əsaslarımız var. Çünki proses iştirakçıları bizdən xeyli aralı olduqlarından çıxışlarımızı aydın eşidə bilmirlər. Mikrofonun olmaması da bu problemin yaranmasına səbəb olub. Media nümayəndələri prosesi işıqlandırmaqda çətinliklərlə üzləşirlər. Rəsul Cəfərov məsələsinə ictimaiyyətin marağı güclüdür. Bu problemlər onun məhkəməsinin ictimailəşməsinə mane olur. Üçüncü vəsatətimiz Rəsul Cəfərovun dəmir barmaqlıqlar arxasından çıxarılıb vəkillərinin yanında əyləşdirilməsi ilə bağlıdır. Bu, məhbusa qarşı qeyri-insanı rəftarın formalarından biridir. Onun "qəfəs"də olması müdafiəçiləri ilə ünsiyyətinə ciddi mane olur. Hesab edirik ki, bu vəsatətin təmin olunması texniki məsələdir. Vəsatətlərimizin təmin olunmasını xahiş edirik".






**Rəsul Cəfərov verilən vəsatətlərə münasibət bildirdi:** "Vəkillərimin və zərərçəkmiş şəxslərin vəsatətləri ilə razıyam. Bu vəsatətlər təmin edilməlidir. Mənə qarşı irəli sürülən ittihamlar faktlara yox, ehtimallara əsaslanır. Bizdən narazı qalan yoxdur. Zərərçəkmişlərin dedikləri bunu bir daha sübut edir. Əsas həbs-qətimkan qərarının ev dustaqlığı ilə əvəz olunması vəsatətinə diqqət ayrılmasını xahiş edirəm. Çünki istər həbs edilməmişdən öncə, istərsə də, sonrakı davranışlarım bu vəsatətin təmin olunmasında problem yaratmır".

Dövlət ittihamçısı Mübariz Mirili çıxışında vəkillərin və zərərçəkmişlərin vəsatətini əsassız saydı.

Prokurorun çıxışı zərərçəkmiş Nicat İmranlının etirazına səbəb oldu. O, yerindən qışqıraraq, vəsatətlərin hər birinin təmin edilməsini tələb etdi.

Rəsul Cəfərovun digər vəkili Əlibaba Rzayev verilən vəsatətlərlə razı olduğunu məhkəmə heyətinin diqqətinə çatdırdı.

Müdafiə tərəfinin vəkilləri zərərçəkmişlərin verdiyi vəsatətləri də əsaslı hesab etdilər.

Verilən vəsatətlərlə bağlı qərar qəbul etmək üçün məhkəmə müşavirəyə yollandı. 10 dəqiqəlik müşavirədən sonra hakim Eldar İsmayılov Rəsul Cəfərovun müdafiəçilərinin yanında əyləşdirilməsi vəsatətinin təmin olunduğunu proses iştirakçılarının diqqətinə çatdırdı. Zərərçəkmişlərin və hüquq müdafiəçisinin digər vəsatətləri təmin edilmədi.

Daha sonra müdafiə tərəfi digər vəsatətlərlə çıxış etdilər. Rəsul Cəfərovun işinə xitam verilməsi və ekspertiza rəyi ilə bağlı da vəsatətlər qaldırıldı.

**Prokuror Mübariz Mirili çıxışında verilən vəsatətlərə narazılığını dilə gətirdi:** "Məhkəmənin obyektivliyinə heç kəs şübhə etməməlidir. Qanuni qərar veriləcək. Burada qaldırılan vəsatətlərin təmin olunması qeyri-mümkündür. Xüsusilə işə xitam verilməsi vəsatətinin heç bir əsası yoxdur".

Məhkəmə zalında hakimlərin öz aralarında etdiyi kiçik müşavirədən sonra vəsatətlərin heç biri təmin olunmadı.

Hakim Eldar İsmayılov məhkəmə istintaqının başlandığını elan etdi. Prosesdə iştirak edən şahidlər zaldan çıxarıldı. Prokuror ittiham aktını oxudu.

**Rəsul Cəfərov çıxışı zamanı ittiham aktının ona tam aydın olmadığını söylədi:** "Çox da ki dövlət ittihamçısı aktı oxumağa uzun müddət vaxt sərf etdi. Mən heç bir qanunsuz əməl törətməmişəm. Özümü mənə qarşı irəli sürülən heç bir maddə üzrə təqsirli bilmirəm".

Hakim və prokuror təqsirləndirilən şəxsin çıxışını məhkəmənin zamanının uzadılması məqsədi ilə əsaslandırdılar.

**Hüquq müdafiəçisi buna öz etirazını bildirdi:** "Prosesin uzadılmasında maraqlı deyiləm. İşin obyektiv aparılmasında maraqlıyam. Sizdən çox biz bunu istəyirik. Özümü zərrə qədər təqsirli bilmirəm".

Prokuror məhkəmə istintaqının təqsirləndirilən şəxsin, zərərçəkmiş və şahidlərin ifadəsi ardıcıllığı ilə aparılmasını təklif etdi. Müdafiə tərəfi buna öz etirazlarını bildirdilər. Arqument olaraq da, Rəsul Cəfərova ittiham aktının aydın olmadığını göstərdilər.

Hakimlərin qısa müşavirəsindən sonra prokurorun təklifinin keçərli olduğu və bu şəkildə məhkəmənin aparılacağı bildirildi.

Hakim Eldar İsmayılov təqsirləndirilən şəxsin ifadəsinin uzun çəkəcəyini və onun çıxışını yarımçıq kəsmək istəmədiyini əsas gətirərək, prosesin 10 fevral saat 10:30-a təxirə salınması barədə proses iştirakçılarına məlumat verdi.

**Məhkəmədən sonra vəkil Əlibaba Rzayev proses barədə jurnalistlərin və xarici nümayəndələrin suallarını cavablandırdı:** "Rəsul bəy 5 maddə üzrə ittiham edilir. Bu maddələrin heç biri ilə razı deyilik. İttihamların mahiyyəti bizə aydın deyil. Təəssüflər olsun ki, aydınlıq gətirilmir. Ən maraqlısı odur ki, işdə 5 zərərçəkən var. Onların heç biri bu işdə özünü zərərçəkmiş saymır. Bunlar qeyri-müəyyən ittihamlardır. Şahidlər əslində ittiham tərəfində olmalıdır. Amma burada müdafiə tərəfinindir. İrəli sürülən ittihamlar absurddur".

❑ **Cavanşir ABBASLI**

# Əvvəl morq idi, indi doğum evi olub?



**Xalid KAZIMLI**

**İndi jurnalistləri qınayırlar ki, bu mövzuda niyə çox yazırsınız. "Hazır mövzu tapmısız" deyirlər. İrad tuturlar: "Cinayətkarı müdafiə edirsiniz" və s.**

Əslində jurnalistləri yalnız onda qınamaq olardı ki, 10 il bağlı qapılar arxasında hər cür alçaldılmaya məruz qalan o iki şəxs barədə niyə yazmırdınız.

Ancaq onun da məntiqli cavabı var: onlar qapalı bir yerdədirlər, hər saat yaxın düşmək olmur, informasiya verənləri də yoxdur. Jurnalistlər Penitensiar Xidmətin sərəncamında olan yerlərə sızmaq imtiyazına malik deyil.

Gərək ordan çıxan informasiyanı ictimailəşdirmək istəyən əzizlər, yaxınlar, ən azı vəkillər olsun. Məsələn, bu yaxınlarda məhbəsdə heç nə üstündə öldürülmüş Elşad Babayevin bacısı Simuzər xanım qardaşının qanının batırılmaması üçün öz qanını qaşığa qoyub mübarizə aparır, media ilə işləyir.

Lamiyə Quliyevanın nə özünün, nə yaxınlarının mediaya informasiya verməyə, başlarına gələn haqsızlıqları ictimailəşdirməyə ya həvəsləri, ya da bacarıqları olmayıb.

Budur, İH başçısının oğlunun qətlində iştirakı ilə məşhurlaşan gənc qadın məhbəsdə ana olunca cin şüşədən çıxıb. Artıq bu hadisəni gizlətmək, ört-basdır etmək mümkün deyil.

Hərçənd bu cür təşəbbüslər var. Məsələn, Penitensiar Xidmətindən, Ombudsman Aparatından yayılan açıqlamalar göstərir ki, çoxları qalmaqalın yat-yut olmasına çalışır.

L.Quliyevanın adından yayılan açıqlamanın nə dərəcədə doğru-dürüst olmasını bir yana qoyaq, gənc qadının "zorakılıq olmayıb, hər şey öz xoşumla olub" deməsiylə məsələ bitmiş sayılmaz.

Burada ən azı məhbusların saxlanılmasına dair təlimatların, qanun-qaydaların pozulması halı göz önündədir.

Türmə sanatoriya və ya kurort mərkəzi deyil ki, azad qadın və azad kişi hovuz qırağında tanış olub, mehribanlaşsınlar və romantik atmosferdə intim həyatlarına dalsınlar. Burada hər şey nəzarətdədir, hər bir hərəkət xüsusi rejim əsasında tənzimlənir.

Dustağın hər dəqiqə öz xoşuyla hərəkət etmək imkanı yoxdur, onun azadlığı məhdudlaşdırılıb. O qadın kiminləsə cinsi əlaqədə olub və doğub, deməli, burada xeyli cəzalandırılmalı adam olmalıdır.

İndi bu qadına və onun keçmiş nişanlısına ağır cəza verdirən, "sizi türmədən çıxmağa qoymayacam" deyə and içən Aslan Aslanov *(sabiq İH başçısı, sabiq nazir müavini)* deyir ki, bu məsələ mənlik deyil.

Bəs kimlikdir? Cəzasını günə-gün çəkib bitirən qadın türmədə qalıb, üstəlik, azadlığa çıxmasına bir az qalmış ona yenidən ağır cəza kəsiblər. Halbuki onun yol verdiyi ikinci qanun pozma halına görə karser cəzası da verilə bilərdi və məsələ bitərdi. Ancaq Lamiyəyə ən ağır cəzanı veriblər.

Bunu da qoyaq bir tərəfə. Dalaşmağa görə tutulanların adı amnistiyaya, əfv sərəncamlarına ilk növbədə salınır. Ancaq bu qadının ikinci "cinayət"inə görə əfv olunmaması ona qarşı qərəzin göstəricisidir. Belə çıxır ki, o, yenə günə-gün həbsdə qalmalıdır. Hələ o da yenidən ona üçüncü cəza müddəti verməsələr.

İndi mətbuat ona görə bu məsələdən yazır ki, ortada hər bir hüquqi dövlətin adına ləkə ola biləcək durum var. Bu hadisə mafiyalara məxsus haqq-hesab çəkilmə tərzinə oxşayır. Özünü boss sayan biri oğlunun qisasını almaq üçün dövlətin fövqündə dayanıb sifarişlər verir, onun icrasını təmin etdirir, hədəfə götürdüyü şəxsin, onun nəsl-nəcabətinin biabır-rüsvay olmasını təşkil edir.

Türmələr ayrıca götürülmüş bir arxipelaqdır. Orda hər an gənc və sağlam adamların meyiti çıxa bilər. Belə şeylər əvvəllər də çox olurdu, indi də vaxtaşırı olur. Cəzaçəkmə müəssisələrinin hərdən morqa dönməsi halları təəccüb doğurmurdu, indi doğum evi kimi işləməsi faktı da ortadadır.

Bütün bu neqativ hallara görə hələlik heç kəs cəzalandırılmayıb. Elşad Babayevi öldürənlər də əllərini, qollarını sallayıb gəzirlər. Özünün vicdan çatışmazlığı olan tibbi ekspertlər üzərində o qədər xəsarət izi olan mərhuma "ürək çatışmazlığı" diaqnozu qoyublar.

Onu da qeyd edim ki, bir neçə il öncə Gürcüstanda təcridxanada saxlanılan şəxslərə qarşı zorakılıq faktı aşkarlandığı zaman ədliyyə naziri istefa verdi, onlarla adam cəzalandırıldı.

YENİ MÜSAVAT
N 19 (6047) 28 yanvar 2015

# Azərbaycanda hansı qurumlar terror təhlükəsindən qorunmalıdır?

**Zahid Oruc:** "Hazırda antiterror fəaliyyəti üçün xüsusi mərkəzlərə çox ciddi ehtiyac var"

**Azər Ayxan:** "Aparıcı qəzet və sayt redaksiyası o qədər də çox deyil ki, mühafizəsini təşkil etmək mümkün olmasın"


Azər Ayxan

**Son günlər Azərbaycanda antiterror tədbirlərinin gücləndirilməsi xəbərləri artıb. Mətbuatda da bu haqda xəbərlər intensivləşib. "Yeni Müsavat"ın ötən saylarında Bakıda xarici ölkə səfirliklərində və diplomatik nümayəndəliklərdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi ilə bağlı yazı dərc olunmuşdu. Məqalədə bu təhlükəsizlik tədbirlərinin gücləndirilməsinin səbəbi kimi regionda baş verən siyasi-hərbi konfliktlər göstərilmişdi.**

Azərbaycanda terrorçuların hədəf ala biləcəyi məkanlar yalnız diplomatik nümayəndəliklər, səfirlik binalarıdırmı?

**"Yeni Müsavat" qəzetinin sualını cavablandıran Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzv Zahid Oruc** ən mükəmməl təhlükəsizlik sisteminə malik olan ölkələrin belə terror təhlükəsindən sığortalanmadığını bildirdi: "Terror təhlükəsi hər bir ölkə üçün aktual olduğundan insanların kütləvi toplaşdığı məkanlar, təhsil müəssisələri, səhiyyə ocaqları, terminallar, hava limanları, metro və sair xüsusi qurğular, müşahidə aparatları vasitəsilə mühafizə olunsa da bu yolla problemin qarşısını almaq mümkün deyil. Nəzərə almaq lazımdır ki, terror qrupları da bu illər ərzində öz imkanlarını artırıblar, arsenallarında olan silah kütləsini kifayət qədər modernləşdiriblər. Terror qrupları dövlətlərə paralel inkişaf edir. Onların sərəncamında nəinki ordu birləşmələri var, hətta onlar vətəndaşlar üzərində mənəvi bir hakimiyyətə malikdirlər. İndi terrorun bir kultu yaranıb. Ona görə də Azərbaycanda siyasi partiyalar, hərəkatlar, təşkilatlar, redaksiyalar, mühüm dövlət binalarının ümumən qorunduğunu biz söyləyə bilərik. Ancaq bu mühafizə xidmətinin hər hansı terroru əngəlləməyə qadir olduğunu söyləmək də yanlış olardı".

**Zahid Oruc Azərbaycanın yerləşdiyi regiondan dolayı hər an terror təhlükəsi ilə üzləşə biləcəyini vurğuladı:** "Mən təhlükəsizlik komitəsinin üzvü kimi xof yaradan fikirlər söyləmək istəmirəm. Ancaq həqiqət bundan ibarətdir ki, Azərbaycan yerləşdiyi regiona görə terror riski olan dövlətlər sırasındadır. Bir tərəfdən Şimali Qafqazdakı gərginlik, geopolitik davanın əsas qurşağının buradan keçməsi, bölgədə həll olunmayan münaqişələr, terrorçuların maliyyə mənbələrinin hələ də açıq qalması, yəni çirkli pul dövriyyələrinin olması, narkoticarət, silah qaçaqmalçılığının mövcud olması, Xəzər üzərindən belə bir ticarətin həyata keçirilməsi və sair dediklərimizin sübutudur. Ona görə də biz nə qədər arzulamasaq da terror Azərbaycanda müxtəlif qurumların qapılarını döyə bilər. Bu dövr ərzində təhlükəsizlik qurumları özünün regional və beynəlxalq əlaqələrini genişləndirir. Eldar Mahmudov da açıqlamasında bildirdi ki, bu məsələlərə tam nəzarət olunur, əməliyyat məlumatları diqqət mərkəzində saxlanılır. Ancaq hər kəsi total nəzarətə məruz qoymaq da mümkün deyil. ADNA-da baş verən qanlı hadisədən sonra ölkə başçısı antiterror fəaliyyəti üçün xüsusi bir qərargah yaradılması ilə bağlı sərəncam verdi. Ancaq ondan sonra bu qurum necə formalaşdı, onun KİV-lə əlaqəsi necə təşkil olunub, qərargah üzvləri hansı mexanizm əsasında seçildi, digər dövlət qurumları ilə hansı səviyyədə əməkdaşlıq aparılır -bu məsələlər açıq olaraq qalır.Hazırda anti-terror fəaliyyəti üçün xüsusi mərkəzlərə çox ciddi ehtiyac var".

**"Yeni Müsavat" qəzetinin baş redaktorun birinci müavini Azər Ayxan da xüsusən qəzet redaksiyalarının mühafizəsinin təşkil olunmasının vacibliyini qeyd etdi:** "Fransada baş verən məlum terror hadisəsinin ardından biz mətbuat vasitəsilə bildirmişdik ki, redaksiyaların təhlükəsizliyini dövlət öz üzərinə götürməlidir. Qəzet və televiziyaların ofisləri da polis orqanları tərəfindən qorunmalıdır. Parisdə baş verənlərdən sonra qəzet redaksiyalarının mühafizəsi tələbi təbiidir. Bizim qəzetdə hər hansı toplumu qıcıqlandıra biləcək materiallar, karikaturalar getməyib. Ancaq terror hadisəsini həyata keçirmək istəyən qruplaşmalar, ya da Azərbaycanda qarışıqlıq yaratmaqda maraqlı olan dövlətlər istənilən bəhanə ilə öz bəd niyyətlərini həyata keçirə bilərlər. Biz bir daha rəsmi qurumlara müraciət edirik ki, redaksiyaların təhlükəsizliyi ilə bağlı yenidən düşünsünlər. Ola bilər ki, uzaq qoruma tətbiq olunur. Ancaq bizim bu haqda məlumatımız yoxdur. Yaxşı olar ki, bu sahədə ciddi tədbirlər görülsün. Azərbaycanda aparıcı qəzet, sayt redaksiyası o qədər də çox deyil ki, onların mühafizəsini təşkil etmək fiziki və maliyyə baxımından mümkün olmasın. Rəsmi statistikaya görə, Azərbaycanda yetərli sayda hüquq-mühafizə orqanı əməkdaşı var və onların az faizi səfərbər olunsa bu mühafizəni təşkil etmək mümkündür".

❑ Nərgiz LİFTİYEVA

# "Ayı işi" davam edir, Anar Məmmədov "Yeni Müsavat"dan əl çəkmir

## Vaqif Hüseyn: "Hüquqi mücadiləmizi sona qədər davam etdirəcəyik"

**Yanvarın 27-də Bakı şəhər Nizami rayon icra şöbəsi tərəfindən tələbkar Anar Məmmədovun "Yeni Müsavat" qəzetinə qarşı iddiası üzrə Yasamal Rayon Məhkəməsi qətnaməsinin icra olunması ilə bağlı proses keçirilib. Xatırladaq ki, həmin icra çəkişmə ilə bağlı olaraq dayandırılmışdı. Anar Məmmədovun müdafiəçiləri həmin icraatın təzələnməsi ilə bağlı məhkəməyə iddia verib.**

**Proses barədə "Yeni Müsavat"a açıqlamasında qəzetimizin vəkili Vaqif Hüseyn məlumat verdi.** Onun bildirdiyinə görə, hakim İmran Burcayevin sədrliyi ilə keçirilən prosesdə "Yeni Müsavat" təmsilçisi olaraq icraatın yenilənməsinin qeyri-mümkün olduğunu söyləyib: "Qətnamədə birgə borclu iki hüquqi şəxs çıxış edir. Onlardan biri "Azadlıq", digəri "Yeni Müsavat" qəzetidir. Maraqlıdır ki, tələbkar "Azadlıq" qəzetinə qarşı borcundan imtina edib. Halbuki Azərbaycan Respublikası Mülki Məcəllənin 500.3-cü maddəsinə görə, əgər tələbkar borclulardan birinin borcundan vaz keçmişsə, artıq digər borclu da həmin öhdəliyi yerinə yetirməkdən azad olunur. "Yeni Müsavat" hətta bununla bağlı sənəd də təqdim etdi".


Anar Məmmədov

**V.Hüseyn xatırlatdı ki, "Azadlıq" qəzetində A.Məmmədovun iddiasına səbəb olan məqalə ilə bağlı təkzib dərc olunub. Onun sözlərinə görə, bu situasiyada hər iki tərəfin sözügedən məsələdə razılaşdığı görünür: biri borcundan imtina edib, o biri isə təkzib yayımlayıb:** "Biz məhkəmədə diqqəti ona cəlb etdik ki, təkzib mətninin özü, yəni qətnamənin olduğu şəkildə icra olunması mümkün deyil. Ən azından ona görə ki, qətnamədə göstərilən təkzib mətnindəki məqalələrdən biri bizə məxsus deyil, "Azadlıq" qəzetinə məxsusdur. Biz başqa bir qəzetə məxsus məqaləni niyə təkzib etməliyik ki? Halbuki 23 noyabr 2012-ci il tarixində "Azadlıq" qəzeti həmin təkzibi yayımlayıb. Biz bu halda, belə natamam şəkildə olan icra sənədinin icrasının, habelə bu icranın təzələnməsinin də doğru olmadığını bildirdik".

**"Yeni Müsavat"ın vəkili bildirdi ki, hakim onların gətirdiyi heç bir hüquqi dəlili qəbul etməyib. Onun sözlərinə görə, bu, icraatla bağlı beşinci prosesdir və proseslərin hamısına eyni hakim sədrlik edir:** ""Yeni Müsavat" bu xüsusata da diqqət çəkərək hakimə etiraz etdi. Lakin hakim bu etirazı da rədd etdi. Çox təəssüf ki, hazırda icraat təzələnir. "Yeni Müsavat" isə öz hüquqi mücadiləsini sona qədər davam etdirəcək. Bu qanunsuzluqları bütün lazımi instansiyalara çatdıracaq, Avropa Məhkəməsinə qədər aparacaq".

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu isə müxbirimizə deyib ki, Məmmədovlar klanı qəzetlə düşmənçilik aparırlar:** "Onlar hakimləri və məhkəmə icraçılarını satın alıblar. Hüquq işləmir. Mən növbəti dəfə proseslə bağlı ölkə prezidentinə müraciət edəcəm".

❑ SEVİNC

# Bu dəfə Lamiyə Quliyeva ittiham olundu

## Aynur Əliyeva: "Vüqar xahiş edir ki, mətbuat bu qadını onun nişanlısı kimi təqdim etməsin"

**Qadınlar üçün nəzərdə tutulan 4 saylı cəzaçəkmə müəssisəsində məhkum Lamiyə Quliyevanın ana olması günlərdir ki, medianın əsas mövzularındadır. Amma "uşağın atası kimdir" sualı bu gün də cavabsızdır.**


Lamiyə Quliyeva

"Lamiyə Quliyevanın Vüqar Əliyevə heç bir aidiyyəti yoxdur. Vüqar xahiş edir ki, mətbuat bu qadını onun nişanlısı kimi təqdim etməsin. Vüqarın öz ailəsi var və o, öz ailəsinə cavabdehdir". Bu sözləri "Azadlıq"a Şəmkirin keçmiş icra başçısı Aslan Aslanovun oğlunun qətlində təqsirləndirilərək ömürlük azadlıqdan məhrum edilən Vüqar Əliyevin xanımı Aynur Əliyeva deyib.

**A.Əliyeva bildirib ki, əri bu qadının üzündən ömürlük azadlıqdan məhrum olunub:** "Vüqarın bu işdə heç bir günahı yoxdur. Aslan Aslanovun oğlunu Lamiyə qətlə yetirib. Çünki həmin oğlan Lamiyənin 12 yaşı olarkən ona təcavüz edib. Sonradan Lamiyənin bir müddət onunla münasibəti olub. Həmin vaxt Lamiyə Aslan Aslanovun oğlundan hamilə imiş. Qarnında 4 aylıq körpəsi olub. Həmin uşağı Aslan Aslanov götüzdürüb. O istəmirdi ki, oğlunun bu əməlləri üzə çıxsın. Ona görə də uşağı götüzdürüb və bütün hadisəni Vüqarın üstünə yıxıb". **A.Əliyeva deyib ki, hələ istintaq vaxtı Vüqarla Lamiyənin nişanı pozulub:** "2011-ci ildə də Vüqar mənimlə ailə həyatı qurub".

**Xanımı A.Aslanovun Vüqara həbsxanada etdiklərindən də danışıb:** "Aslan Aslanov həbsxanada Vüqarı öldürtdürmək istəyib. Vüqarı zəhərləyiblər, amma xoşbəxtlikdən ölməyib. Hər dəfə görüşdən çıxandan sonra Vüqarı "kars"a salıblar. Ona işgəncə veriblər. Bütün bunlar keçmiş rəisin vaxtında olub".

**"Təzadlar" qəzeti isə L.Quliyevanın ibtidai istintaq zamanı Şəmkirdəki istintaq təcridxanasında olarkən Aslan Aslanovun tapşırığı ilə işi aparan müstəntiq tərəfindən intim münasibətə təhrik edilməsi haqda məlumat yayıb. Həmin yazıdan sitat:** "...Bu yöndə daha bir araşdırmamız nəticəsində məlum oldu ki, Lamiyə Quliyeva Şəmkirdəki istintaq təcridxanasında olarkən Aslan Aslanovun tapşırığı ilə işi aparan müstəntiq tərəfindən intim münasibətə təhrik edilib. Müstəntiq hazırda Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İstintaq İdarəsində işləyir".

**Ədliyyə Nazirliyi yanında İctimai komitənin üzvü Sahib Məmmədov isə məsələnin şəxsi xarakter daşıdığını açıqlayıb:** "Ona görə bu məsələni bu qədər şişirtmək lazım deyil. Ancaq əgər həmin şəxsin bu haqda şikayəti olarsa, o zaman müvafiq orqanlar da, ictimai sektor da bu işə müdaxilə edə, araşdıra bilərlər. İndiki halda xanım dünyaya övlad gətirib və bununla bağlı onun heç bir etirazı yoxdur. Ona görə də bu məsələnin səbəblərini, uşağın atasının kim olmasını axtarmaq tamamilə yersiz bir məsələdir. O, atanın kim olmasını açıqlaya da bilər, yaxud uşağa öz atasının soyadını da verə bilər. Bu, ancaq onun şəxsi məsələsidir".

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış isə qanunun hər bir halda məsələnin araşdırılmasını tələb etdiyini açıqlayıb:** "Zorlama Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (AR CM) 149-cu maddəsində nəzərdə tutulan cinayət əməlidir. Cinayət Məcəlləsinin 37.3-cü maddəsinə görə zorlama cinayətləri ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlər kateqoriyasına aiddir. Həmin maddədə göstərilir ki, prokurorun cinayət təqibini başlamaq səlahiyyəti var" deyə, hüquq müdafiəçisi Müzəffər Baxış bildirdi.

**M.Baxış onu da qeyd etdi ki, L.Quliyeva zorlanma barəsində şikayətinin olub-olmamasından asılı olmayaraq, o cəzaçəkmə müəssisəsində cəza çəkdiyinə görə və orada həmin müəssisənin rəhbərliyinin qarşısında köməksiz ola biləcəyini nəzərə alaraq, bu hadisə cəmiyyətin marağında olduğuna, dövlətin mənafeyinə toxunduğuna görə prokuror bu fakt barəsində cinayət işinə başlamalıdır:** "Bu cinayət cəmiyyətin marağındadır ki, necə baş verib? Necə ola bilər ki, o, cəzaçəkmə müəssisəsində uşaq dünyaya gətirib?"

❑ E.MƏMMƏDƏLİYEV

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

# Xədicə İsmayılın həbs müddəti artırıldı

## Jurnalist martın 24-nə kimi təcridxanada qalacaq

**Yanvarın 27-də Səbayel Rayon Məhkəməsində həbsdə olan jurnalist Xədicə İsmayılın həbs müddətinin artırılması ilə bağlı təqdimata baxılıb.**

Prokuror Xədicə İsmayılın həbs müddətinin daha 4 ay uzadılması ilə bağlı təqdimat verib. Müşavirədən qayıdan məhkəmə jurnalistin istintaq müddətində daha 2 ay həbsdə saxlanması ilə bağlı qərar verib.

Jurnalistin vəkili Elton Quliyev bildirdi ki, X.İsmayılın həbs müddəti martın 24-nə kimi artırılıb. Proses qapalı keçirilib. Yaxınları və jurnalist həmkarları X.İsmayılı məhkəmənin giriş qapısında, Penitensiar Xidmətin maşınına mindirilərkən bir neçə saniyə görə biliblər.

Xədicə İsmayıl ötən il dekabrın 5-də həbs olunub. O, jurnalist Tural Mustafayevi «özünü öldürmə həddinə çatdırma» ittihamı ilə saxlanıb. Xədicə İsmayıl bu ittihamları rədd edərək, həbsini siyasi sifariş sayır.

AzadlıqRadiosunun rəhbərliyi bəyan edib ki, Xədicənin həbsi onun ölkə məmurlarının gizli biznesi haqda araşdırmalarına görə hakimiyyətin qisasıdır.

Fevralın 5-də Xədicə İsmayılın həbs müddəti başa çatmalı idi.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 19 (6047) 28 yanvar 2015

**Ondan götürdüyüm müsahibələrin sayını itirmişəm. Qəzetlər bağlananda, jurnalistlər tutulanda, rəhbərlik etdiyi agentliyin durumu pisləşəndə... Hətta və hətta qəzetimizin "Mətbəxdə" rubrikasında. Sonuncuda "Turan" agentliyinin rəhbəri öz işçiləri üçün necə yemək bişirməsindən danışmışdı, yadımdadır. Mehman Əliyev və unudulmaz "Turan" əfsanəsi. Son illərdə rəsmən küncə sıxışdırılan, amma hər zaman optimizmi ilə fərqlənən Mehman bəylə söhbətimiz agentliyin yeni ofisində baş tutdu. Yeni, amma daha kiçik və daha az heyətlə...**

# "Mən gedəndə kişi kimi gedəcəm"

## Mehman Əliyev: "Mənim məsələm 2014-cü ilin avqustunda "yuxarı"da müzakirə olunub və..."



**"Mətbuat xidməti rəhbərləri etiraf edirlər ki, onlara ""Turan"a danışmayın, APA-ya, "Trend"ə-filan danışın" deyə tapşırıq gəlib"**

***- Mehman bəy, "Turan" agentliyi niyə köçüb öz köhnə ofisindən?***

- Həmişə ayağını yorğanına görə uzatmalısan. Biz kommersiya strukturuyuq. Başqalarından fərqli olaraq bizi heç kim maliyyələşdirmir. Ona görə də nə qazanırıqsa, ona uyğun da hərəkət etməliyik. Bizim köçməyimizin səbəbi ilk növbədə iqtisadi səbəblərdir.

***- İkincisi də... heyətiniz kiçilib. Niyə?***

- Guya siz bilmirsiz niyə? Son 15 ildə ölkədə nə baş verdiyini bilmirsiz? Bu heyət də birdən-birə kiçilməyib ki. Yavaş-yavaş azalıb. O proses 2003-dən, İlham Əliyev hakimiyyətə gələndən sonra başlayıb. Medianın problemləri artıb. Bütün redaksiyalarda necə, bizdə də elə. Sadəcə, biz başqa redaksiyalardan fərqli olaraq bəlkə bazarda iqtisadi cəhətdən daha uğurlu qalırdıq. Tək-tük qəzet vardı ki, iqtisadi baxımdan özünü saxlaya bilirdi. Əksəriyyəti çox tez çökdülər, bağlandılar, ya da hakimiyyətin tərəfinə keçdilər. Mən köşklərdə araşdırma apardım son olaraq. Həmin araşdırmaya görə, köşklərə 20 adda qəzet verirlər. Soruşuram ki, ayda nə qədər satırsan? Deyir 150 manatlıq. İndi bu 150 manatı qəzetlər arasında bölün, onda görəcəksiz ki, hər qəzetə nə qədər pul düşür. Bəs onlar nəyin hesabına dolanırlar, yaşayırlar?

***- Qəzetlərin sayt versiyası da var axı. Orda da reklamlar...***

- Reklamlardan o qədər pul gəlmir axı. Ola bilər e, bir qəzeti iki nəfər buraxır, hər şey ola bilər. Bu, artıq normal KİV, keyfiyyət, fəaliyyət deyil axı. Ümumiyyətlə, heç nə deyil.

***- Dediniz vəziyyət 2003-cü ildən bu yana pisdir. O vaxtdan indiyə qədər neçə belə təklif gəlib qapınıza?***

- Çox. Amma mənim prinsipim var- KİV müstəqil olmalıdır. Mən kiməsə işləyirəmsə, o adam deyəcək ki, sən filan şeyi yaz, filan şeyi yazma, ya da belə yaz. İndiki Azərbaycanda başlayan böhran o siyasətin səhv məqamlarıdır. Mən niyə o pula görə həmin problemin yaranmasında iştirak etməliyəm? Əgər mən təkcə özümü düşünsəydim, problem deyil onu eləmək. Mən daha qlobal düşünürəm axı.

***- Mehman bəy, "Turan"a görə sizə nələr təklif olunub?***

- Sonuncu dəfə, 2013-cü ildə KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun İdarə Heyəti formalaşırdı. Onda mənə dedilər ki, gəl, İdarə Heyətinin üzvü ol, biznesin üçün yaşıl işıq, ev, hər şey veriləcək sənə...

***- Ev konkret sizin özünüzə təklif olundu, ya jurnalistlərin binasından əməkdaşlarınıza?***

- Konkret özümə. Jurnalistlərin binası tikiləndə mənə ordan əməkdaşlarıma verilməsi üçün 3 mənzil təklif olundu. Mən bu barədə həmin vaxt sizin qəzetin redaksiyasında keçirilən debatda da öz fikrimi demişdim ki, jurnalistə ev vermək əvəzinə, ona həmin evi alması üçün şərait yaradılmalı, media azad olmalıdır. Əks halda, bu ev rüşvətdir.

***- Bayaq haqqında danışdığınız "yaşıl işıq" təklifini sizə kim verdi?***

- Ad çəkməyin nə mənası var? Mən cürbəcür instansiyalardan danışıram.

***- Bu sövdələşmə cəhdi davamlı təkrarlanır?***

- Bəli, son dəfə 2014-cü ilin dekabrında oldu. Şərtlər ondan daha yaxşıdır. Daha demək istəmirəm nə idi, necə idi... (gülür)

***- Narahat deyilsiz ki, məsələn, bu cür təkliflərdən sonra tamamən fəaliyyətinizi dayandırma həddinə çatdırsınlar? AzadlıqRadiosunun başına gələnləri gördünüz...***

- Bizimlə bağlı durum odur ki, bizi artıq sıxışdırıblar.

***- Qəzetlərdə, saytlarda, portallarda artıq sizin agentliyə istinad yoxdur. Bu, bir agentlik rəhbəri olaraq sizə pis təsir etmir?***

- Birincisi, 2006-cı ildən bu süni atmosfer yaradılıb. Maliyyələşdirdikləri qəzet və saytlara tapşırıq veriblər ki, "Turan"a istinad etməyin. Bu tapşırıq Prezident Aparatından var idi. Bizdən imtina etməyə, istinad etməməyə başladılar. Digər tərəfdən, indi hər qəzetin öz yanaşması, maraqları var. Onlar heç "Turan"ın xəbərini verə də bilməzlər.

***- Axı "Turan"ın bülletenlərində də eksklüziv, "partlayan", "bomba" xarakterli xəbərlər olmur. Vaz keçilməsi mümkün olmayan yazılarınız gözə dəymir axı.***

- Mən qəzetləri oxumuram deyə bilmirəm ki, orda dediyiniz kimi, bomba xəbərlər varmı. Məni başa düşün e. Mən o "partlayan" təbəqəyə işləmirəm. Ordan-burdan maliyyələşən media orqanları onları maliyyələşdirənlərə göstərmək istəyirlər ki, bax, bizi bu qədər oxuyan var. Ona görə də bomba partladırsız, camaatı cəlb edirsiz. Mənimsə abunəçilərim var və onlara bomba lazım deyil. Mamed Əhmədə nə dedi-filan... istəmirlər bunları.

***- Barı o abunəçilər qalırmı?***

- Əlbəttə. Biz nəyin hesabına yaşayırıq bəs? Onlar başqa media orqanlarından imtina edirlər, amma bizdən yox. Çünki onlara dəqiq şərh lazımdır. Hamı hadisəni yazır, amma onlar şərhi "Turan"dan gözləyirlər. Açırsan o saytları. Hərəsi say doldurmaq üçün lazımsız xəbərləri basıb doldurublar: cəbhədə atdılar, susduruldu, atdılar, susduruldu... Bəsdir də.. Bu xəbərdir? Tapbatap, dambadurum... Elə danışırlar, elə bil ki, Antarktidaya gedib çıxmışıq. Mən hadisə olanda bunun şərhini verirəm. Ya da filan yerdə avtomobil toqquşdu, filan qədər adam öldü. Bu xəbərdir? Kimə lazımdır? Bu, kənd qəzetinin xəbəridir ki, Mamed avtomobil qəzasında öldü, onun yaxınları, qohumları bundan xəbər tutsun. Mənə daha çox yol qəzaları ilə bağlı statistika və bunun səbəbləri ilə bağlı yazı informasiya lazımlıdır. Yoxsa ki, hamı yarışa girib, bir-birinin bəhsinə xəbər verir, amma içində heç nə yox. "Zəng vurduq, dəqiqləşdirə bilmədik" - xəbərin də altına bunu yazırlar, qurtarıb gedir.

Mətbuat xidmətlərinin rəhbərləri 2006-cı ildən etibarən bizə də danışmırlar. Onlardan bəziləri etiraf ediblər ki, bununla bağlı onlara konkret tapşırıq gəlib ki, "Turan"a danışmayın, APA-ya, "Trend"ə-filan danışın. Onlar üçün eksklüziv bir vəziyyət yaranıb. Dövlət tədbirlərinə baxın, bizi heç vaxt ora dəvət etmirlər. Tam blokada şəraiti. Burda çap eləmə, tədbirə dəvət eləmə, bülleteni alma... Biz bunları başa düşürük.

**"Mediadan getsəm, yaxşı biznesmen olaram"**

***- Mediadan getsəniz, görə biləcəyiniz bir iş var?***

- Niyə yoxdur? Mən mediadan qabaq nə qədər işlərdə işləmişəm. O qədər biznes ideyalarım var ki. Mediadan getsəm, bizneslə məşğul olaram. Yaxşı da biznesmen olaram.

***- Son dövrlər kütləvi həbslər olanda sizin də adınız tez-tez hallanmağa başladı. "Növbədə Mehman Əliyevdir" deyib, hətta hədəfə də çıxardılar sizi.***

- Özümə deyiblər ki, mənim məsələm "yuxarı"da müzakirə olunub. 2014-cü ilin avqustunda.

***- Və... nəticə?***

- Nəticə odur ki, hələlik tutulmamışam. Faktı deyirəm ki, müzakirə olub, sadəcə, əsas tapa bilməyiblər. Əsaslandırmaq lazımdır. O mənada yekdil əsaslar olmayıb.

***- Həm də siz çox ehtiyatsız deyilsiz axı. Hər zaman bəlli sərhədlər çərçivəsində danışmısız, addımlar atmısız...***

- Mən heç vaxt heç kimi təhqir etməmişəm. Nə məndən aşağını, nə də yuxarını. Mən jurnalistika prinsiplərinə sadiqəm. Tənqid nə qədər lazımdır, edirəm, amma təhqir olmaz. Mən bu hakimiyyətə opponentəm, amma siyasi ambisiyalarım yoxdur. Onlar da bunu başa düşürlər.

***- Amma kluarlarda dolaşan söhbətlərdə deyilir ki, Mehman Əliyevin hətta hakimiyyətlə də yaxşı münasibətləri var. Hətta və hətta AXCP ilə hakimiyyət arasındakı danışıqlarda siz vasitəçi olmusuz.***

- Başa düşürəm nə demək istədiyinizi. Bizim işlə bağlı yaxşı münasibətimiz ola bilməz. Çünki bayaq mənə yaradılan əngəlləri sadaladım. Mənim bura gəlib düşməyim hakimiyyətin yaxşı münasibətinin nəticəsidir? O başqa məsələ ki, söz sahibi kimi məni tanıyırlar. Mənim üçün prinsip və həqiqət hər şeydən üstündür, bunu anlayırlar. Ona görə də sizin dediyiniz vasitəçilik məsələsi olubsa, bu, onunla bağlıdır ki, bəli, Mehman Əliyev orda olsa, sabah o sözünü dəyişməyəcək. Yəni o biri tərəf sözünü dəyişə bilər, amma Mehman Əliyev yox. Ona görə də onun orbitr kimi iştirakı vacibdir deyə düşünüblər.

***- Orbitr olmusuz?***

- Cəhd oldu, amma sonra davamı gəlmədi. 2012-ci ildə dialoq məsələsi yadınızdadır? O vaxt hakimiyyət dialoqa hazırlaşırdı, ancaq dialoqu aparmadı. Ona görə də xidmətlərimə, vasitəçiliyimə ehtiyac qalmadı. Mənimlə söhbət oldu, amma sonradan dialoq aparılması məsələsi gündəlikdən çıxdı. İndi yenidən proses başlayır. Amma mənim vasitəçiliyimdən istifadə olunmur. Müəyyən zamanlar olub ki, bəzi məsələlərlə bağlı görüşüb danışmışam, söz çatdırmışam, demişəm. Ondan o yanı olmayıb. Məndən kimsə nəsə istəyirsə, təklif edirsə, bu, ölkə üçün lazımdır, buna gedirəm. Mənim bunda başqa maraqlarım yoxdur.

**"Müəyyən zamanlarda məndən orbitrlik, vasitəçilik etməmi istəyiblər"**

***- Amma Mehman Əliyev bir il əvvəlki radikallığı göstərmir. Həbslərmi qorxudub sizi, yoxsa prosesmi səngiyib?***

- Mən hər zaman proseslərin içində olmuşam. Proses gərgin olubsa, mən də gərgin olmuşam. Gərgin olmayıbsa, mən də elə görünməmişəm. İndiki vəziyyətə baxanda siz siyasi mühiti götürün. Nəsə baş verirmi ki, mən də nəsə deyim? Mən başqalarının yerinə qışqırmalıyam? Onsuz da sözümü deyirəm. Yazıram, pozuram, danışıram... Son vaxtlar deyirlər ki, sən optimist danışırsan. Mən hər zaman optimist olmuşam. Mənim optimizmim yenidir bəyəm? Avqustda həbslər olanda mən deyirdim ki, müvəqqətidir, dəyişəcək. İlin sonunda başladılar məndən soruşmağa ki, bəs siz demişdiz ki, düzələcək. Həqiqətən də bəzi olaylar oldu, partiyalarla bağlı qrup yaradıldı, Ramiz Mehdiyev çıxış elədi. Mən demişəm məndən müsahibə alın? İndi də deyirəm ki, ona doğru gedir. Mən dedim ki, Nazirlər Kabinetinin iclasında İlham Əliyev nəsə açıqlayacaq. Doğrudur, mən daha geniş görürdüm. Amma konkret dedi ki, sınaq ilidir bizim üçün. Bu sözün arxasında böyük şey dayanır - kompromislər, danışıqlar, dəyişikliklər... olacaq. Hələ proses ilkin başlayıb.

***- İndi də optimistsiniz, belə başa düşdüm... Optimizminiz sizə nə deyir? Bundan sonra nələr ola bilər?***

- Azərbaycan idarə olunan demokratiya sisteminə qədəm qoyur. Bu il Azərbaycanda azad seçkilər olmayacaq, amma sövdələşmə seçkilər olacaq. Fraksiya-filan yaratmaq. Siyasi məhbusların buraxılmasını, təxminən may ayında yeni siyasi kursun elan olunmasını gözləyirəm. Keçid demokratiyanın başlanmasını görürəm ki, bu da 2018-ə qədər davam edəcək. Bunu da deyəndə amerikalılarla, xaricilərlə, burdakılarla danışıqlara, vəziyyətə baxıb, əsaslanıb deyirəm.

***- Bu optimizm fonunda "Turan" üçün nə görünür? "Turan" əfsanəsi davam edəcək?***

- "Turan" elə bil bir formadır, qabdır. Sən o qabın içindən çıxıb başqa qaba girirsən. Amma ruh qalır, o, davam eləyir. Yaşamaq, işləmək və sair. Prinsipial olan o deyil. "Turan" yarandığı gündən müstəqildir və axıra qədər də belə qalmalıdır, ölməlidir. Onun başqa formata keçməsi yaşaması yox, ölümüdür. Belə getməsi isə əbədilikdir. Ona görə də heç kim bitməsini gözləməsin, əfsanə olaraq qalsın...

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 19 (6047) 28 yanvar 2015

# Həsən Kərimov hakimiyyətlə barışdı

## "Bu qərarı özbaşıma verməmişəm"


Həsən Kərimov

**AXCP Ali Məclisinin sədri Həsən Kərimov Azərbaycan hakimiyyəti ilə barışmaqla bağlı Avropa İnsan Hüquqları Məhkəməsinin təklifini qəbul edib. Bir neçə həftə öncə həmin barışıq məhkəmədə rəsmiləşdirilib. Qərara görə, Azərbaycan hökuməti mənəvi zərərə görə Həsən Kərimova 7500 manat ödəməlidir.**

Bu haqda AzadlıqRadiosuna Həsən Kərimovun özü məlumat verib. O bildirib ki, bu qərarı partiya rəhbərliyi ilə məsləhətləşdikdən sonra qəbul edib: "2-3 ay öncə Avropa Məhkəməsindən məktub gəlmişdi ki, hakimiyyət orqanları mənimlə barışmaq istəyir və münasibət bildirməyimi istəyirlər. Mən də dedim hakimiyyət orqanları buraxılmış səhvləri etiraf etsə, razı olaram.

Hakimiyyətin səhvlərini etiraf etməsi şərti ilə barışmaq təklifinə razı oldum. Bu şərtlərlə razılaşdım. Bu məsələdə mənim hakimiyyətlə heç bir əlaqəm, danışığım olmayıb. Məsələni Avropa Məhkəməsi özü həll edir. Bu gün öyrəndim ki, məhkəmə barışığı rəsmiləşdirib. Bu qərarı özbaşıma verməmişəm. Məsələni öncə partiyada məsləhətləşdik və qərara gəlindi ki, səhhətimi nəzərə alaraq təklifi qəbul edim".

Qeyd edək ki, Həsən Kərimov 2010-cu ilin parlament seçkilərində namizəd olduğu 29 saylı seçki dairəsindəki pozuntularla bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət etmişdi. Barışıq qərarı da bu şikayətlə əlaqədar qəbul edilib.

Amma Həsən Kərimov eyni dairədən 2005-ci ildə də deputatlığa namizəd olub və seçkidə qanun pozuntuları ilə bağlı Avropa Məhkəməsinə şikayət edib. Bu şikayətlə bağlı Avropa Məhkəməsinin daha bir qərarı da 9 il sonra-keçən ilin sentyabrında çıxarılmışdı.

Həmin qərara əsasən Azərbaycan hakimiyyəti pozuntulara görə 10 min manat cərimələnib.

❑ E.SEYİDAĞA

# Sərdar Cəlaloğlu prezidentə müraciət etdi

## ADP sədri milli kodlaşdırma problemini gündəmə gətirib


Sərdar Cəlaloğlu

**ADP sədri Sərdar Cəlaloğlu Azərbaycan xalqının milli kodlaşdırma probleminin həll olunması ilə bağlı ölkə başçısı İlham Əliyevə müraciət ünvanlayıb.**

ADP-dən verilən məlumatda deyilir ki, müraciətdə müstəqillik qazandığımız gündən bu tərəfə Azərbaycan dövlətinin təşəkkülü və xalqımızın formalaşması sahəsində xeyli işlərin görüldüyü qeyd edilməklə, bunlarla yanaşı, Azərbaycan xalqının milli kodlaşdırılması probleminin bu günədək həll olunmamış qaldığı vurğulanıb.

ADP sədri məktubunda Azərbaycanda vətəndaşlıq institutunun, vətəndaş-dövlət bağlarının möhkəmləndirilməsində, vətəndaşların dövlətçiliyin saxlanmasında və qorunmasında fəallığını artırmaq, ictimai və dövlətçilik şüurunun formalaşmasında, vətəndaşlara tarixi ruhun aşılanmasında, milli mənlik şüurunun inkişaf etdirilməsində, dünya azərbaycanlılarının real milli həmrəyliyinin təmin edilməsində milli kodlaşdırılma ilə bağlı bir çox praktiki addımların atılmasının zəruriliyini qeyd edib.

Sərdar Cəlaloğlu dövlətçilik tariximizin görkəmli simaları-məşkəzləşdirilmiş dövlətçilik uğrunda, xalqımızın etnik birliyi və tarixi ərazilərimizin erməni-gürcü-rus işğalından və eləcə də, xalqımızın fars şovinizminin əsarətindən qorunmasında, Azərbaycanda separatizmin aradan qaldırılmasında, Azərbaycan xalqının mədəniyyətinin və dilinin inkişaf etdirilməsində, milli diplomatiyanın təşəkkülündə, türkdilli xalqların yaxınlaşdırılmasında müstəsna xidmətləri olmuş Nadir Şah Əfşarın, Ağa Mühəmməd Şah Qacarın, şahzadə Abbas Mirzənin, eləcə də milli demokratiya tariximizin görkəmli nümayəndələri Səttar Xanın və Şeyx Məhəmməd Xiyabaninin həyat və fəaliyyətinin, onların siyasi irsinin öyrənilməsi, onların xalqımıza və bütün dünyaya tanıtdırılması, xatirələrinin əbədiləşdirilməsi sahəsində ciddi işlərin görülməsi sahəsində dövlət proqramının həyata keçirilməsini təklif edib.

❑ E.SEYİDAĞA

# Müsavat başqanından yeni seçki açıqlaması

## Arif Hacılı: "Müsavat Partiyası seçkilərdə böyük ehtimalla təkbaşına iştirak edəcək"

**Parlament seçkiləri yaxınlaşdıqca, Müsavat Partiyasının seçkilərə nə şəkildə qatılması məsələsi müzakirə mövzusu olaraq aktuallaşıb. Artıq Müsavat Məclisinin bir sıra üzvləri partiyanın seçkiyə ayrıca, öz namizədləri ilə qatılması tərəfdarı olduqlarını bildirməkdədirlər.**


Arif Hacılı

Məclis üzvləri İltizam Əkbərli və Mustafa Hacıbəyli "Yeni Müsavat"da konkret təkliflə də çıxış ediblər. İ.Əkbərli deyib ki, seçkiyə hazırlaşan partiya nəticəsi indidən bəlli olan müxtəlif seçki bloklarının müzakirəsinə vaxt itirməməlidir, seçkiyə təkbaşına və öz siyahısı ilə getməlidir.

Bəs bu təkliflərə Müsavat Partiyası başqanının münasibəti necədir?

**Başqan Arif Hacılı** bildirdi ki, parlament seçkilərində Müsavat Partiyasının iştirakı ilə əlaqədar geniş bir qərar qəbul edilib. Bu məsələlər Müsavat Partiyasının 2015-ci il fəaliyyət istiqamətləri sənədində də öz əksini tapıb. Yanvarın 26-da keçirilən Divan iclasında da bu istiqamətdə verilən bir sıra təkliflər dəyərləndirilərək müvafiq qərarlar qəbul edilib: "Biz Müsavat Partiyası olaraq bu seçkilərə xüsusi önəm veririk. Hesab edirik ki, 2015-ci ildə Azərbaycanda zorakı üsulla yaradılmış status-kvo dəyişilə bilər. Biz bunun üçün əlimizdən gələni etmək, Azərbaycan cəmiyyətini fəallaşdırmaq niyyətindəyik. Seçki məsələlərində müxalifətdə olan siyasi qüvvələrlə, ictimai birliklərlə funksional əməkdaşlıq etmək niyyətindəyik və bu istiqamətdə müəyyən addımlar atırıq. Seçki blokunun yaradılması ehtimalları da araşdırılır. Ancaq hər halda, bu günə ortada olan reallıq seçkilərdə Müsavat Partiyasının böyük ehtimalla təkbaşına iştirak edəcəyini göstərir. Lakin seçki öncəsi ölkədə siyasi vəziyyət dəyişə bilər və əgər Müsavat Partiyası ilə hədəfləri, siyasi mövqeləri üst-üstə düşən real siyasi qüvvələrlə seçki blokunun yaradılması mümkün olacaqsa, biz bu imkanları da dəyərləndirəcəyik. Bütün məsələlər Müsavat Partiyasının strukturlarında müzakirə edilərək həll olunacaq. Yeni seçkilərdə Müsavatın namizədləri partiyanın Məclisi və Divanında təsdiq olunaraq müəyyənləşdiriləcək. Eyni zamanda Müsavatın seçkilərdə hər hansı blokda və ya təkbaşına iştirak etməsi məsələləri də partiyanın Məclisinin və Divanının qərarlarına uyğun olaraq müəyyənləşdiriləcək. Müsavat Partiyası üzvlərinin heç bir narahatçılığına əsas yoxdur".

**Müsavatın əsas gücü 125 yox, 30-40 dairəyə yönəltməsinin uğurlu variant olması barədə təklifə gəlincə, A.Hacılı dedi ki, bu, partiyanın seçki taktikasına aid olan məsələlərdir. Bu məsələlər partiya strukturlarında müzakirə olunduqdan və müvafiq qərarlar qəbul edildikdən sonra müəyyənləşəcək:** "Yanvarın 26-da Müsavat Divanında partiyanın namizədlərinin müəyyənləşdirilməsinə start verilməsi barədə qərar qəbul edilib. Artıq bir çox dairələr üzrə Müsavat Partiyasının namizədlərinin müəyyənləşdirilməsi prosesi gedir. Seçki öncəsi siyasi vəziyyətə uyğun olaraq, partiyanın seçkilərdə hansı şəkildə iştirakı və seçki taktikasının nə cür olması barədə qərarlar qəbul ediləcək".

❑ Etibar SEYİDAĞA

# Qubad İbadoğlu Divana çağırıldı

## Başqanlığa sabiq namizəd: "Deyəcək sözlərim kifayət qədərdir"

**Müsavat Partiyasının başqan müavini Səxavət Soltanlı Müsavat Divanının adından başqanlığa sabiq namizəd Qubad İbadoğlu və Müsavat Qadınlar Birliyinin sədri Ellada Məmmədlini Divanın 2 fevralda saat 14-də keçiriləcək iclasına rəsmi dəvət edib. Dəvətdə bildirilir: "Sizi 02.02.2015 tarixində saat 14:00-da keçiriləcək. Müsavat Partiyasının Divanının iclasında iştirak etməyiniz üçün Divan adından rəsmi olaraq dəvət edirik. İştirakınız vacibdir.**

Davranışlarınızın nizamnaməyə uyğun olub-olmaması müzakirə ediləcək".


Qubad İbadoğlu

**Qubad İbadoğlu** "Yeni Müsavat"a bildirdi ki, təklifi qəbul edib. Divanın iclasında iştirak edib etməməyi isə hələlik dəqiq bəlli deyil. Çünki iş qrafikində Azərbaycan Demokratiya və Rifah Hərəkatının formalaşması ilə bağlı toplantılar nəzərdə tutulub: "Rayonlarda təşəbbüs qruplarının formalaşması ilə bağlı fəaliyyət planında həftənin son günləri və Divanın iclasının nəzərdə tutulduğu gün rayonlarda olmağımız nəzərdə tutulub. Qrafikdə dəyişiklik olmasa, mən bazar günü rayonda olmalıyam. Eyni vəziyyət birinci günə də aiddir. Qrafikdə heç bir dəyişiklik olmasa, yəqin ki, Divanda iştirak edə bilməyəcəyəm. Amma dəyişiklik olsa, iştirak edəcəyəm. Özüm də Divanın iclasında iştirak etməkdə maraqlıyam. Mənim də Divan üzvlərinə deyəcək sözlərim kifayət qədərdir. Demokratiya tələb edir ki, problemlər müzakirə edilində səmərə verir. Mən həmişə olduğu kimi yenə də istərdim ki, müzakirələr daha geniş formada və açıq şəkildə təşkil olunsun. Bağlı qapılar arxasında bir neçə nəfərin iştirakı ilə keçirilən müzakirələr bir çox hallarda partiyanın maraqlarına deyil, bir qrupun maraqlarına xidmət eləyə bilər".

**Q.İbadoğlu Divanın iclasına konkret nə ilə əlaqədar dəvət edildiyi ilə bağlı bunları dedi:** "Mən nə ilə əlaqədar dəvət edildiyimi soruşanda Səxavət Soltanlıdan belə bir cavab gəldi ki, davranışlarınızın partiya nizamnaməsinə uyğun olub-olmaması məsələsi ilə bağlıdır. Mən hesab edirəm ki, davranışlarımız fikir azadlığı və Müsavat Nizamnaməsi çərçivəsindədir. Biz davranışlarımızda buna əməl eləmişik".

**Qeyd edək ki, yanvarın 26-da Qubad İbadoğlu APA-ya açıqlamasında deyib ki, yanvarın 31-də Məhəmməd Əmin Rəsulzadənin doğum günü münasibətilə Novxanıda keçiriləcək anım tədbirindən sonra Müsavat Partiyasının qərargahında partiyadakı vəziyyəti müzakirə etmək üçün təkliflə çıxış edib. O, təkliflə bağlı Müsavat Partiyası Mərkəzi İcra Aparatına müraciət etdiyini söyləyib:** "Əsas məsələlərdən biri Ənvər Əhmədin partiyadan çıxarılmasıdır. Təkcə bu yox, partiyadaxili demokratiya məsələsi ətrafında da fikir mübadiləsi aparılmasının tərəfdarıyam. Tədbirə sosial şəbəkə vasitəsilə Arif Hacılını, İsa Qəmbəri və digər müsavatçıları da dəvət etmişəm. Mən istənilən halda müzakirələrin bağlı qapılar arxasında deyil, açıq və geniş formada aparılmasının tərəfdarıyam. Hesab edirəm ki, istənilən problemin həlli müzakirələrdən keçir. Hər iki tərəf öz arqumentləri ilə çıxış edə bilər. Bu müzakirə partiyadaxili demokratiya üçün çox əhəmiyyətlidir. Bu baxımdan düşünürəm ki, təklif normal qiymətləndirilməlidir".

**Q.İbadoğlunun sözlərinə görə, birgə müzakirələrə qarşı çıxanlar açıq debatları arzulamayan və eyni zamanda arqumenti olmayan şəxslərdir:** "Çünki istənilən halda müzakirələrə hazırdırlarsa, arqumentləri varsa, bu təklifi dəstəkləməlidirlər".

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı isə "Yeni Müsavat"a bildirdi ki, Qubad İbadoğlu tərəfindən ona belə bir müraciət edilməyib:** "Mən Mərkəzi İcra Aparatında şöbələrlə də maraqlanmışam. Qubad İbadoğlu tərəfindən hər hansı rəsmi müraciət daxil olmayıb. Müraciət olmadığı üçün məsələyə bundan artıq münasibət bildirməyi məqsədəuyğun hesab etmirik. Müraciət olsa, bundan sonra münasibət bildirilər".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 19 (6047) 28 yanvar 2015

## ARDNŞ-in birinci vitse-prezidentindən "Yeni Müsavat"a ilginc açıqlamalar

**Persona**

**Yanvarın əvvəllərində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin 85 yaşı tamam oldu. Azərbaycanın ən ahıl məmuru və bəlkə də dünyanın ən stajlı neft mütəxəssisi olan Xoşbəxt müəllimin budəfəki yubileyinə "Fədakar" adlı ikihissəli bədii-sənədli film hədiyyə edildi. Yubilyarın "Ömrün illəri və izləri" kitabındakı həyat oçerkləri əsasında, Eldar İskəndərzadənin ssenarisi ilə səkkiz ay ərzində çəkilən filmdə xalq artisti Rasim Balayev başda olmaqla, bir sıra tanınmış sənətkarlar çəkilib.**



# ““Əsrin müqaviləsi” imzalananda neftin 1 bareli 16 dollar idi”

## **Xoşbəxt Yusifzadə:** “Əgər biz insanlar bir-birimizi qırıb-çatmasaq, 40-50 ildən sonra ola bilsin neft ancaq dərman üçün lazım olacaq”

*Maraqlısı budur ki, Pirşağı və Buzovna qəsəbələrində, Bakının müxtəlif guşələrində, Neft Daşlarında, Neft Akademiyasında çəkilişləri aparılan filmdə baş qəhrəmanın ömrünün müxtəlif illərini beş aktyor canlandırıb.*

*Xoşbəxt Yusifzadə ilə səmimi atmosferdə baş tutan söhbətimizdə təbriklərimizi çatdırdıqdan sonra dünya gündəminin ən vacib mövzusu ətrafında müsahibəmizdə digər aktual mövzulardan da danışdıq.*

***- Xoşbəxt müəllim, neftin qiymətinin düşməsinin səbəbləri, bunun fəsadları barədə çox danışılır. 60 ildən çox neftçi təcrübəsi olan şəxs kimi siz bu haqda nə düşünürsünüz?***

- Əlbəttə, neftin qiymətinin düşməsi yaxşı hal deyil. Amma biz 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalayanda neftin 1 bareli 16 dollar idi. Mən həyatım boyu neftin qiymətinin qalxıb-düşməsini çox görmüşəm. Neftin qiyməti dalğavaridir, gah düşür, gah qalxır. Bunun səbəblərini hərə bir cür izah edir. Amma dərinə getsən, bu səbəbləri heç dəqiq bilən də yoxdur. Məncə, indiki düşmə ki, var, bu, müvəqqətidir, yenə də əvvəlki qiymət öz yerini tutacaq. Yəni bunun üçün çox narahat olmaq lazım deyil. Əlbəttə, yaxşı olardı ki, qiymət həmişə yüksəkdə qalsın, amma bu da mümkün məsələ deyil. Ola bilsin dünyadakı proseslərin, bu qarmaqarışıqlığın təsiri var. Kimi dindirsən, bir ölkəni bəhanə edir, səbəb göstərir. Ancaq qiymət yenə yüksələ bilər.

***- İddialar var ki, neftin qiyməti bir daha 100 dolları keçməyəcək. ABŞ-ın vitse-prezidenti Co Bayden də hesab edir ki, dünya bazarında neftin qiyməti yaxın illər ərzində aşağı olacaq...***

- Mən bir məsələnin şahidi olmuşam. Qiymət ki, düşüb ha, iştirak etdiyim tədbirlərdə deyiblər daha qiymət qalxmayacaq. Adam ac olanda elə bilir heç vaxt doymayacaq, tox olanda deyir daha acmayacaq. *(gülür)* Qiymətlər də düşəndə daha bir daha qalxmayacağı, artanda da enməyəcəyini güman edirik. Lakin bunu heç kim dəqiq bilmir. Statistikanı götürəndə belə hallar çox olub. Mən 63 ildir neft sənayesində işləyirəm. 1952-ci ilin dekabrından...Sovet vaxtı biz heç neftin qiyməti ilə maraqlanmırdıq. Heç mənim ağlıma da gəlmirdi ki, neftin qiymətini kimdənsə soruşum. Amma mənim yadımda 1994-cü il qalıb. Biz hər gün danışıqları davam etdirirdik, orda lövhədə yazılırdı ki, bir barel 15, ya 16 dollar. Hətta bir gün gəldim ki, 1 barel - 13 dollar. O vaxtdan bəri qiymətlər çox dəyişib. Neft əvvəl nə qədər işlənirdisə, yenə o qədər işlənir. Hesab olunur ki, bu artıb-azalmalar hamısı siyasi oyunlardır.

***- Bəzən təkliflər səslənir ki, bəlkə neftin hasilatını azaldaq, gələcək nəsillərə qalsın. Bu kimi fikirlərə münasibətiniz necədir?***

- Mənə həmişə buna bənzər suallar verirlər. Hələ müəyyən miqdarda neftimiz, qazımız var, 50-60 il, bəlkə də 100 il bəs edəcək. Amma bu yaşımda sizə bir söz deyim. Mən səssiz kinodan internet, sosial şəbəkələr əsrinə qədər gəlmişəm. Yadımdadır, anam klub müdirəsiydi. Klub üçün bir radioqəbuledici almışdı, stol üstə qoymuşdu, amma onun batareyası evin yarısını tutmuşdu. Mənim bir buruqla danışmağımdan ötrü böyük bir radiostansiya vardı. İndi iki barmaq boyda batareya kifayətdir. O gün burda oturub Çili ilə görüntülü danışıram, özümü də gülmək tutub. İndi əgər biz insanlar bir-birimizi qırıb-çatmasaq, 40-50 ildən sonra ola bilsin neft ancaq dərman üçün lazım olacaq. Yəni dünyada o qədər yeni alternativ üsullar, enerjilər çıxacaq ki, ola bilsin neft ancaq dərman üçün gərək olacaq.

***- Əgər neftin səmərəlilik əmsalı azalacaqsa, onda neft ölkələrindəki bu qan-qadaların səbəbi nədir?***

- Hərdən məni bir şey düşündürür. Yaşlı adamam da... Deyirəm, insan yaranandan elə bir-biri ilə müharibə aparır. Baxmayaraq ki, ilbəil insanın ağlı, dərrakəsi artır, dünyaya baxışı dəyişir, amma elə bu müharibələr davam edir. Təbii ki, indiki insanla 200 il bundan qabaqkı insan arasında böyük fərq var. Amma buna baxmayaraq, yenə müharibələr, tökülən qanlar...O gün bir söz dedilər, nə qədər düzdür, deyə bilmərəm. Məlumata görə, guya dünyada 80 milyard adam ölüb, onun 29 milyardı müharibələrdə qırılıb. Yəni dünyada gərginliklər bu və ya digər ölkələrdə baş verir.

***- Hesablamalar onu göstərir ki, neftin ucuzlaşmasından Azərbaycan büdcəsi böyük vəsaitlər itirir və proses davam edir. Bu vəziyyət nə vəd edir?***

- Hər şeydən itirmək də var, qazanmaq da. Qazanan vaxtı əl çalırdıq. Qazandığımız vaxtlar olduğu kimi, təbii ki, itirdiyimiz vaxt da olacaq. Mən elə hesab etmirəm ki, biz burda çox itkilərə məruz qalacağıq. Müstəqilliyimizin ilk illərində bizim dünya bazarına çıxartmağa başqa bir məhsulumuz yox idi. Sovetlərdən çıxmışdıq, istehsal yox idi. Özü də sovet vaxtı ölkələr keyfiyyətli-keyfiyyətsiz olmasına baxmayaraq, istehsal edilən məhsullara görə bölünmüşdülər. Bir-birinə məhsul satırdılar, bununla keçinirdilər. Elə ki, müstəqil olduq, gərək özümüz xaricə çıxaydıq, onda da dünyaya çıxartmaq üçün neftdən başqa məhsulumuz yox idi. Ona görə də o vaxtlar neft çox lazım idi. Artıq neft öz işini gördü, respublikanı ayaq üstə qoydu. İndi bundan sonra digər sahələri inkişaf etdirmək lazımdır. Görürsünüz, bir il "Sənaye ili" oldu, 2015 "Kənd təsərrüfatı ili" elan olundu. Hər halda, nefti dayaq kimi götürüb dayanmaq olmaz. Gördüyünüz kimi, siyasətimiz o istiqamətdə gedir.

***- Camaat arasında belə bir fikir var, bəlkə siz də tanışsınız: "Neft 150 dollar olanda bizim həyatımızda nə dəyişdi ki, 50 dollara düşəndə nə olacaq?" Bəzən qiymət enməsi ilə bağlı yanaşmalarda aşkar sevinc elementləri də müşahidə olunur, nefti fəlakət kimi təqdim edənlər də az deyil...***

- Ümumiyyətlə, neftin qiyməti yüksək olanda qiymətin hamısı mənfəət deyildi. Qiymət qalxdıqca neft borularının, dəmirin, taxtanın da qiyməti qalxırdı. Yəni qiymət qalxmamışdan borunu 10 dollara verirdisə, qiymət artımından sonra 100 dollara verirdi. Ona görə də bu, düz münasibət deyil ki, neft nə qədər artdısa, mən o qədər qazanıram. Yəni elə söhbət yoxdur.

***- Neftin bəhrəsini görmədiyini deyənlərə sözünüz nədir?***

- Biz neftin bəhrəsini ümumi şəkildə görürük. İndiki maaşlar qabaqkı maaş deyil, indiki yaşayış qabaqkı deyil. Əlbəttə, insanlar daha yaxşı yaşamaq istəyir. İlham Əliyev cənabları da dedi ki, yoxsulluq və işsizlik 5 faizə düşüb. Bir var 25 faiz olaydı, bir də var 5 faiz. Bu, elə neftin köməkliyi sayəsində baş verib. Elə dövlət yoxdur ki, orda işsizlik və yoxsulluq tam ləğv edilsin. Biz Azərbaycanda yaşadığımız üçün dəyişiklikləri görə bilmirik. Amma xaricdən gələn qonaq son 10-15 ildə Azərbaycanda olmayıbsa, ölkəni tanıya bilmir. Nə qədər idman müəssisələri, tibb məntəqələri, məktəblər tikilib, bunlar hamısı neft gəlirlərinin hesabına olub da.

***- Neft ölkələrində demokratiyanın arxa plana keçdiyi barədə fikirlərlə razısınız?***

- Fransada baş verənləri gördünüz? Demokratiya o demək deyil ki, sən mənim atamı söyəsən. Hər kəs öz dünyagörüşünə görə bu məsələləri təhlil edir. Sovet vaxtı televiziyaya çıxanda gərək əvvəl danışacağın mətni yazaydın. Yazılana baxandan sonra çəkilişə izn verilirdi. Mən isə həmişə bir az hazırlaşırdım və birbaşa danışırdım. Neft daşlarında işləyirdim, televiziyaya dəvət olunmuşdum. Bir dəfə aparıcı məndən nə soruşdusa, dedim, "Allah qoysa, planımızı dolduracağıq". Mənim dediyim bu "Allah qoysa" sözünün üstündə o yazıq redaktoru cəzalandırdılar. O yazıq da dedi ki, bunun yazdığı mətndə həmin ifadə yox idi, özündən dedi. Ancaq əl çəkmirdilər. İndi radio-televiziyada nə danışırlar, görürsən də... Yəni dəyişiklik həddindən artıq çoxdur. İndi biri hesab edir ki, bu, hələ azdır, başqası ayrı fikirdədir. Almaniyada da İlham Əliyev cənablarına sual verdilər.

**““Allah qoysa” sözü üstündə yazıq redaktoru cəzalandırdılar”**

***- Elə yeri gəlmişkən, Azərbaycan prezidenti Almaniyada yüksək səviyyədə qarşılandı, görüşlər keçirildi. Azərbaycana Avropanın marağının əsas səbəbi nədir?***

- Bilirsiniz nədir? Qabaq bir ölkə digər ölkəni heç tanımırdı. İndi radio-televiziya, internet var, hər məsələdən anındaca məlumat alırlar. Heç bizim Almaniya ilə neft işimiz yoxdur. Həmçinin bu səfərlər, çıxışlar da öz sözünü deyir. Gərək özünü də göstərə biləsən. İndi siz də yazır, tənqid edirsiniz, amma sovet vaxtı heç evində danışa bilməzdin ki, birdən səni apararlar. Ona görə də çox böyük dəyişikliklər var. İndi kimsə istəyirsə daha çox dəyişiklik olsun, bu, başqa məsələ.

**“İndi siz də yazır, tənqid edirsiniz, amma sovet vaxtı heç evində danışa bilməzdin ki, birdən səni apararlar”**

***- Bəs siz necə, bu ahıl yaşda Azərbaycanı necə görmək istəyirsiniz, arzularınız nədən ibarətdir?***

- Mən birinci onu arzulayıram ki, işsizlik, yoxsulluq "0"-a ensin, hamı işləsin, adamlar ailəsini dolandıra bilsin. İşsiz adam hər şeyə qadirdir. O görsə ki, ailəsini dolandıra bilmir, oğurluq da edə bilər, banditlik də. Arzu edirəm ölkə elə bir həddə gəlib çatsın ki, "işsiz", "kasıb" sözü leksikondan çıxsın. Bu da 3-5 gündə düzələn deyil. Hərdən mən düşünürəm ki, sovet vaxtı heç bizim məktəbimiz yox idi, amma görün müstəqillik dövründə nə qədər məktəblər tikilib.

***- Xoşbəxt müəllim, siz iqtidarı təmsil edirsiniz. Müxalifət düşərgəsində də güclü iqtisadçılar, neft mütəxəssisləri var, onların cəlb olunması heç müzakirə mövzusu olubmu?***

- Məncə, kim neftlə məşğul olmaq istəsə, buna heç kim etiraz etməz. Bir dəfə də çıxışımda dedim ki, kimin quruda neft axtarışları ilə bağlı fikirləri var, bizə kömək edə bilər, bizim qapımız onun üzünə açıqdır. Təkliflə gələn heç kimin yolu bağlı deyil. Hətta bir uşaq da ağıllı söz deyəndə ona qulaq asmışam. Məsələn, dənizə çimməyə gedirdim, gördüm 4-5 yaşlı bir uşaq dənizdən gəlir, adı İlyas, indi qoca kişidir. Dedim, İlyas, hardan gəlirsən? Dedi, "daha burda hardan gələrlər? Dənizdən". Bu söz məni tutdu, baxdım ki, uşaq uşaqlığı ilə düz deyir ki, yekə kişisən, görmürsən hardan gəlirəm? (Gülür) Ona görə də inanmıram ki, kimsə bir ağıllı söz desə, biz ona etiraz edərik.

***- Neft axtarışları hazırda harada aparılır?***

- Son vaxtlar biz əsasən qaz-kondensat yataqları açırıq. İndi neft yataqlarının yeri azalıb. Çünki dənizdə əsasən dərinliklərdə neft quyusu qazırıq. Orda da neftin yığılması üçün imkan yoxdur. Ora əsasən qaz-kondensat yığılır. Qabaqlar quru ərazilərdə işlər aparılıb, amma orda sənaye miqyasında neft alınmayıb. Biz tədqiqat aparırıq, texnika, texnologiya artıb. Amma mən yenə deyirəm, kimin təklifi varsa, gəlsin.

***- Bəzi ərazilərdə istismar olunmuş neft quyularının ağzını bağlayıb üzərində tikinti işləri aparırlar. Bu, təhlükəli deyilmi?***

*(Davamı növbəti sayımızda)*

❑ Elşad PAŞASOY
FOTO: "YM"

YENİ MÜSAVAT
N 19 (6047) 28 yanvar 2015



# Uşağın atası dövlətçiliyimizdir

Zamin HACI
zaminhaci@gmail.com

**Naxçıvanda çıxan "Şərq qapısı" qəzetinin bu ilki 15 yanvar sayında belə bir maraqlı məlumat dərc edilmişdi: "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Qaraçuq kəndində hamilə qadınlara göstərilən tibbi xidmətin təşkili barədə müvafiq tapşırıqlar vermişdir".**

Bu xəbəri istənilən sivil dövlətdə bir yoldan ötənə oxusan gülməkdən qarnı cırılar, deyər ki, bəyəm Ali Məclis sədri ginekoloqdur, mamaçadır, yaxud səhiyyə naziridir? Onun hamilə qadınlara tibbi xidmətin təşkili barədə hansı "müvafiq tapşırıqları" ola bilər? Ancaq bizim kimi avtoritar rejimlərdə heç kim Ali Sovet sədrinin uşaq doğuzdurmaq, baş nazirin çayxana yeri vermək, nə bilim, icra hakiminin kolbasa, nazirin banan satmaq işlərinə baxmasına heyrət eləmir. Nəticədə biz gülmürük, qarnımız da cırılıb ölmürük. Buna görə ölkə rəhbərliyinə çoxlu təşəkkür edirik. Harda var belə dövlət?

Örnək üçün, Türkiyədə baş nazir Ərdoğan qadınlara minimum 3 uşaq doğmaq göstərişi verməmişdimi? Halbuki, yuxarıda yazdığım kimi, sivil dövlətlərdə hökumət insanların neçə uşaq doğmasına qarışmır, parlament sədri də kəndlərə gedib hamilə qadınlara qulluq üzrə əmrlər vermir. Əksinə, dövlət proqramlar, qanunlar hazırlayır, hamilə qadınlar da bundan yararlanır.

Bizdə hamilə qadınlara dövlət qayğısının başqa bir təzahürü türmədə peyda olmuşdur. Sözgəlişi, mən bu yaxınlarda türmələrimizdəki inkişafı tərənnüm etmişdim. Yazımda qeyd etmişdim ki, ədliyyə naziri Fikrət müəllimin, penitensiar idarənin rəisi Mədət müəllimin atalıq qayğısı sayəsində bizim türmələrdə böyük tərəqqi var. Türmələrdə dustaqlar arasında sumo güləşi yarışlarından tutmuş yazıçı Anarın "Ala-bula boz keçi" romanının müzakirəsi və imza gününə qədər min cür tədbir keçirilir, dustaqlar istəyəndə türmədə evlənir, ailə həyatı qururlar. Uzun sözün qısası, indi bu "ailələrdən" biri məhsul veribdir, dustaq qadının uşağı olub. İntəhası, uşağın atası ortada yoxdur, neçə gündür Azərbaycan mediası bu hadisəni araşdırır.

Müxtəlif versiyalar var. Misal üçün, qadının müqəddəs olması. Doğrudan da, bəlkə bu uşaq müəyyən dini inancda olduğu kimi - Tanrının övladıdır? Azərbaycan türmələri seçilmiş yerdir, orda nə təriqət desən yarana bilər.

Yaxud deyirlər bu iş amerikalı eks-prezident Bill Klintonun əməlidir. Monika əhvalatını unutmamışıq, nə biləsən... Bəlkə Klinton arada gəlib bizim qadın kolonuna, Mədət müəllimi yuxuya verib, keçib içəri...

Ancaq bütün versiyaları qırağa ataraq deyə bilərəm ki, o uşağın yeganə atası bizim dövlətimiz, dövlətçiliyimizdir! Güclü dövlət varsa, qadınlar toxunmadan hamilə qala bilirlər! Necə deyərlər, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir! Ordum varsa, yurdum var! Tarix həmişə hər şeyi öz yerinə qoyur!

Hamilə qadınlara bu cür diqqətin fonunda İmişlidən gələn xəbər ürəyimizi ağrıtdı. Orda bir qadın özünü icra hakimiyyətinin qabağında yandırmaq istəyib, lakin cəsur polislərimiz qadını tutub yanğını söndürüblər, özünü dama salıblar. Axı sən niyə yanırsan? Lazım deyil. Birincisi, hər yanan şam deyil, ikincisi, türmədə insanlar xoşbəxt yaşayırsa, azadlıqda ikiqat xoşbəxt olmalıdırlar. Buna məhkumdurlar.

Bu mənada, nəqliyyat naziri Ziya Məmmədovun sürətli qatarlar haqda suala mənfi cavabı tamamilə dövlətçiliyə ziddir. Jurnalistlər soruşublar ki, ay Ziya müəllim, milyardlarla neft pulu əlinizin altından gəldi-getdi, rayonlar cəhənnəmə, niyə heç olmazsa Sumqayıta sürətli bir qatar marşrutu qayırmadınız? Əlbəttə, bunu zarafat üçün yazdım - bizdə belə təhqiramiz sual verən jurnalist ömrü boyu MŞ üzvü ola bilməz. Jurnalistlər sadəcə "Tıq-tıq-tıq-tıq, Qatar gəlir uzaqdan" mahnısı oxuyublar, Ziya müəllim də anlayıb, deyib ki, uşaqlar, neftin qiyməti düşüb, sürət qatarı indi ancaq xəyaldır.

Xəyal niyə olur? Bəyəm türmədə qeybdən hamilə qalanı görmürsən? Sən də dövlətə arxalan, gör 9 aydan sonra xəttə neçə qatar çıxır.

# Hökumət də həbsxanalardakı vəziyyətdən narahatdır

**Həbsxanalarda işgəncə faktları və müəmmalı məhbus ölümləri Penitensiar Xidmətin rəisi general-mayor Mədət Quliyevə ciddi problemlər yaradıb. Son bir ayda baş verənlərin statistikası artıq hökumətin müvafiq qurumlarını narahat edib. Son olaraq Penitensiar Xidmətin 17 saylı cəzaçəkmə müəssisəsində İsrayıl İsmayıl oğlu Ağayevin özünü asması hökumət çevrələrində M.Quliyevi ciddi qınağa gətirib.**



# General Mədət Quliyev hədəfdə

## Son bir ayda türmələrdə baş verənlərin statistikası artıq hökumətin müvafiq qurumlarını narahat edib və ölkə başçısının CM-də yoxlamalara başlanılması ilə bağlı qərarı gözlənilir; İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri general-mayoru niyə qisasçılıqda ittiham edir?

Qeyd edək ki, bu, son bir ayda Penitensiar Xidmətlə bağlı üçüncü qalmaqallı hadisədir. Bundan əvvəl 14 saylı həbsxanada məhkum Elşad Babayev işgəncə ilə öldürülmüşdü. Penitensiar Xidmət Elşad Babayevin ürək tutmasından öldüyünü bildirsə də, mərhumun bacısı Simuzər Babayeva qardaşının işgəncə ilə öldürüldüyünü təsdiq edən fotolar yaymışdı.

Bunun ardınca isə Şəmkirin keçmiş icra başçısı Aslan Aslanovun oğlunu qətlə yetirməkdə təqsirləndirilən Lamiyə Quliyevanın həbsxanada uşaq dünyaya gətirməsi gündəmi zəbt etdi. Penitensiar Xidmət hələ də bu hadisə ilə bağlı ağlabatan izahat verməyib.

Həbsxanada baş verənlərlə bağlı müxalifətin bəyanatları bir yana, hüquq müdafiəçiləri, xüsusilə **İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudov** Mədət Quliyevi qisasçılıqda ittiham edir. Hüquq müdafiəçisi son açıqlamasında deyib ki, PX rəisi ona müraciət edən məhbuslara işgəncə verdirir. "Artıq üç ilə yaxındır ki, haqlı tənqidimə görə Mədət Quliyevin göstərişi ilə mənə cəzaçəkmə müəssisələrində monitorinq aparmağa məhdudiyyət qoyulub. İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin cəzaçəkmə müəssisələrində monitorinq aparmasına qadağa qoymasına nə ad vermək olar? Onlar cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərə qarşı işgəncə və qeyri-insani rəftarı gizlədirlər. Hazırda biz bu cür təzyiqlərə məruz qalan insanlarla görüşə bilmirik. Buna də Mədət Quliyev tərəfindən göstəriş verilib" deyə, hüquq müdafiəçisi bildirib.

Penitensiar Xidmətə 2011-ci ilin fevralından rəhbərlik edən M.Quliyev bu vəzifədə Nazim Ələkbərovu əvəz edib. Prezidentin sinif yoldaşı olan N.Ələkbərovun o zaman işdən çıxarılmasına əsas səbəb kimi də məhz həbsxanalardakı dözülməz vəziyyət göstərilirdi. M.Quliyevin rəis təyin olunmasından sonra türmələrdə xüsusi qaydalar qoyulduğu, nüfuzlu dustaqların yaratdığı "obşak"ları dağıtdığı barədə xəbərlər yayıldı.

Penitensiar Xidmətin rəhbərinin rəis təyin edildikdən sonra ədliyyə naziri F.Məmmədovun kadrlarını da işdən çıxardığı barədə xəbərlər var. Ədliyyə orqanlarında cərəyan edən proseslərdən xəbərdar ola mənbənin bildirdiyinə görə, nazirlə müavin arasında *(M.Quliyev həm də ədliyyə nazirinin müavinidir)* münasibətlər indi əvvəlki kimi isti deyil. Mənbənin iddiasına görə, xidmət rəhbərinə müəyyən güzəşt edən nazir ona yerini göstərmək üçün əlverişli məqam gözləyir. "İndi belə bir məqam yetişib", - deyən qaynağımız onu da qeyd edib ki, hər şey ölkə başçısının həbsxanalarda yoxlamalara başlanılması ilə bağlı gözlənilən qərarından asılı olacaq.

Bugünlərdə ölkə mediasına müsahibəsində PX rəhbəri maraqlı açıqlama da verib. O, deyib ki, onların fəaliyyətlərinə ədliyyə naziri özü nəzarət edir: "Qanundankənar hərəkətimiz olsa, cızığımızdan çıxsaq, bizi də qulağımızdan tutub çölə atarlar", - deyə, M.Quliyev bildirib.

Hökumətin həbsxanalardakı durumla bağlı narahatlığı üçün ciddi səbəblər var. Həbsxana qapalı məkan olsa da, ölkədəki vəziyyətə adekvat reaksiyalar verə bilir və bəzən elə hər şeyin dustaqların qaldırdığı bir etirazla da alovlanması mümkündür. Bu səbəbdən yaxın günlərdə həbsxanalardakı vəziyyətə hökumətin ən yüksək səviyyədə müdaxilə etməsi, kimlərinsə vəzifəsini, poqonunu itirməsi tam mümkündür.

❑ **Xəbər xidməti**

# Leyla Yunus beynəlxalq həkim müayinəsindən keçirildi

## Müayinə prosesinin foto və videoçəkilişi aparılıb

**Ədliyyə Nazirliyinin Penitensiar Xidməti Bakı İstintaq Təcridxanasında saxlanılan hüquq müdafiəçisi Leyla Yunus barədə təzə məlumat yayıb.**

Modern.az saytının məlumatına görə, Penitensiar Xidmət bildirib ki, Leyla Yunusun səhhəti barədə yayılan şayiələrə son qoymaq məqsədilə Almaniyanın tanınmış "Charite" xəstəxanasının şöbə müdiri, professor Dr. Kristian Vittin onu müayinə etməsinə razılıq verilib və bunun üçün bütün şərait yaradılıb.

"Təqsirləndirilən şəxs Leyla Yunusovanın tam müayinəsi 2014-cü il dekabrın 29-da Respublika Diaqnostika Mərkəzində Kristian Vitt və Azərbaycanın müxtəlif sahələr üzrə yüksək ixtisaslı həkimləri - professorlar Murad Məmmədov, Gəray Gəraybəyli, Rauf Ağayev və tibb elmləri doktoru Rövşən Həsənovun iştirakı ilə aparılıb.


Leyla Yunus

Ədliyyə Nazirliyinin Penitensiar Xidməti bildirir ki, 2015-ci il yanvarın 26-da Respublika Diaqnostika Mərkəzində Leyla Yunusovanın növbəti müayinəsi həyata keçirilib, laborator analizlər üçün qan nümunələri götürülüb. Leyla Yunusovaya ginekoloji və onkoloji müayinədən keçmək dəfələrlə təklif edilib, lakin o, həmin müayinələrdən imtina edib.

Müayinə aparmış beynəlxalq həkim qrupunun tərkibinə əvvəlki müayinədə iştirak etmiş mütəxəssislərlə yanaşı, həmçinin Macarıstanın Budapeşt şəhərindəki "Metropolitan" Onkoginekoloji Mərkəzinin rəhbəri professor Laszlo Unqar və tanınmış ginekoloq professor Aleksandr Borsukov daxil edilib.

Müayinənin nəticəsi olaraq, beynəlxalq həkim qrupu tərəfindən protokol tərtib edilib, nəticələr sənədləşdirilib və müayinə prosesinin foto və videoçəkilişi aparılıb".

# "Lotu Yunus" Moskvada tutuldu

**Rusiyanın paytaxtı Moskva şəhərində kriminal avtoritetlər və "qanuni oğruların" keçirdiyi "sxodka"ya polis basqını olub.**

Modern.az saytı Rusiya mətbuatına istinadən xəbər verir ki, Rusiya Daxili İşlər Nazirliyinin əməkdaşları "Rıs" xüsusi təyinatlı dəstəsi ilə birlikdə "sxodka"da iştirak edən 50 nəfər avtoriteti saxlayıb. Həmin şəxslərin kriminal aləmdəki maliyyə bölgülərini və mövcud vəziyyəti müzakirə etdikləri müəyyən olunub.

Onlar arasında kriminal aləmdə "Yunus" adı ilə tanınan 54 yaşlı azərbaycanlı "qanuni oğru" da var. Qeyd edək ki, "Yunus" ləqəbl ilə tanınan azərbaycanlı "qanuni oğru"nun əsl adı Nəzərov Yunus Canəhməd oğludur. O, 1961-ci il oktyabrın 23-də anadan olub. 2006-cı ildə o, Bakıda məhkumluq həyatı yaşayıb.

# İqtidar niyə Amerika səfirliyinə bina tikməyə yer vermir?

**“İqtidar daxilində anti-Amerika ritorikası güclənib. Mən də Amerikanı ikili standartda qınaya bilərəm. Ancaq nəzərə almaq lazımdır ki, Rusiyada da ikili standartlar var. Bu məsələdə Amerikanın üzərinə gedərkən Rusiyanı kənarda qoymaq obyektivlikdən uzaqdır. Rusiyaya ayrıca torpaq sahəsi verilir, qonaqlar üçün bina tikilir. Ancaq Amerika səfirliyinə torpaq sahəsi ayrılmır".**



**Elxan Şahinoğlu:**
“Düşünmürəm ki, bu məsələdə rus faktoru var, ola bilsin ki...”



**Ərəstun Oruclu:**
“Bizim bilmədiyimiz çox ciddi problemlər var”

**Bu sözləri “Yeni Müsavat”a şərhində “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** rəsmi Bakının Amerika səfirliyinə yeni bina tikintisi üçün ərazi ayırmaması haqda danışarkən qeyd etdi. Politoloq dəfələrlə ABŞ səfirliyində olduğunu və binanın darısqallığını vurğuladı: “Hətta yer olmadığı üçün dəhlizdə stul qoyub fikir mübadiləsi aparılıb.

SSRİ ilə Amerika arasında gedən “soyuq müharibə” dövründə belə Moskvada ABŞ səfirliyi üçün geniş sahə ayrılmışdı, bina tikilmişdi. Rəsmi Bakı qeyd edir ki, Azərbaycan regionun lider dövlətidir. Amma bu məsələdə görünür ki, lider dövlət Gürcüstandır. Çünki Amerikanın ən böyük səfirliyi Tiflisdə yerləşir. Əli Həsənov “Blumberq” agentliyinə müsahibəsində də qeyd etmişdi ki, bəzi problemlər var, amma enerji sahəsində sıx əməkdaşlıq edilir. Əgər belədirsə, imkan yaradılmalıdır ki, səfirlik bina tiksin. Con Kerri bununla əlaqədar zəng edirsə, deməli, rəsmi Vaşinqtonu narahat edir".

**Siyasi analitik səfirliyə yer verməkdən imtina olunmasında Rusiya faktorunu olduğunu düşünmür. Onun fikrincə, Kreml amili çox şişirdilib və Azərbaycan tərəfi hər addımında şimali qonşusunu nəzərə ala bilməz:** “Mən Rusiya faktorunu şişirtməyin əleyhinəyəm. Azərbaycan Ukraynanın ərazi bütövlüyünü tanıdığını açıqlayır, amma Krımın işğal olunduğunu dilə gətirmir.

Hər yerdə Rusiya maraqlarını nəzərə almaq olmaz ki? Düşünmürəm ki, bu məsələdə rus faktoru var. Ola bilsin ki, böyük səfirlik daha çox diplomatın işləməsi deməkdir və ona görə razılıq vermirlər. Mən də İraq və Suriya siyasətində Amerikanı bəyənmirəm. Ancaq hər məsələdə bu dövləti günahkar çıxarmaq olmaz. Nəzərə almaq lazımdır ki, ABŞ fövqəldövlətdir. Bir qütblü dünyada təkqütblüyə iddia edən dövlətdir. Azərbaycan isə kiçik dövlətdir.

Yadıma gəlir ki, 90-cı illərin ortalarında Amerika ilə ikitərəfli əməkdaşlıq yüksək səviyyədə idi. Sadəcə, ABŞ da Dağlıq Qarabağ probleminin həllində səylərini artırmalıdır, İlham Əliyevi Vaşinqtona dəvət etməlidir. Heydər Əliyev bir neçə dəfə Amerikada olmuşdu. Vaşinqton bunları da görməlidir. Azərbaycan tərəfi isə səfirliyə torpaq verməməklə əlavə gərginlik yarada bilər".

**“Şərq-Qərb” Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclunun fikrincə, rəsmi Bakı ABŞ-a müharibə elan edib. Onun sözlərinə görə, səfirliyə ərazi verməkdən imtina olunması qeyri-adi və anlaşılmaz haldır. Politoloq bununla belə, torpaq sahəsi ayrılmasından imtina edilməsini mümkün sayır:** “Hətta bir-birinə rəqib dövlətlər qarşılıqlı belə münasibət saxlamır. Səfirliyə torpaq verməkdən imtina olunması artıq siyasi-diplomatik münasibətlərdən kənar addımdır. Diplomatik əlaqələrdə müəyyən tənzimləmələr var. Dövlət əhəmiyyətli tikintilərin inşasında razılaşmalar olur. Görünür, münasibətlərdə bizim bilmədiyimiz çox ciddi problemlər var”.

Ə.Oruclu iqtidardakı dairələrdən birinin ABŞ-la münasibətləri gərginləşdirməkdə maraqlı olduğunu istisna etmir: “Ancaq nəzərə almaq lazımdır ki, iqtidar piramidası mövcuddur və qərarların verilməsində birinci şəxsin xəbəri olur. Sadəcə, bilmədiyimiz nüanslar var, siyasi münasibətlərdə hansısa ziddiyyətlər mövcuddur”.

Qeyd edək ki, Azərbaycan hökuməti ABŞ-la əvvəllər imzalanmış müqaviləyə əsasən Bakıda bu ölkə üçün səfirlik binası tikilməsinə icazə verməkdən imtina edib. Səbəb 2013-cü il seçkilərinin nəticələrinin Vaşinqton tərəfindən tənqid edilməsidir. “Turan”a diplomatik mənbələrdən bildirilib ki, dövlət katibi Con Kerri 2014-cü ilin fevralında prezident İlham Əliyevə məktub ünvanlayaraq rəsmi Bakını əməkdaşlığa çağırıb.

Yada salaq ki, sabiq deputat Hüseyn Abdullayevlə hakimiyyət arasında narazılıq da məhz ABŞ səfirliyi üçün nəzərdə tutulan yeni bina məsələsinə görə gərginləşmişdi.

Ötən ilin fevralında H.Abdullayev prezident İlham Əliyevə müraciətində bu barədə geniş məlumat vermişdi. Sabiq deputat iddia edirdi ki, Heydər Əliyev Mərkəzinin qarşısında - Yusif Səfərov küçəsi, 30 ünvanında, eləcə də Alatava küçəsi, 2 ünvanında yerləşən valideynlərinə məxsus torpaq sahələrində ABŞ-ın Azərbaycandakı səfirliyinin yeni binasının tikintisi üçün alqı-satqı müqavilələr imzalanmış və ilkin razılaşma əldə olunub.

Amma bu müqavilələr bağlandıqdan və alqı-satqı prosesinə start verildikdən sonra prezidentin iqtisadi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyası rəhbərinin müavini Əli Əsədov H.Abdullayevə zəng edərək bildirib ki, onun amerikanlarla müqavilə bağlamağı prezidenti qəzəbləndirib.

❑ **Emil SALAMOĞLU**



## “Yəhudi lobbisi Vaşinqtonda bizə kömək edir”

### Prezident Administrasiyası İctimai-siyasi şöbəsinin müdiri Bakıda səfərdə olan İsrail nümayəndə heyəti ilə görüşüb

**Azərbaycan İsraili “olduqca mühüm” müttəfiq və strateji tərəfdaş hesab edir. Virtualaz.org saytı xəbər verir ki, bu barədə Prezident Administrasiyası İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənov Bakıda səfərdə olan İsrail nümayəndə heyəti ilə görüşdə deyib.**

Məlumatı İsrailin “The Jerusalem Post” qəzeti yayıb. Qəzet Əli Həsənovun İsrailin Akko şəhərinin meri Şimon Lankri ilə onun Bakıya yanvarın 26-da baş tutmuş səfəri zamanı keçirdiyi görüşdən sitatlar gətirir.

Prezident Administrasiyası rəsmisinin sözlərinə görə, İranla qonşu olan dünyəvi müsəlman ölkəsinin İsraillə münasibətləri “təzyiqlərə baxmayaraq” inkişaf edəcək və çiçəklənəcək.

“Bizim bütün ölkələrlə qarşılıqlı maraqlara söykənən münasibətlərimiz var, o cümlədən bir-biri ilə rəqib olan ölkələrlə” - Ə.Həsənov deyib.

Azərbaycan rəsmisi buna misal olaraq Bakının Rusiya və ABŞ-la münasibətlərini, həmçinin İran, Türkiyə və İsraillə tərəfdaşlığını göstərib. Ə.Həsənov deyib ki, o, yanvarın əvvəllərində prezident İlham Əliyevi Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşündə müşayiət edib, ancaq bir dəfə də bunun şahidi olmayıb ki, Türkiyədən kimsə Azərbaycanın İsraillə sürətlə inkişaf edən münasibətlərinin soyumasını, yaxud kəsilməsini xahiş etsin.

Bundan əlavə, Prezident Administrasiyası rəsmisinin sözlərinə görə, İsraillə yaxşı münasibətlər Azərbaycana Vaşinqtonda kömək edir. Belə ki, Amerika paytaxtında fəaliyyət göstərən yəhudi qrupları və İsrail liderləri amerikalı həmkarları ilə Azərbaycana dair çoxlu diskussiyalar aparırlar.

Həmçinin Azərbaycan və İsrail etibarlı hərbi tərəfdaşlıq münasibətlərinə malikdir. Ə.Həsənov Azərbaycanın İslam Konfransı Təşkilatına üzv olan müsəlman ölkəsi kimi eyni zamanda İsraillə yaxın münasibətlərə malik olmasını başqa müsəlman ölkələri üçün nümunə hesab edir.

# Hakimiyyət iki deputatı ABŞ-a göndərdi

## Rəsmi Bakı Vaşinqtonla dil tapmağa çalışır

**Azərbaycan prezidentinin Avropaya səfəri və Almaniya baş naziri ilə görüşündən sonra rəsmi Bakının Avropa ilə münasibətlərində yumşalmanın yaranması ilə bağlı rəylər formalaşıb. Bir sıra ekspertlərə görə, Azərbaycan hökuməti hazırda yalnız ABŞ hökuməti ilə anlaşa bilmir. Yeri gəlmişkən, ötən gün deputatlar Səməd Seyidov və Asim Mollazadənin ABŞ-a səfər edəcəyi haqda xəbərlərin yayılması göstərir ki, Bakı Vaşinqtonla dil tapmağa çalışır.**



Azərbaycan-ABŞ münasibətləri uzun müddət enerji və təhlükəsizlik sahəsində genişmiqyaslı əməkdaşlıq üzərində qurulub. Lakin son illərdə, xüsusən də son aylarda münasibətlərdə kəskin soyuqluq müşahidə olunmağa başlayıb. **Politoloq Ərəstun Oruclu** deyir ki, hazırda Avropa və Amerikanın Azərbaycana münasibətində ciddi fərq yoxdur, sadəcə, Avropada xarici siyasət kursu nisbətən yumşaq olduğu üçün yanaşmadan fərq hiss olunur: “Güman etmirəm ki, digər təşkilat və ya dövlətlərlə hansısa anlaşma əldə olunub. Yekun anlaşmadan hələ söhbət gedə bilməz. Mən hesab edirəm ki, İlham Əliyevin Almaniya səfəri ətrafında bir az həddindən artıq hay-küylü təbliğat aparıldı. Əslində orda hansı uğurun olması haqda məlumat yoxdur. Kansler Angel Merkelin Dağlıq Qarabağın işğal faktı və Ermənistanın Rusiya ilə əməkdaşlığı haqda danışmasından başqa.

İstisna etmirəm ki, Amerika rəsmilərindən kiminləsə görüş olacaq. Ancaq baxır o görüşdə nə müzakirə olunur. Mən əminəm ki, Avropa dövlətləri və institutları Azərbaycandakı insan haqları məsələsini gündəmdən çıxarmayacaqlar. Ona görə ki, bu tələblər Avropa qurumları tərəfindən irəli sürülüb, Avropa Parlamentinin qətnaməsində öz əksini tapıb. Bu baxımdan güman eləmirəm ki, bunun üstündən belə asanlıqla keçəcəklər. Sadəcə olaraq, avropalıların xarici siyasət kursu həmişə bir qədər daha yumşaq olub, nəinki amerikalıların".

**Politoloq bildirdi ki, ABŞ uzun illər Azərbaycan hökuməti ilə enerji və təhlükəsizlik sahəsində yaxından əməkdaşlıq edib, lakin indi situasiya dəyişib və Vaşinqtonun gündəminə insan haqları, demokratiya mövzuları gəlib:** “Baxmayaraq ki, ABŞ uzun illər Azərbaycanda baş verənlərə göz yumub və demək olar ki, bütün əməkdaşlığı enerji sahəsində, təhlükəsizlik və terrora qarşı mübarizə sahəsində əməkdaşlıq blokları üzərində qurub prioritet istiqamət kimi. Ancaq artıq bu bəndlər mən deyərdim ki, gündəmdən çıxıb və artıq dünyada neft və qazla kimisə təəccübləndirmək mümkün deyil. Hələ yaxın bir neçə ildə nələrin olacağı, neftin taleyinin necə olacağı bəlli deyil. Digər tərəfdən, Azərbaycan və ABŞ arasında Əfqanıstandan çıxarılan NATO və ABŞ qoşunlarının daşınması ilə bağlı əməkdaşlıq vardı. Azərbaycan tərəfi bundan da sui-istifadə elədi. Nəinki ölkədəki vətəndaş cəmiyyəti institutlarını, medianı dağıtdı, hətta ABŞ-ın müxtəlif institutlarını ölkədən qovub çıxardı. İndi artıq hərbi əməkdaşlıq sahəsində də qarşıya qoyulmuş vəzifələr başa çatıb. Şübhəsiz ki, bu gün üçün prioritet məsələ insan haqları, demokratiyanın vəziyyəti, vətəndaş cəmiyyəti institutlarının durumudur”.

**Ə.Oruclu deyir ki, ABŞ-ın Azərbaycana yönəlik siyasətində təzyiq elementi olsa da, istənilən halda daxili ictimai rəyin təsiri var və mərkəzi hakimiyyət istər-istəməz hökumətə məsafəli yanaşır:** “Bir çox hallarda bunu bir siyasi təzyiq vasitəsi kimi təqdim edirlər. Düzdür, bu da var və heç kim bunu inkar edəmir. Amma sadəcə olaraq, Azərbaycandakı vəziyyət elə bir kritik həddə çatıbdır ki, Qərb siyasətçilərinin özləri bunu görməyə bilmirlər. Eyni zamanda cəmiyyət, media imkan vermir. Məsələn, "Vaşinqton Post" qəzetində prezident Obamanın diktatorlarla əməkdaşlığı və yumşaq münasibət göstərməsi çox kəskin şəkildə tənqid olunub. Və aydın məsələdir ki, ABŞ prezidenti “Vaşinqton Post”un yazdığına reaksiya verməyə bilməz. Çünki ABŞ demokratik ölkədir, orda prezidenti Mərkəzi Seçki Komissiyası təyin eləmir, seçicilər seçir. Eyni zamanda o, təkcə özünə görə deyil, partiyasına görə də məsuliyyət daşıyır. Belə məqamlar var. Şübhəsiz ki, bu məsələ gündəmdədir və gündəmdə qalmaqda davam edəcək. Düşünürəm ki, Azərbaycana münasibətdə ABŞ və Avropa Birliyi fərqli siyasət yürüdəcək. Mən əminəm ki, belə olmayacaq və bu mümkün də deyil".

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 19 (6047) 28 yanvar 2015



# Demis Russosu düşünərkən...

Hüseynbala SƏLİMOV

**Bəli, yunan müğənnisi Demis Russos da vəfat etdi... Bəlkə də indiki gəncliyə bu ad çox şey demir... Doğrusu, onların estrada kumirləri haqqında mənim elə bir təsəvvürüm yoxdur-müasir estradanı kimlərin təcəssüm etdirməsindən xəbərsizəm, mənim sevdiyim qruplar isə artıq ya dağılıb, ya da tarixə qovuşub...**

Amma o vaxt Demis Russosu biz çox sevərdik- gözəl səs, lirik nəğmələr həqiqətən də adamın ruhunu oxaşıyırdı. Düzdür, sovet təbliğatının bir estrada filtri də vardı. Amma özü bəzən bu filtrləri götürməli olurdu, çünki bir çox hallarda xarici estrada qrupları öz nəğmələrində yaşadıqları ölkənin və quruluşun eybəcərliklərindən bəhs edirdi...

Həm də heç də hamı oxunan nəğmələrin sözlərini başa düşmürdü, biz sadəcə, onların melodiyaları altında rəqs edirdik...

Tələbəlik vaxtı pasxa günlərində səhərə qədər diskoteka təşkil edirdilər ki, xristian tələbələr kilsəyə getməsin. Biz də kef çəkirdik-spirtli içki butulkaları biri-birinin ardınca boşalır, musiqinin səsi hər tərəfi bürüyür, qızların səsi yataqxananı başına götürürdü...

Uşaqlıq və gənclik elə şeydir ki, onlar adama hədsiz dərəcədə şirin görünür. O illərin təkrarsızlığı adamı belə bir fikrə yönəldir ki, indi guya hər şeyin dadı qaçıbdır, amma o vaxtlar isə...

Bəli, ardını yazmıram, çünki yazısız da bəllidir ki, o dövrü fetişləşdirəcəm. Ola bilsin, onda da dünyada böyük şou-biznes, şou-industriya vardı. Amma biz bundan xəbərsiz idik. Heyranlıqla ABBA haqqında filmə baxırdıq və o atmosferi tutmağa çalışırdıq...

Biz, sovet gəncləri, bir qədər təcrid olunmuşduq. Dünya haqqında təsəvvürlərimizi xarici tələbələrin hesabına genişləndirməyə çalışırdıq. Bəli, yerli estrada qrupları, müğənniləri də vardı - Andrey Makareviç və qrupu, Alla Puqaçova, Leontyev və s.

Amma o vaxt xarici estrada qrupları bir sosial fenomen kimi, bir etiraz kimi bizə o qədər də tanış deyildi. Məsələn, fərqinə varmırdıq ki, ABBA "İnsanlar yolunu azıb" - deyə oxuyurdular. Eşitmişdik ki, filan qrup "Brejnev Əfqanıstanı tutdu"-deyə oxuduğuna görə qadağan olub. Amma bütün bunlar bizim romantik gəncliyimizi dəyişmək iqtidarında deyildi-şənbə gününü, diskotekanı səbirsizliklə gözləyir, şərab ehtiyatı görürdük...

Adam gəncliyində nəyisə sevir, amma yaşa dolduqca sadəcə anlamağa çalışır.

Bu anlamaq prosesi çox yorucudur, bezdiricidir, əvvəlki romantikadan əsər-əlamət qalmır...

Sonradan mən estrada qruplarının nəğmələr toplusunu almağa başladım. Sovet vaxtı bu, bəlkə də mümkün deyildi. Amma sonrakı dövrlərdə Rusiya nəşriyyatları nədən pul çıxarmırdılar? Qərəz, mən bu topluları almağa başladım və gördüm ki... Bəli, gördüm ki, ay dadi-bidad, bunlar bizimki kimi "sevgilim-yarım" deyil, böyük poeziyadır, etiraz poeziyasıdır...

Beləcə, mən xarici estradanı, daha doğrusu, klassikaya çevrilmiş qrupları bir daha özüm üçün kəşf etdim...

Amma gec idi. Əslində biz bunu cavanlıqda etməli idik. Qismət olmadı. Amma "Nə deyir bunlar?" yanğısının üstünə su tökə bildik... İndi daha yaş da o yaş deyil. Bəlkə kimsə hələ də cavan görünmək istəyir. Amma mən olduğum kimi görünməyə çalışıram...

Fikirləşirəm ki, görən, Demis Russos öz sinqllərilə məndə əvvəlki həvəsi, ehtirası oyada bilərmi? İnanmıram.

Bilirsiniz, adam gənclikdə özünü göylərdə görür. Amma yaşa dolduqca Yer səni çəkir, çəkir və bir gün də udur...

Diskotekada yavaş rəqsləri səbirsizliklə gözləyirdik. Yavaş rəqslər zamanı qızları rəqsə dəvət edirdik. İndi bunu bacararıqmı? Vallah, bilmirəm... Burada yadıma məşhur bir film düşür. Deyəsən, adı "Qadın ətri" idi. Bəli, kor hərbçi gənc qadını rəqsə dəvət edir və hamını heyran edən bir rəqs göstərir...

Görünür, bu, da mənəvi güc məsələsidir. İnsanın fiziki və mənəvi gücü olur. Elə adamlar var ki, onlar mənəvi gücləri ahıl vaxtlarına qədər saxlaya bilirlər. Əslində insan mənəvi güc tükənəndə qocalığa birdəfəlik təslim olur... Bəli, çox gec yaşlarda sevməyi heç də hamı bacarmır...

Bunu tək-tük adam edə bilir. İndi mən estradaya da tamam başqa rakursdan baxıram. Vəfat etmiş Demis Russos da mənim üçün müğənnidən daha çox bir dövrdür, o dövr ki, yavaş-yavaş tarixə qovuşur...

# İrandan "Putin İttifaqına qoşuluruq" mesajı

## Qonşu ölkə 2015-ci ildə Avrasiya İqtisadi İttifaqı ilə müqavilə imzalamaq niyyətindədir

**İran 2015-ci ildə Avrasiya İqtisadi İttifaqı ilə ya müqavilə, ya da qarşılıqlı memorandum imzalamaq niyyətindədir və bu imkandan Rusiyaya ixracı üçün yararlanmaq istəyir.**
**Axar.az xəbər verir ki, bunu İranın Moskvadakı səfiri Mehdi Sənai "RİA Novosti"yə verdiyi müsahibəsində deyib.**

"Fikirləşirəm ki, İranın Avrasiya İttifaqı ilə müəyyən iqtisadi əlaqəsinin olması üçün biz bunun üzərində işləməliyik. İran öz ixracı üçün bundan istifadə etməlidir. Ola bilsin ki, hər hansı ya müqavilə, ya memorandum imzalansın" deyə, Sənai bildirib.

Onun sözlərinə görə, İran və Rusiyanın tam əməkdaşlığının qarşısında duran ən böyük problem İran malları üçün yüksək gömrük haqqının olmasıdır:

"Ən böyük problem Rusiyaya ixrac olunan malların gömrük tariflərinin yüksək olmasıdır. İran öz mallarını Rusiyaya birbaşa göndərir. Bu tariflər İran üçün çox yüksəkdir. İranlı biznesmenlər tez-tez bizdən tariflərin endirilməsi üçün müraciət edir. Onlar Rusiyanın Ermənistan, Azərbaycan, Qazaxıstanla olan münasibətlərini misal çəkirlər".

**İranın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Möhsün Pakayin də modern.az-saytına müsahibəsində Rusiya ilə əlaqələrdən və Avrasiya İttifaqına qoşulma ehtimalından danışıb. Sitat:**

"İranla Rusiyanın strateji əlaqələri var. Ancaq bu strateji əlaqə hər hansı üçüncü bir ölkənin əleyhinə deyil. Bizim regionda müştərək mənafelərimiz var və buna əsasən də əməkdaşlıq edirik. Əlaqələrimizin gələcəkdə daha da yaxşılaşdırılması, sıx olması ehtimalı var. Ona görə ki, əməkdaşlıq üçün potensiallar çoxdur. İran və Rusiyanın regional, beynəlxalq məsələlərdə birgə anlaşması çoxdur. Hər iki ölkə regional və beynəlxalq



Mehdi Sənai

məsələlərdə təsiredici gücə malikdir.

Avrasiya İttifaqı Rusiya və bir neçə MDB ölkəsi arasında yaranan təşkilatdır. İran bu ittifaqa rəsmi şəkildə dəvət olunmayıb. Eyni halda biz bütün region ölkələri ilə əməkdaşlıq edirik. Avrasiya İttifaqı İranla yaxın əlaqələr qurmaq istəsə, təbii ki, biz də bunun haqqında düşünərik. Hazırda İran hətta üzvü olmadığı müxtəlif beynəlxalq təşkilatlarla da əməkdaşlıq edir. Bu səbəbdən də biz Avrasiya İttifaqı ilə öz mənafelərimiz çərçivəsində əməkdaşlıq edə bilərik. Əgər bir gün bizdən bu ittifaqın fəaliyyətində iştirak etmək istənilsə, bu barədə düşünə bilərik. Elə həmin anda mövqeyimizin nədən ibarət olduğunu bəyan edə bilərik".

Azərbaycan rəhbərliyi Avrasiya İttifaqına qoşulmayacağı barədə heç vaxt birmənalı fikir bildirməyib. Bu ideya hələ yeni yarananda prezident İlham Əliyev Rusiya telekanallarından birinə bu mövzudan danışarkən "hər hansı quruma üzvlüyü istisna etmirik" ifadəsini işlədib.

Bundan sonra Prezident Administrasiyasında xarici siyasət məsələlərini kurasiya edən Novruz Məmmədov "biz bu ittifaqa qoşulmaq barədə düşünmürük" deyib.

Özbəkistan prezidenti İslam Kərimov isə ölkəsinin Avrasiya İttifaqına və Gömrük İttifaqına qoşulmayacağını, eləcə də hərbi-siyasi bloklara üzv olmayacağını bəyan edib.

Qeyd edək ki, Avrasiya Birliyi bu ilin may ayının 29-da Astanada Rusiya, Qazaxıstan, Belarus prezidentlərinin imzaladığı sənədlə təsis olunub. Oktyabrın 10-da isə ittifaqın Minsk sammitində Ermənistanın quruma üzvlüyü haqqında sənəd imzalandı. 2014-cü ilin sonunda Qırğızıstan Avrasiya İqtisadi İttifaqına qoşulması haqqında müqaviləni imzalayıb.

❑ Xəbər xidməti

# Qərblə anlaşma, yoxsa münasibətlərdə korrektə?

## Ekspertə görə, Avropa ilə hakimiyyətin mövqelərinin bir araya gətirilməsi prosesi başlayıb

**Prezident İlham Əliyevin Avropa Birliyinin aparıcı dövlətlərindən biri olan Almaniyaya işgüzar səfəri və daha sonra İsveçrədəki ənənəvi Davos Forumundakı çıxışları və görüşləri Bakı ilə Avropa arasındakı "buz dövrü"nün arxada qaldığı düşüncələrinə yol açıb.**



"Turan" İnformasiya Agentliyinin direktoru **Mehman Əliyev** isə deyir ki, Merkellə danışıqlarda demokratiya, insan haqları məsələləri gündəmdəydi, xanım kansler də bunu qeyd etdi: "Bu səfərdə həm biz tərəfdən, həm də onlar tərəfdən müəyyən narahatlıqlar ifadə olunub. Məncə, yaxın zamanlarda müsbət addımların atılmasının şahidi olacağıq. Bu ərəfədə bir sıra beynəlxalq təşkilatlar tərəfindən səfərlə bağlı müraciətlər olmuşdu. Belə müraciətlər adətən elə-belə olmur. Yəni o deməkdir ki, həmin şəxs mütləq görüşdə həmin məsələləri qaldıracaq. Eyni zamanda bu, onun öz təşəbbüsü olmayacaq, vətəndaş cəmiyyətinin adından danışacaq, narazılığını bildirəcək. Yəni bunlar bu görüşə hazırlaşırdılar və hazır idilər. Digər tərəfdən, Almaniya səfəri rəsmi yox, işgüzar səfər idi. Bu işgüzar səfər daha çox yaxın zamanlarda, təxminən may ayında imzalanması gözlənilən Avropa Birliyi ilə Strateji Modernləşdirmə haqqında sazişdə əksini tapan öhdəliklər məsələsinə aid idi".

**M.Əliyev prezidentin Almaniya səfərindən sonra Davosda da mühüm görüşlərin olduğunu vurğuladı:** "Onlardan biri də Corc Sorosla keçirilən görüş idi. Sorosun təsirləri kifayət qədər böyükdür. Hətta "Nyu-York Times" 2009-cu ildə onu ABŞ prezidentinin hakimiyyətə gəlməsində çox mühüm rol oynayan şəxs kimi "Obamanın "xaç atası" elan etmişdi. Ümumiyyətlə, səfərin gedişi də onu göstərdi ki, İlham Əliyev Avropaya kifayət qədər narahat gedib və narahat da qayıdıb. İş ondadır ki, o, yanvarın 23-də qayıdıb. O zaman hələ Davos Forumu bitməmişdi. Adətən dövlət başçısı Davosdan dərhal sonra qayıtmırdı, 4-5 gün də qalırdı, istirahət edirdi. Amma bu dəfə dərhal ölkəyə qayıtdı və təcili işə çıxdı. Bu, onu göstərir ki, müəyyən danışıqlar gedib".

**M.Əliyev ölkə başçısının bp-nin prezidenti ilə görüşünə də məxsusi yanaşdı:** "Britaniyada bp-ni "dövlətin içində dövlət" adlandırırlar. Kifayət qədər böyük imkanlara və təsirlərə malik olan bir qurumdur. Yəni hesab edirəm ki, belə görüşlərin olması və aparılan danışıqlar Qərblə Azərbaycan arasında yaxın gələcək məsələsi ilə əlaqədardır. Nəzərə alsaq ki, bizdə də böhran başlayıb, neftin qiymətinin düşməsi ilə yanaşı, başqa məsələlər də var ki, bunu proqnozlaşdırırdılar. Hələ 2008-ci ildə Beynəlxalq Valyuta Fondu bəyan edirdi ki, Azərbaycanda böhran başlayacaq. Neftin qiymətinin düşüb-düşməməsindən asılı olmayaraq böhran başladı. Sadəcə olaraq, neftin qiymətinin aşağı düşməsi problemi daha da sərtləşdirib. Yəni bu gün vəziyyət kifayət qədər ağırdır. İlham Əliyevin "biz sınaq ilinə daxil olmuşuq" deməsi də elə-belə deyil. İqtisadi, sosial problemlərlə yanaşı, öhdəliklər də var". Ekspert deyir ki, Avropa ilə Azərbaycan arasındakı anlaşmadan yox, sadəcə, mövqelərin bir araya gətirilməsi və müəyyən korrektələr edilməsindən danışmaq lazımdır.

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 19 (6047) 28 yanvar 2015




# Elman Rüstəmov kredit faizi söhbətinə son qoydu - "enməyəcək"

## Piramida formasındakı borclar vətəndaşa təzyiqdir, yaxın dövr üçün isə kreditlərin həcminin daha da artması gözlənilir...

**Ölkə əhalisinin banklara olan borcu narahat edici səviyyədədir. Əksər ekspertlər bildirirlər ki, borclanma vətəndaşı təzyiq, cəmiyyəti basqı altında saxlama vasitəsidir. Onların fikrincə, borcu olan vətəndaşın ictimai və sosial fəallığı azalır, ölkədəki proseslərə diqqət ayırmaq istəmir. Ancaq ekspertlərin bu mövzuda fikirləri fərqlənir.**

**Ekspert Natiq Cəfərlinin sözlərinə görə, belə bir teoriya digər ölkələrdə də mövcuddur:** "Tək Azərbaycana aid bir məsələ də deyil. Bir çox ölkələrdə, hətta Türkiyədə də bu barədə ciddi müzakirələr gedir. Onların ana müxalifət partiyası, digər müxalifət partiyaları, ekspertlər, yazarlar çox ciddi şəkildə bu məsələni müzakirə edirlər. Yəni bildirilir ki, hökumət bütün əhalini kredit "iynəsinə" oturdub və siyasətdən aralamaq yolunu tutub. İnsanlar ancaq işləyib, qazanıb kreditlərini ödəmək haqqında düşünürlər. Ölkədə olan prosesləri diqqətlə izləmirlər. Yəni belə bir teoriya var. Ola bilər Azərbaycanda da belə bir yol tutulub. Hazırda Azərbaycanda problem ondan ibarətdir ki, bank sektoru çox kiçik və kövrək bir sektordur. Artıq rəsmi rəqəmlərə görə, 1 milyard manatdan çox toksik kreditlər var. Yəni geri qaytarılması mümkün olmayan kredit portfeli var banklarda. Bu, çox böyük bir məbləğdir. Azərbaycan kimi kiçik dövlətin kiçik bank sektoruna çox böyük çətinliklər yarada bilən bir məbləğdir. Əgər bu, düşünülmüş siyasət olsa belə, bunun özündə də Azərbaycandakı stabilliyə, hökumətin önəm verdiyi stabilliyə ciddi təsirlər törədən elementlər var. Ən azından bank sektorunda getdikcə bu problemlər artır. Bank sektorunda çöküş baş versə, bütün ölkələrin iqtisadiyyatına yayıla bilər. Bu isə ümumiyyətlə ölkədə sosial vəziyyəti kəskin şəkildə pisləşdirə bilər. Yəni bankların batması həm də əmanətçilərlə problemlərə gətirib çıxara bilər. Düşünülmüş siyasət varsa, ona görə də yaxın gələcəkdə biz bunun fəsadlarını da görə bilərik. Çünki toksik kreditlərin, geri qayıtmayan kreditlərin həcmi artdıqca bank sektoruna basqı artacaq. Bank sektorunda hər hansı bir çöküş olsa, bu, ümumiyyətlə sosial gərginliyi həddindən artıq yüksək səviyyəyə qaldıra bilər. Çünki bu günün özündə belə beş bankın, çox kiçik bankın bağlanacağı haqqında məlumatların dolaşması insanlarda gərginlik yaradır. Gələcəkdə hansısa banklarda da bu problemlərin yaşana biləcəyi ehtimalını yüksəldir. Ona görə də bu tipli məlumatlar və bu tipli siyasət heç də həmişə gözlənilən nəticələri vermir. Bunun dırnaqarası müsbət cəhətləri hökumət üçün varsa da, mənfi cəhətləri də var. Hətta getdikcə bu mənfi cəhətlər daha da ağırlaşmağa başlayacaq".

**Ekspert Qubad İbadoğlu isə bildirir ki, yaxın dövr üçün kreditlərin həcminin daha da artması gözlənilir:** "Düşünmürəm ki, bu, cəmiyyəti asılı vəziyyətdə saxlamaqdır. Çünki demokratik cəmiyyətlərdə də, məsələn, ABŞ-da da belə kredit borcları, banklara kifayət qədər borcu olan çoxdur. Çünki həm sahibkarlar, həm ev təsərrüfatları adətən bankların kredit vəsaitləri hesabına maliyyələşdirirlər. Kredit qoyuluşları kifayət qədər yüksəkdir. Azərbaycanda bir çox banklar özünün səhv siyasətinin nəticəsində kreditlərin həcmini artırır. Bu, təhlükəli tendensiyanı formalaşdıra bilər. Krediti götürən şəxsin banklara tarixçəsi var, banklar buna nəzər salmır. Hətta on banka kredit borcu olan şəxsə 11-ci bank kredit verir. ABŞ-da, Avropada banklar buna heç vaxt yol vermirlər. Onlar kredit tarixçəsi əsasında qərar qəbul edirlər. Təəssüflər olsun ki, bizdə kredit götürənlərin tarixçəsi olmasına baxmayaraq, yenə də banklar bu kreditləri çox böyük həvəslər ayırırlar. Krediti götürən adamlar da bir bankdan alıb digər bankın kredit borcunu bağlayırlar. Bu da piramida effekti yaradır. Nə vaxtsa bu, ciddi şəkildə krediti qaytarmaq sahəsində problemlərin qabarıq formada ortalığa çıxmasına səbəb olacaq. Bu baxımdan kifayət qədər böyük məbləğlərdə, milyardlarla istifadə olunan kreditlərin hesabına vətəndaşların borclu qalması məsələnin iqtisadi tərəfidir. Məsələnin siyasi tərəfinə gəlincə isə, təbii ki, krediti olan insanlar asılı vəziyyətdədirlər, ancaq burada bankların məqsədləri korporativ məqsədlərdir. Amma onu demək istəyirəm ki, Rusiyadakı vəziyyət və neftin ucuzlaşması səbəbindən investisiyaların maliyyələşdirilməsinin azaldılması və yaxud kəsilməsi son nəticədə əhalinin özünün də sərbəst maliyyələşməsinə gətirib çıxaracaq. Bu problem getdikcə şiddətlənəcək və kreditlərin həcmi, həmçinin geri qaytarılmayan kreditlərin ümumi kredit portfelində payı sürətlə artacaq. Bu, gələcəkdə sosial gərginliyə gətirib çıxara bilər. Bununla bağlı Azərbaycan hökuməti və Mərkəzi Bank narahatdır".

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2014-cü ilin yanvar-noyabr aylarında maliyyə-kredit təşkilatları tərəfindən ölkənin hüquqi və fiziki şəxslərinə verilmiş kreditlərin məbləği artıb. Bu məbləğ 19,1 faiz artaraq, əvvəlki illərdə verilmiş kreditlər də nəzərə alınmaqla, 18,2 milyard manata çatıb. Kreditlərin 79,5 faizi uzun müddətə verilib, 5,4 faizinin isə ödəmə vaxtı keçib.

"İstehlak krediti adətən heç bir məqsəd göstərilmədən verilən kreditlərdir. Bizdə olan məlumatlara görə, bu cür kreditlər yüksək faizlə verilir. Çünki müştərilərdən heç bir təminat tələb olunmur. Burada heç bir bürokratiya, sənədlər, gəlir mənbələri və s. göstərilmir. Bank üçün risk böyükdür. Beynəlxalq təcrübədə də belə kreditlər - zənglə verilən kreditlər, sms-lə və ya kredit kartlarına verilən kreditlərin faizləri yüksəkdir".

Bu sözləri isə Azərbaycan Televiziyasının "Günün nəbzi" verilişinə müsahibəsində **Mərkəzi Bankın sədri Elman Rüstəmov** bildirib (milli.az). "Biz bu problemi bilirik. Banklarla aktiv dialoqdayıq. Bütövlükdə kredit faizlərinə nəzər salsaq, bankların portfelinin 75%-dən çoxunu təşkil edən biznes kreditlərinin faiz dərəcələri əhəmiyyətli dərəcədə aşağıdır - 10-12%. Son illər faizlərin aşağı düşdüyünü müşahidə edirik", - o əlavə edib.

**Onun sözlərinə görə, bəzən dövlətin bu məsələni tənzimləməsi ilə bağlı çağırışlar olur. Ancaq bəzi ölkələrin təcrübəsi göstərir ki, belə məsələlərə dövlətin müdaxiləsi istənilən nəticələri vermir.**

"Bəzi ölkələrdə qanunvericiliklə faizlərin ən yuxarı dərəcələri göstərilir, lakin həmin ölkələrdə qanunvericiliklə depozit faizi də müəyyənləşdirilir. Müştərilərə deyilir ki, sən hansı faizdən yuxarı olmayaraq vəsaitini banklara yerləşdirə bilərsən. İqtisadçı kimi deyə bilərəm ki, həmin ölkələrdə pullar açıq bankçılıqdan kölgə bankçılığına gedir. Sələmçilik inkişaf edir. Sələmçilik də çox ciddi problemdir. Çünki burada dövlətin nəzarəti tam zəifləyir. Həm kredit alanların, həm əmanət qoyanların hüquqları tam qorunmur", - Mərkəzi Bankın sədri vurğulayıb.

❑ **Röya RƏFİYEVA**

# Öldürməyin, boşanın...



**Elşad MƏMMƏDLİ**

**Məmləkətimizdə ailə münaqişələrinin, məişət zorakılıqlarının, qısqanclıq zəminində qətllərin, bıçaqlanma hadisələrinin sayı günbəgün artır. Demək olar ki, hər gün bir kişinin arvadını, hətta keçmiş həyat yoldaşını öldürməsinə dair xəbərlər oxuyuruq mediadan. Yanvarın 26-da da daha bir dəhşətli hadisə baş verdi Bakı şəhərində. Nərimanov rayon sakini, 1973-cü il təvəllüdlü Süleymanov İlham Elləz oğlu qısqanclıq zəminində yaşadığı evdə arvadı, 1979-cu il təvəllüdlü Süleymanova Məhəbbət Nəriman qızının boğaz və bədəninin digər nahiyələrinə çoxsaylı xəsarətlər yetirərək onu öldürüb.**

Mediada bu hadisə "Kişi arvadının başını kəsib küçəyə atdı", "Kişi arvadının boğazını üzdü" kimi qandonduran başlıqlarla təqdim edildi. Təbii olaraq, mən də daxil, jurnalistlər bu xəbəri hərə öz facebook profilində paylaşdılar. Axı indi əsas müzakirə yeri sosial şəbəkədir...

Mənə daha çox bu hadisəyə verilən reaksiyalar maraqlı idi. Ən azı bu yazını yazmaq üçün. Bəziləri bunu vəhşiliyin son həddə çatması kimi qiymətləndirdi, bir başqaları ailə xəyanətlərinin artmasının səbəbini kişilərin məsuliyyətsizliyi, diqqətsizliyi ilə əlaqələndirdi. Kimi də qadınların həddən artıq sərbəst buraxıldıqda "yolunu azmasının" nəticəsi kimi dəyərləndirdi. Bir qism seyrçi insanların aqressivləşməsini genetik modifikasiyalı ərzaqların beyinləri xarab etməsi ilə bağladı. Bir qism də hesab edir ki, sosial problemlərin çoxluğu adamları eyforik həddə çatdırıb. Amma hər kəs yekun olaraq bir düşüncədə idi ki, baş verən qətl hadisəsinin törənməsi şəraiti bir günün, bir anın içərisində yaranmayıb. Yəni əksəriyyət bu qənaətdədir ki, qətl hadisəsinə qədər bu insanlar arasında uzun müddət qovğa, anlaşılmazlıq, çarpışma, dava-dalaş, xəyanət izləri olub...

Əlbəttə, ailə münaqişələri insan oğlu ailə institutunu formalaşdırandan günümüzə qədər davam edir. Elə ailə tapmaq çətindir ki, orada hansısa bir məqamda söz-söhbət olmasın. Ancaq ailədaxili münaqişələrin, gərginliyin faciə ilə bitməsi mərhələsinə qədər gəlib çatmamaq lazımdır. Hər birimiz ən azı cəmiyyətdəki olaylardan görürük ki, bu dava-dalaşların axırı sonda kriminalla bitir. Nəticə çıxarmaq mümkün deyilmi?

İndi arvadını öldürənlərin daha çox göstərdiyi səbəb namus söhbətidir. Düzdür, bir çoxları bunu yalandan uydurur ki, həbsxanada hörmətli oğlan olsun. Amma heç şübhəsiz ki, bu iddiası doğru olanlar da var.

Hamımıza bəllidir ki, kişilərin çoxu namus söhbətini "dədə-baba" qaydası ilə çürütməyə meyllidir. Bu, haradasa mentalitetdən irəli gələn bir məsələdir. Ancaq nəzərə almaq lazımdır ki, guya daha insan təfəkkürünün inkişaf etdiyi dövrdür, 21-ci əsrdir... Müasir dünyada, elə ötənlərdə də adına xələl gətirən arvadını boşayan kişiyə də qeyrətli, yaxşı oğlan kimi yanaşırlar və ən doğru olanı budur. Əgər bir qadın sözünə baxmırsa, Allaha bəndəlik etmirsə, yaxud da hər ikiniz yaxşı insan olduğunuz halda yola getmirsinizsə, sakitcə ərizə verib boşanın. Nə ana öldürülüb uşaqlar yetim qalmasın, nə də kişi ömrünün azı 10 ilini türmədə keçirməsin...

Əlbəttə, burada təkcə kişilərin üzərinə yüklənmək də doğru deyil. Əgər bir qadın ərindən narazıdırsa, ona nifrəti yaranıbsa və ya bir çox qətllərdə göstərilən səbəb kimi, qarşısına "ağ atlı oğlan" indi çıxıbsa, bunun üçün öncə boşanmalıdır. Bir kişinin hissləri, namusu ilə oynamaq göründüyü kimi, heç də həmişə sakitcə ayrılmaqla yekunlaşmır, boğaz da kəsilir... Ona görə də öncə boşanıb, sonra "öz həyatını" yaşamaq lazımdır. Ailə münaqişələrini həll etməyin bütün dünyada sınaqdan çıxmış uyğun variantı adam kimi ayrılmaqdır. Boşanmaq mədəniyyəti olmayanda, axırda mütləq qan düşür.

Və hər kəs nəzərə almalıdır ki, indi "namus söhbətinə" görə baş kəsməyə əksəriyyət başıboşluq kimi yanaşır. Boşanmaq qatil olmaqdan daha asan və uğurludur. Heç dinimizdə də elə şey yoxdur ki, qadından şübhələndin, ya sözünə baxmadı, əlinə bıçaq götürüb doğramalısan. Dinimiz də deyir ki, şübhə olduqda buna yalnız üç şahidin iştirakı ilə şəriət məhkəməsi qərar verə bilər. Yəni dinimizdə də kimsənin Allahın yaratdığı insanı ağına-bozuna baxmadan öldürmək haqqı tanınmır...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 19 (6047) 28 yanvar 2015

## Düşmən Azərbaycana qarşı təxribat taktikasını dəyişir?

# Gədəbəy cəbhəsinə xain hücumun pərdəarxası

**Ermənistanda bu ölkənin hakimiyyəti və Rusiya əleyhinə etirazların gücləndiyi şəraitdə Azərbaycana qarşı diversiya-təxribat hərəkətlərinin artacağı barədə gözləntilərimiz təəssüf ki, özünü doğrultdu. Son günlər düşmən tərəf ciddi itkilər verməsinə baxmayaraq xain hücumlarını davam etdirməkdədir və təəssüflər olsun ki, bu hadisələr zamanı ordumuz da itkilər verib.**

Son vaxtlar Qarabağdakı təmas xəttində ciddi itkilər verən erməni tərəf başqa istiqamətlərdə təxribatlara əl atmaqdadır; ekspertlərə görə, bu, bir mesajdır ki, ordumuz nə vaxtsa torpaqlar uğrunda əməliyyata başlasa, işğalçı qüvvələr başqa istiqamətlərdə bizə problem yaradacaq...

Özü də düşmən bütün cəbhə boyu azğınlığını davam etdirib. Belə ki, İcevandan Ağstafanın kəndləri, həmçinin Gədəbəydəki mövqelərimiz, Berd rayonundan Tovuzdakı yaşayış məntəqələrimiz, Tərtərin kəndləri, həmçinin Ağdam və Füzulinin işğal altındakı ərazilərindən mövqelərimiz atəşə tutulub. Azərbaycan ordusu yanvarın 24-də Goranboy cəbhəsində 3 şəhid verib, həmçinin yaralılarımız var. Düşmən həyasızcasına baş verənlərə görə Azərbaycanı günahlandırır.

"Ermənistan xarici işlər nazirinin 2014-cü ilin yekunlarına dair gecikmiş hesabatı çarəsiz şəkildə Ermənistanın uğursuz xarici siyasətinə bəraət qazandırmaq cəhdindən başqa bir şey deyil",- deyə, Azərbaycan XİN-in mətbuat katibi Hikmət Hacıyev İrəvana cavabında deyib. Xatırladaq ki, Ermənistan prezidenti Serj Sarkisyan "təxribat nəticəsində öldürülmüş erməni əsgərlərinin həyatına görə Azərbaycan ağır əvəz ödəyəcək", - deyə Bakını hədələyib. H.Hacıyevin cavabında isə deyilir ki, "beynəlxalq hüququn norma və prinsiplərinə və BMT Nizamnaməsinə zidd olaraq, Azərbaycana qarşı işğal və təcavüz törətmiş dövlət kimi vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın üzərinə düşür".

**Cəbhədə artan gərginliyin səbəbləri barədə rusiyalı ekspertlərin də maraqlı fikirləri var.** "Qərb Rusiya ilə sərhəddə ikinci gərginliyi yarada bilər. Belə bir proqnozu hələ ötən il vermişdik. Bu, Cənubi Qafqazda, yaxud birbaşa Şimali Qafqazın özündə baş verə bilər. Fikrimcə, yeni hərbi münaqişənin yaranmasına cəhdlər olacaq. Biz artıq Cənubi Qafqazda bunu görürük". Bu fikri politoloq Vitali Arkov söyləmişdi. O, Qarabağda yeni müharibənin baş verməsi ehtimalını yüksək dəyərləndirmiş, II Qarabağ müharibəsinin qalibinin Azərbaycan olacağını demişdi.

Azərbaycanlı hərbi və siyasi ekspertlərin isə cəbhədəki mövcud duruma, xüsusən Tovuz-Gədəbəy zonasından aktivliyin daha çox müşahidə olunmasına, düşmənin bu istiqamətlərdən həmlələrinin artmasına diqqətçəkən baxışları var.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun fikrincə, Gədəbəydə şəhid verməyimiz ondan xəbər verir ki, Ermənistanla savaşa yalnız Qarabağda deyil, bütün sərhəd boyu hazır olmalıyıq:** "Görünür, qarşı tərəf Qarabağ istiqamətində bizə gücü çatmadığından digər istiqamətlərdə uyğun hədəflər axtarır. Başqa yandan, bu bizə mesajdır ki, əgər Azərbaycan ordusu nə vaxtsa Qarabağ istiqamətində əməliyyata başlasa, Ermənistan ordusu bizə başqa istiqamətlərdə problem yaradacaq. Önəmli olan bu mesaja necə cavab verəcəyimizdir. Müdafiə naziri Zakir Həsənov həlak olan hər əsgər və zabitimizin intiqamını düşməndən onqat alacağını açıqlamışdı. Bu hesabla 2015-ci ildə hələ çox belə toqquşmanın şahidi olacağıq. Bir tərəf vuracaq, digər tərəf balans pozulmasın deyə, əks-hücumla itkilərin sayını bərabərləşdirməyə çalışacaq. Yalnız Bakıda Avropa Oyunları zaman toqquşmalara ara veriləcək, atəşkəsə riayət ediləcək. Ermənistan da həmin günlərdə atəşkəsi pozmaqda maraqlı olmayacaq, çünki həmin günlərdə idmançıları Bakıda olacaq".

**E.Şahinoğlu XİN başçılarının planlaşdırılan növbəti görüşündən nəticə gözləmədiyini bildirdi:** "Atəşkəsin pozulub-pozulmamasına onlar cavabdeh olmadıqlarına görə danışıqların sürətləndirilib-sürətləndirilməməsi məsələsinə də nazirlər cavabdeh deyillər. Bu görüş, sadəcə, danışıqların davam etməsi görüntüsü yaradır ki, beynəlxalq aləm vəziyyətdən çox da narahat olmasın".

**Hərbi ekspert Üzeyir Cəfərova görə, Ermənistanda baş verən hər hansı ciddi hadisə dərhal özünü cəbhə bölgəsində göstərir:** "Əgər indiyə kimi İrəvanda və ətrafdakı əyalətlərdə baş verən hadisələrin xronologiyasına baxsaq, bu tendensiyanı açıq görmək mümkündür. Gümrüdəki 102-ci Rusiya hərbi bazasının əsgəri V.Permiyakovun 7 nəfərdən ibarət bir erməni ailəsini xüsusi amansızlıqla qətlə yetirməsi və daxildə baş verən ciddi narazılıqları bir qədər səngitmək üçün cinayətkar Sərkisyan və Ohanyan cütlüyü, dərhal gərginlik mərkəzini cəbhə bölgəsinə yönəldirlər. Əlbəttə ki, bu addımda bizim şimal qonşularımızın da dəsti-xətti görünür. Ona görə də cəbhə xəttindəki son günlər artan


Üzeyir Cəfərov


Zahid Oruc

gərginliyin səbəblərindən biri və bəlkə də birincisi bu amildir desəm, yanılmaram".

**Ü.Cəfərov qeyd etdi ki, Rusiyanın Ukraynada həyata keçirdiyi qanunsuzluqları da əlavə etsək, qarşımıza çox mürəkkəb və rəngarəng bir mənzərə çıxar:** "Ona görə də bu tip hadisələr baş verəndə biz cəbhə xəttində, xüsusən də Ermənistanla sərhəddə sayıqlığı birə-beş artırmalıyıq. Aydın məsələdir ki, belə olan halda itkilərin olması da mümkündür və yuxarı komandanlıq çalışmalıdır ki, şəxsi heyət son dərəcə diqqətli və hazırlıqlı olsun".

**Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc xatırlatdı ki, faktiki olaraq atəşkəs dövründə əsasən Qarabağ cəbhəsində çox dinamik, intensiv, lokal toqquşmaların şahidi olmuşuq:** "Ondan kənarda istər Tovuz, Qazax istiqamətindən, istərsə də Naxçıvandan belə genişmiqyaslı əməliyyatların, toqquşmaların şahidi deyildik. Bu, təkcə ona görə belə olmayıb ki, erməni tərəfi əsas təxribatları Qarabağda törədə biləcəyini yəqin edib və gücünü ora daşıyıb. Məsələnin məğzi həm də ondan ibarət idi ki, heç şübhəsiz, ordan kənarda bu toqquşmaların səbəbini xarici aləmə izah etmək qeyri-mümkün olacaqdı. Qarabağda torpaq, guya hansısa tarixə şəriklik məsələsini qoyub nələrisə iddia etmək mümkündür. Amma Gədəbəy, yaxud Tovuz və Qazaxda bu yöndə məsələləri siyasi yöndən arqumentləşdirmək erməni hərbi və dövlət rəhbərliyinə heç zaman müyəssər olmayıb. Odur ki, bu cinahda nisbi sakitlik hökm sürüb".

**Z.Orucun fikrincə, son dövrlərdəki vəziyyəti isə əvvəlkindən ciddi şəkildə ayırmalıyıq:** "Gerçəklik ondan ibarətdir ki, 2014-cü ildə Qarabağ cəbhəsində itkilər hətta Seyran Ohanyan səviyyəsində də etiraf olunub. Adətən bu quzğunlar və Qarabağ savaşını həyata keçirənlər, təcavüzkarlıqda bilavasitə iştirak edənlər normal reallığı tanımaqdan uzaq, daha fərqli bir leksikonu tirajlayan adamlar idi. Amma 2014-cü ildə ermənilər qeyd etdiyimiz cəbhədə hər hansı nisbi uğur da qazana bilmədi, onlar üçün çox ağır oldu və 2015-ci ilə revanş götürmək kimi bir mesajla adladılar. Amma son hadisələr onu sübuta yetirdi ki, həqiqətən də güc nisbəti qeyri-bərabərdir. Azərbaycan özünün Silahlı Qüvvələrindəki məlum dəyişikliklərdən sonra daha toparlanmış, səfərbər olunmuş və yeni taktikalarla səngərə daxil olub. İndi ordu birləşmələrimizin qarşısında yeni vəzifələr var. Silahlı Qüvvələrin rəhbərliyi səviyyəsində qərargah planları əvvəlki dövrdən xeyli fərqlənir. Bunu ermənilərin və yaxud onların kəşfiyyat məlumatları da müəyyən bir səviyyədə əldə edib. Onlar görürlər ki, həqiqətən də Azərbaycan qarşı tərəfi var-yoxdan çıxarmaq, iqtisadi cəhətdən çökdürmək, həmçinin bu itkilərin Ermənistanda nəticə verməsinə apelyasiya edir, daha çox ona işləyir. Həmin Sərkisyan rejimi ondan narahatdır ki, Qarabağdakı döyüşlər onun hakimiyyətinin iflası və bütövlükdə istefaya getməsi ilə sonuclana bilər. Odur ki, Gədəbəy cəbhəsindən zərbə vururlar. Mənim aləmimdə bu, o demək idi ki, Azərbaycan qüvvələri parçalasın, taktiki cəhətdən hədəfdən yayınsın, imkanlarını daha geniş məkana paylamaqla ermənilərin növbəti zərbəni haradan vura biləcəyini yəqin edə bilməsin. Belə demək mümkündürsə, onlar manevr edirlər, manipulyasiyadadır və işarə edirlər ki, cəbhə xətti geniş bir məkandadır".

**Z.Oruc daha təhlükəli təxribatların olmasını da istisna etmir:** "Yəqin ki, bundan sonra hər hansı terror planları da meydana çıxa bilər. Məhdud qrupların diversiyası Azərbaycanın içərilərinə irəliləmək və orada zərbə vurmaqla geri dönmək yolunu seçə bilərlər. Çünki genişmiqyaslı toqquşmalar onlara fayda vermir. Azərbaycan göstərir ki, artıq hədəf vertolyot, tank, top və zabitlərdir. Yəni bəlkə də əsgərlər o qədər önəmli deyil, Azərbaycanın hədəfində deyil".

**Deputat qeyd etdi ki, cəbhədəki gərgin vəziyyətlə bağlı Milli Məclisin 2 fevral iclasında fikirlərini bölüşəcək:** "Parlamentdə bu məsələlərlə bağlı dinləmələr qərarı hər zaman müxtəlif reaksiyalar doğurub. Bir çoxları bunu müharibəyə çağırış, ikincilər ordunun parlament qarşısında hesabat verməsi kimi dəyərləndirib. Ona görə də indiyədək səsləndirilən təkliflərdən müəyyən mənada daşınırıq".

**Z.Oruc mətbuatı erməni mənbələrinə istinad etməməyə də çağırdı:** "2014-cü ilin avqust olaylarında cəbhə xəttindən sonra yaranmış durumda media ilə Müdafiə Nazirliyi eyni mövqedən çıxış edirdisə, son günlərdə biz bunun şahidi olmuruq. Yəni yenidən erməni təxribatının təsirləri mediada hiss olunmaqdadır. Bəzən yoxlanılmamış informasiyalar cəmiyyətə ötürülür ki, bu da nəticədə cəmiyyətdə anlaşılmazlığa yol açır. Yadımızda saxlamalıyıq ki, cəbhə xətti bu gün təkcə Ağdam, Füzuli, Goranboydan və digər ərazilərdən keçmir, eyni zamanda mətbuatdan da keçir. Necə ki, səngərdə əsgər direniş göstərirsə, burada da media nümayəndələri nəzərə almalıdır və hər hansı yanlışlığa yol verməməlidir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 19 (6047) 28 yanvar 2015

# Neftin qiyməti barədə təzadlı proqnozlar

## OPEK 200, ABŞ 50 dollar deyir, ekspertlərsə məsələyə fərqli yanaşır...

**Səudiyyə Ərəbistanının yeni kralının neft hasilatını azaldacağı barədə bəyanatından sonra dünya bazarında neftin qiyməti yenidən azalmağa başlayıb. Yenicə taxta çıxan Səudiyyə kralı Salman ibn Əbdül-Əziz əl-Səud ölkədə neft hasilatının əvvəlki həddə saxlanacağını, yəni artırılmayacağını bildirib. Bu bəyanat birjalarda neftin qiymətini bir qədər də endirib.**




Neft İxrac edən Ölkələr Birliyinin (OPEK) baş katibi Abdulla əl-Badri isə hesab edir ki, neftin bir barelinin 200 dollara qalxması üçün istehsalçılar öz investisiyalarını azaltmalıdırlar: "Artıq neftin bugünkü qiyməti son həddə çatıb, inanıram ki, tezliklə yüksəliş baş verəcək". Xatırladaq ki, neftin qiyməti bir il ərzində 54 faiz aşağı düşüb. Beynəlxalq Energetika Agentliyinin rəsmisi deyib ki, qiymət belə davam edərsə, neftin istehsal edilməsi üçün qoyulan investisiyalar 100 milyard dollara qədər azalacaq.

Qeyd edək ki, neftin qiyməti ilə bağlı fərqli və təzadlı proqnozlar verilir. OPEK-in baş katibi bildirib ki, "qara qızıl"ın qiyməti tezliklə arta bilər. Onun sözlərinə görə, əgər istehsalçılar investisiyanı azaldarlarsa, hətta bareli 200 dollara qədər qalxa bilər.

**ABŞ-ın vitse-prezidenti Co Bayden isə hesab edir ki, dünya bazarında neftin qiyməti yaxın illər ərzində aşağı olacaq:** "Hazırda bu qiymət 50 dollardan artıq deyil. Qiymət, hər halda, yaxın perspektivdə, yaxın bir neçə ildə aşağı səviyyədə qalacaq".

**Ekspertlər isə bildirirlər ki, proqnozların fərqli olması müxtəlif zaman müddəti üçün verilməsi ilə əlaqədardır. İqtisadçı Qubad İbadoğlunun fikrincə, proqnozların təzadlı olmasının səbəbi onların müxtəlif dövrlər üçün verilməsidir:** "Proqnozlar müxtəlif zaman çərçivəsində fərqli olurlar. Məsələn, uzunmüddətli dövr üçün, ortamüddətli dövr üçün bu proqnozlar fərqli olur. Dövrlərlə bağlı qiymətlərin səviyyəsində müxtəlif dəyişikliklər baş verə bilər. OPEK-in açıqlaması uzunmüddətli dövr üçündür. O hesab edir ki, hazırda qiymətlərin aşağı düşməsi sərmayələrin azalmasına gətirib çıxaracaq və bu, son nəticədə bir neçə ildən sonra dünya bazarında təklif olunan neftin səviyyəsini azaldacaq. Bu da ona gətirib çıxara bilər ki, tələbat çox olacaq, qiymətlərin artmasını da bu amil şərtləndirəcək. Digər neft şirkətlərinin yanaşmasında isə qısamüddətli dövr üçün neftin qiymətlərində baş verə biləcək dəyişikliklərdən söhbət gedir. Əslində ekspertlər qısamüddətli dövr üçün verdiyi proqnozlarda daha dürüst olurlar, bu proqnozlar özünü doğruldur. Uzunmüddətli dövrdə olan proqnozlar, birinci ildən sonrakı dövrü xarakterizə edən proqnozlar isə bir çox hallarda özünü doğrultmurlar. İndiki halda OPEK hesab edir ki, neft sektoruna sərmayələr azalır. Bu, qısamüddətli proses deyil. Çünki sərmayə qoyuluşları müəyyən zaman tələb edir. Azərbaycanda Dövlət Neft Şirkəti də, bp də eyni qaydada fəaliyyətlərini davam etdirirlər. Amma qiymətlər elə bil səviyyəyə gəlib çata bilər ki, Dövlət Neft Şirkətində neft hasilatı azala bilər. İstənilən halda, demək lazımdır ki, OPEK maraqlı tərəfdir və qiymət məsələsində korporativ maraqlarından çıxış edir və təzyiq göstərir. Bu, son açıqlamalarda da özünü göstərirdi".

❑ Röya RƏFİYEVA

# Mənfəət vergisinin azalmasına səbəb nədir?

## Hüquqi şəxslərin sayı artsa da, vergi ödəmələri azalıb

**Cari ildə də hüquqi şəxslərin dövlət büdcəsinə ödəmələrində azalma olacağı gözlənilir. Vergilər Nazirliyinin xətti ilə büdcəyə daxilolmalarda hüquqi şəxslərin mənfəət vergisinin payı 31.1 faiz təşkil etməklə 221.1 milyon manat proqnozlaşdırılır ki, bu da 2014-cü ilin proqnozu üzrə 6 milyon manat və ya 0.3 faiz azdır.**


Bəkir Nərimanoğlu

Dövlət Statistika Komitəsinin məlumatına görə, Vergilər Nazirliyində 2015-ci il yanvarın 1-i üçün 94,563 min hüquqi şəxs qeydiyyatdan keçib (il ərzində + 9,9%). 2014-cü ildə 9 130 hüquqi şəxs qeydiyyatdan keçib, 527 hüquqi şəxs fəaliyyətini dayandırıb.

Bunların 9 252-si kənd təsərrüfatı (artım 2,4%), 5583-ü təkrar emal (artım 3,7%), 10 206-sı tikinti sahəsində (artım 9,4%) fəaliyyət göstərir. Daha çox aktivlik topdan və pərakəndə satış, avtomobil və digər məişət mallarının təmiri (24 890, artım 6,6%), maliyyə və sığorta fəaliyyəti (1 509, artım 6%), daşınmaz əmlakla bağlı əməliyyatlar (1 011, artım 16,6%), inzibati və yardımçı xidmətlər (3 429, artım 10%), rabitə və informasiya (2 142, artım 11,8%), sağlamlaşdırma və əyləncə sahəsi (1 465, artım 5,5%) üzrə olub.

Hüquqi şəxslərin strukturunda 82 370 hüquqi şəxs (bütün hüquqi şəxslərin 87,1%-i) özəl müəssisələrin, 5 429 hüquqi şəxs xarici, 1754 hüquqi şəxs birgə müəssisələrin, 10 540 hüquqi şəxs (11,1%) dövlət müəssisələrinin, 1 653 hüquqi şəxs (1,8%) bələdiyyələrin payına düşür.

**Sual yaranır ki, hüquqi şəxslərin sayının artması fonunda mənfəətləri niyə aşağı düşüb? Əsas səbəb neftin qiymətinin aşağı düşməsidir.** "Qara qızıl"ın qiymətinin aşağı düşməsi mənfəət vergisinin aşağı düşməsinə birbaşa və dolayı təsir göstərib. Cari ildə bu vergi növünün 800 milyon manatı neft-qaz sahəsində hasilatın pay bölgüsü üzrə potradçıların ödədiyi vergilər hesabına formalaşıb. Keçən il bu göstərici 977 milyon dollar idi. Neft-qaz sektorundan daxil olan mənfəət vergisi bu il daha da azala bilər. Çünki neftin qiyməti hökumətin proqnozundan 2 dəfə ucuz satılır.

Dolayı yolla təsiri özünü onda göstərir ki, ölkədə iqtisadi aktivliyin əsas təkanverici qüvvəsi neft puludur. Çünki ölkədə investisiyaları əsasən dövlətin payına düşür ki, bunu da neft pulları təşkil edir.

❑ Bəkir NƏRİMANOĞLU

# Aksiya ilə gündəmə gələn Hövsanda son durum necədir?

**Yanvarın 19-da Hövsanda 118 saylı orta məktəbin direktoru Qardaşxan Səlimovun hərəkətlərinə etiraz olaraq keçirilən aksiyadan sonra bu qəsəbədə sakitlik hökm sürür. Bu barədə "Yeni Müsavat"a qəsəbə sakinləri məlumat verib. Onların sözlərinə görə, Bakı Şəhər Təhsil İdarəsinin qərarı ilə direktor müvəqqəti olaraq məktəbdən uzaqlaşdırılıb.**



Qeyd edək ki, hadisə zamanı 21 yaşlı gənc Elmar Əliyev qəfil dünyasını dəyişib. Sakinlər bildirdi ki, ailə Elmarın ölümündə heç kimi günahkar bilmir. Çünki aksiya könüllülük əsasında təşkil olunub və Elmar öz istəyi ilə orada olub.

Hadisənin səs-küyü səngisə də, sakinlər arasında məlum hadisələrin müzakirələri davam edir. Sakinlərin böyük əksəriyyəti direktoru günahkar bilərək onun birdəfəlik vəzifədən uzaqlaşdırılmasını tələb edir.

Məktəb direktorunun vəzifəsindən azad edilib-edilməyəcəyi ilə bağlı Bakı Şəhər Təhsil İdarəsi ilə əlaqə saxladıq. İdarədən "Yeni Müsavat"a bildirildi ki, direktor müvəqqəti olaraq rəhbərlikdən uzaqlaşdırılıb, hadisə ilə bağlı müxtəlif qurumlar tərəfindən araşdırma aparılır. Bu səbəbdən ətraflı məlumat araşdırmanın nəticələri bəlli olduqdan sonra veriləcək.

❑ Nərgiz LİFTİYEVA

# Növbəti parlamentin tərkibi necə olacaq?



Azər RƏŞİDOĞLU

**Ölkədə siyasi durğunluq davam etsə də, parlament seçkilərinə hazırlıq artıq başlamaq üzrədir. Resurslardan məhrum olan müxalifət üçün qarşıdan gələn parlament seçkiləri elə də böyük sürprizlər vəd etmir.**

Ən acınacaqlısı isə odur ki, iqtidar opponentləri qanunverici baza çərçivəsində mübarizə aparmaq şansından məhrum ediliblər. Proporsional seçki sisteminin ləğvi müxalifət partiyalarının əhəmiyyətini azaldaraq, onları əsaslı dərəcədə sıradan çıxarda bildi.

Proporsional seçki sisteminin ləğvi bir partiyalı sistemin yaradılmasına xidmət edirdi. Odur ki, parlament seçkiləri önəmsiz bir hadisəyə çevrilməkdədir.

Qərb hesab edir ki, proporsional sistemin bərpası ilə müxalifət partiyalarında canlanma yarana bilər. Hesablamalara görə, son nəticədə bunlar demokratik inkişafa gətirib çıxarmalıdır.

Proporsional seçki sistemi isə həqiqi demokratiya quran ölkələrdə çoxpartiyalı sistemin oturuşmasına, güclü partiyanın formalaşmasına gətirə bilər. Amma Azərbaycanda normal cəmiyyətin mövcud olmaması bu məsələyə də skeptik yanaşmağı zəruri edir.

Qarşıdan gələn seçkilərə qədər proporsional seçki sisteminin bərpası ağlabatan deyil. Lakin Qərb növbəti parlamentin tərkibində müxalifətçilərin təmsil olunmasını təkidlə tələb edir. Kənardan görünən budur ki, hakimiyyət tarana gedir. İqtidar 2015-ci ilə qədər aparıcı müxalifət partiyalarını, medianı sıradan çıxartmaq düşüncəsində qətiyyətlidir.

Bu baxımdan, vəziyyətdə köklü dəyişiklik edilməyəcəksə, növbəti parlamentin də icra strukturundan asılı olacağını ehtimal etmək olar. Lakin siyasi müstəvidə bəzi kosmetik dəyişikliklərin də ediləcəyi qaçılmaz görünür. Artıq uzun müddətdir deputat mandatı daşıyan hakim Yeni Azərbaycan Partiyası təmsilçilərinin bir hissəsi yəqin ki, müxtəlif vəzifələrə irəli çəkilməklə parlamentdən kənarda saxlanılacaq. Boşalan deputat yerləri isə nisbətən müstəqil simalar və elə də aparıcı mövqelərə malik olmayan bəzi partiya təmsilçiləri arasında bölünəcək. Növbəti parlamentdə 20-30 nəfər YAP-çı olmayan şəxslərin deputat olacağı gözlənilir.

Qərb də artıq radikallığı təqdir etməməyə başlayıb. Bir sözlə, Qərb radikallıqdan mötədilliyə keçidi daha məqbul hesab edir. Bu yolla parlamentin tərkibini birbaşa YAP-ın təsirindən çıxartmağa səy göstərir. Lakin gərginliyi azaltmaq üçün Milli Məclisdə ənənəvi müxalifətçilərin yer ala biləcəyi ehtimalı azdır.

Əlbəttə ki, proseslərin taleyinə Rusiyadakı böhran az təsir etməyəcək. Geosiyasi vəziyyətdə köklü dəyişiklik olmayacaqsa, parlamentin tərkibinin əhəmiyyətli dərəcədə dəyişəcəyinə ümid bəsləmək mümkün deyil.

Rusiyanın isə qısa bir zamanda çökəcəyini ehtimal etmək mümkün deyil. Bu baxımdan, Milli Məclisə seçkilərə qədər Azərbaycanda demokratiya küləklərinin əsəcəyi ehtimalı elə də böyük deyil.

Yaranmış vəziyyətdə iki yol qalır, ya etiraz aksiyalarının kütləviliyinə nail olmaq və rəngli inqilabla iqtidarı geri çəkilməyə vadar etmək, ya da strateji kursda dəyişiklik etməklə, qanunverici orqanda təmsilçiliyə nail olmaq.

Birinci yol Qərbin dəstəyinin olub-olmamasından asılıdır. İkinci yol isə müxalifətin taktikasını azca dəyişib, manevr etmək qabiliyyətinə bağlıdır. Bu isə imkansız görünür. Tərəflər arasında qarşılıqlı inam əsaslı dərəcədə sarsılıb. Odur ki, bu mərhələdə mötədillikdən söhbət gedə bilməz.

Kənar baxışla görünən budur ki, növbəti parlament seçkisi də iqtidarın ssenarisinə uyğun həyata keçirilə bilər. Bu ssenarini puç eləmək elə də asan deyil. Yerli və xarici amillər ürəkaçan mənzərə yaratmır. Müxalifətdaxili çəkişmələr isə birbaşa iqtidarın ssenarisinin reallaşmasına yardım edir. Bütün bunlar heç də təsadüfə bənzəmir. Hakimiyyət dəfələrlə sınaqdan keçirdiyi "parçala, hökm elə" siyasəti ilə bu dəfə də uğur əldə etmək niyyətindədir.

Bir sözlə, Azərbaycan siyasətində dəyişən bir nəsnə yoxdur...

YENİ MÜSAVAT
N 19 (6047) 28 yanvar 2015

# Xırda pulların böyük problemi

## 1, 3, 5 qəpikləri heç kim götürmək istəmir

**Bir, üç və beş qəpik xırda pullar ictimai nəqliyyat və mağazalarda qəbul edilmir. Mövcud problem xüsusilə də ictimai nəqliyyat sektorunda özünü daha çox göstərir. 1, 3 və 5 qəpikliklər yalnız böyük marketlərdə qəbul edilir. Bu da böyük marketlərdə qiymətlərin yuvarlaq olmaması ilə əlaqədardır.**









Biz də bu qəpiklərin nə dərəcədə qəbul edilib-edilmədiyini yoxlamaq üçün müşahidə apardıq.

Əvvəlcə avtobus sürücüsünə iki 5 qəpiklik, bir dənə də 10 qəpik verdik. Bununla da sürücünün "5 qəpikləri 10 qəpik et" deməsi bir oldu. "5 qəpiklər də işlənir, niyə götürmürsünüz?" dedikdə sürücü bu qəpiklərə heç kimin yaxın durmadığını bildirdi. Daha sonra isə 5 qəpiklikləri götürüb israrla 10 qəpik verməyimizi tələb etdi.

**Daha sonra mağazalara üz tutduq. Kiçik bir marketə girib 3-5 qəpikliklərlə 40 qəpik düzəldib bir su götürdük. Pulu satıcıya uzatdıqda satıcı pula baxıb qaşlarını çataraq başqa pul verməyimizi istədi:** "Bu da puldu? Heç bank da bu xırda qəpikləri götürmür. Bu qəpiklər nə metroda, nə avtobusda, nə də mağazada işləmir. Dilənçiyə belə bu xırda qəpikləri verəndə ağız büzür və yerə atır".

Xatırladaq ki, ölkə başçısı 7 fevral 2005-ci ildə "Azərbaycanda pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi haqqında" fərman imzalayıb. 2006-cı ilin yanvar ayından dövriyyəyə buraxılan pul nişanları arasına 1, 3, 5, 10, 20, 50 qəpik sikkələri daxil edilib. Lakin müşahidələrimizdən də aydın oldu ki, tədavüldə olmasına baxmayaraq 1, 3, 5 qəpik sikkələrinin istifadəsi zamanı bir sıra problemlər yaşanır.

**İqtisadçı ekspert Samir Əliyev xırda pulların heç kim tərəfindən qəbul edilməməsinin səbəbini tələbatın olmaması ilə izah etdi:** "Bu gün Azərbaycanda nağd pul kütləsinin 0,4 faizi metal pullardan ibarətdir. 96,6 faiz isə kağız puldur. Yəni bu metal pulların ümumi məbləği 40 milyondur. Bunun da 2 milyonundan bir qədər çoxu 1,3 və 5 qəpikliklərdir. Söhbət məbləğ ifadəsində gedir. Bu elə də böyük bir rəqəm deyil".

**İqtisadçı ekspert 1, 3 və 5 qəpiklərin işlənməməsi səbəbini 3 amillə izah etdi. Bu amillərdən ən əsası qiymətlər və mentalitetdır:** "Xırda pulların işlənməməsinin birinci amili qiymətlərlə bağlıdır. Diqqət yetirsəniz görərsiniz ki, ancaq supermarketlərdə 49, 99, 53 qəpik kimi yuvarlaq olmayan qiymətlər tətbiq edilir. Adi mağazalarda isə qiymətlər yuvarlaqdır. Ticarət obyektlərində isə supermarketlərin payı mənə elə gəlir ki, beş faizdən çox olmaz. İkinci səbəb isə mentalitetlə bağlıdır. Biz o tip qəpikləri götürmək istəmirik, götürsək belə xoşlamırıq. Diqqət etsək görərik ki, qəpiklər arasında daha çox götürməyə və verməyə maraqlı olduğumuz 10 qəpikdir. Bir sıra ölkələr, xüsusən də pulu ucuzlaşan ölkələr qəpik pulları sıradan çıxardır. Misal üçün, Avropa Birliyi 2002-2007-ci illərdə metal pulların payını azaltdı. Yəni aqrar ölkələr dövri olaraq öz pul dövriyyəsinin tərkibinə baxırlar və metal pulları dövriyyədən çıxardırlar. Bunu da ona görə edirlər ki, həmin metal pul dəyərsizləşir, yəni dövriyyədən düşür və məlum olur ki, həmin o metal pulun hazırlanma dəyəri o pulun nominalından bahadır. Məsələn, 1 qəpiyin hazırlanması 2-3 qəpiyə başa gəlir. Ona görə də həmin qəpikləri götürür və xammal kimi istifadə edirlər. Bizdə bir tərəfdən qiymətlər elə səviyyədədir ki, qəpik pullara ehtiyac olmur. Digər tərəfdən isə elektron, yəni kartla ödəniş sisteminin dövriyyəsi getdikcə artır. Ona görə də mənə elə gəlir Mərkəzi Bank 1, 3 və 5 qəpiklərin artmasının qarşısını ala bilər. Hətta bir qədər azalmaq da olar. Amma bu qəpiklərin tamamilə dövriyyədən çıxmasının tərəfdarı deyiləm. Düzdür, manat dollardan da, avrodan da bahalıdır. Ona görə manat üçün həmin adıçəkilən qəpik pullar elə də təsir etməyəcək. Ancaq bu qəpiklər rus rublunun gününə düşsə, onu dövriyyədən çıxartmaq mümkün olacaq. Mən hazırda bu qəpiklərin dövriyyədən çıxarılmasını zəruri hesab etmirəm".

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Başsağlığı**

**Müsavat Partiyası Göyçay rayon təşkilatı, təşkilatın fəal üzvü**
**Xəlil Məmmədliyə anası**
**Sahibə xanımın**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Akademik Cəlal Allahverdiyev, Hacı Mir Abdulla, Hacı Ramiz, Hacı Əkbər, professor Telman Əliyev, Zahid Quliyev, Pərviz Axundbəyli, Tariyel Əzimov, Zəlimxan Məmmədli, Yavər Hüseyn, Şünasi Babayev, Aklif Əliyev, Nurəddin Quliyev, Rövşən Atakişiyev, Mərkəz Əliyev, Baxşeyiş Mehdiyev, Umudvar Qaçayoğlu, Şuşa Birlik Cəmiyyəti və Borçalı İctimai Cəmiyyəti, Sübhan Zeynalov, Mirzəağa, Əzizağa qardaşlarına, Bayram Səfərova və yaxınlarına vətənpərvər və təssübkeş insan, görkəmli tarzən**
**Gülağa Zeynalovun**
**vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

# Sabiq deputatın oğlunun maşınından iki meyit tapıldı

**Bakıda dəhşətli hadisə baş verib. Lent.az-ın məlumatına görə, Xətai rayonu, Gəncə prospekti 2 ünvanının qarşısındakı dəmir qarajda "Mercedes" markalı, 10 TN 786 nömrə nişanlı avtomobilin içindən 1959-cu il təvəllüdlü Muxtarov Miri Mənsim oğlunun və 1972-ci ildə anadan olmuş Məmmədova Esmira Arif qızının meyiti tapılıb. Hər iki şəxsin meyiti tapılarkən onlar yarıçılpaq vəziyyətdə olub.**

Bildirilir ki, heç bir qohumluq əlaqəsi olmayan hər iki şəxs dəm qazından boğulub.

Saytın əldə etdiyi məlumata görə, hadisənin baş verdiyi avtomobil paytaxt sakini Ansuxski Abdulqədir Əli oğluna məxsus olub.

M.Muxtarov və E.Əliyeva yanvarın 26-na keçən gecə qarajda avtomobilə giriblər. Qapalı yerdə olduğundan avtomobilin sobası hava çəkməyib və yaranmış dəm qazı nəqliyyat vasitəsinin içinə dolub.

Qeyd edək ki, daha əvvəl də oxşar hadisələr baş verib.

Onu da qeyd edək ki, hadisənin baş verdiyi avtomobilin sahibi olan Abdulqədir Ansuxski Milli Məclisin keçmiş deputatı, 1996-cı ildə Bakının mərkəzində terror aktı nəticəsində qətlə yetirilən Əli Ansuxskinin oğludur.

Faktla bağlı araşdırmalar davam etdirilir.

"Mən maşınımı hələ bir neçə il əvvəl baş etibarnamə ilə satmışam. Həmin maşının indiki sahibi ilə hətta heç tanış da deyiləm. Bundan əlavə, mən heç Bakıda da yaşamıram. Bütün Azərbaycan bilir ki, bizim ailə həmişə Balakəndə yaşayıb. İndi də orada yaşayır. Mənim Bakının Xətai rayonunda qarajım da yoxdur".

"Qafqazinfo" xəbər verir ki, bu sözləri virtualaz.org saytına açıqlamasında məşhur siyasi xadim, mərhum deputat Əli Ansuxskinin oğlu Əbdülqədir Ansuxski deyib.

Əbdülqədir Ansuxski bu gün özü barədə yayılan yoxlanılmamış məlumatlardan təəssüfləndiyini də bildirib: "Sizin sayt vasitəsilə ölkənin bütün kütləvi informasiya vasitələrinə müraciət və xahiş edirəm ki, yoxlanılmamış, dəqiqləşdirilməmiş məlumatları yaymasınlar, jurnalist etikasına əməl etsinlər".




# «Bakcell» şirkətinin sponsorluğu ilə "Nə? Harada? Nə zaman?" oyunu üzrə Universiada keçirildi

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkətinin dəstəyi, Gənclər və İdman Nazirliyi və Xəzər İntellektual Gənclər Klubu təşkilatçılığı ilə ƏlfəCIN layihəsi çərçivəsində "Nə? Harada? Nə zaman?" oyunu üzrə Universiada təşkil olunub.**

**ƏlfəCIN layihəsinin əsas məqsədləri intellektual oyunlar hərəkatını genişləndirmək, gənclərin asudə vaxtının səmərəli təşkilinə nail olmaq, onların intellektual potensialını üzə çıxarmaq, təhsildə yeni uğurlarına yol açmaqdır.**

**ƏlfəCIN layihəsində iştirak hamı üçün sərbəstdir. Layihə çərçivəsində yeniyetmə və gənclərin iştirakı ilə "Nə? Harada? Nə zaman?", Breyn Rinq, Xəmsə və Fərdi Oyun üzrə yarışlar təşkil olunur.**

**Yanvarın 25-də Bakıda keçirilən Univesiadanın qalibi Bakı Dövlət Universitetinin "BDU" komandası olub. İkinci yeri Azərbaycan Dövlət İqtisad Universitetinin "ADİU" komandası, Dövlət İdarəçilik Akademiyasının "BuenDİA" komandası isə üçüncü yeri qazanıb. Qaliblər kubok, medal və «Bakcell» tərəfindən təqdim olunan hədiyyələrlə mükafatlandırılıblar.**

**"Nə? Harada? Nə zaman?" üzrə Universiadanın seçim turları Bakıda və respublikanın bir çox rayonlarında keçirilib. 16 bölgədən finala vəsiqə qazanmış 66 komanda öz intellektual bacarıqlarını nümayiş etdirmək imkan əldə edib. 500-ə yaxın gəncin iştirakı ilə baş tutan finalda ölkənin ən güclü tələbə komandaları iştirak edib.**

**60 sualdan ibarət olan oyun marafonunun suallar paketinin redaktoru Oktay Məhərrəmov olub. Tələbələrin dünya görüşü və bilik səviyyəsinin yoxlanılmasına yönəlmiş suallar gənclərin Azərbaycan və dünya haqqında bildiklərini imtahana çəkib. Universitetlərdəki qış imtahan sessiyasından sonraya təsadüf edən intellektual yarışma tələbələr üçün əsl sınaq olub.**

**Qalib komandalara «Bakcell» tərəfindən hədiyyələr təqdim olunub. Birinci yerin qalibi olan BDU komandasının bütün üzvləri «Bakcell» şirkətinin "Smart Start" təcrübə proqramında iştirak üçün vəsiqə qazanıblar. Beləliklə, qaliblər "Smart Start" təcrübə proqramına müraciət edərkən avtomatik olaraq müsahibəyə dəvət olunmaq hüququna malik olub.**

**Bu təcrübə proqramı gənclərə «Bakcell» şirkətində 2 ay ərzində təcrübə keçmək və təqaüd ilə təmin olunmaq imkanı verir.**

YENİ MÜSAVAT
N 19 (6047) 28 yanvar 2015

# İşsizlik artır, "paket sistemi" ləğv olunur, ixtisarlar başlayır...

## Bir sıra təmir-tikinti işləri ya tam, ya da qismən dayandırılıb, əlavə maaş sistemi də aradan qalxır

**Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi ölkədə total işsizliyə və ixtisarlara səbəb olacaq. İxtisarların aparılacağı sahələr arasında təhsil sisteminin də olduğu bildirilir. İqtisadçı ekspert Samir Əliyev total işsizliyin və ixtisarların neftlə bağlı amil olduğunu bildirdi: "Azərbaycanda işsizlik və ixtisar həmişə olub. Amma indiki kimi total şəkildə olmamışdı. Bunu dünya bazarında neftin qiymətinin ucuzlaşması ilə əlaqələndirirəm. Azərbaycanda ölkə iqtisadiyyatı neftin üzərində qurulub.**

Bütün parametrləri araşdırsaq görərik ki, büdcə gəlirlərinin 70 faizdən çoxu neftin hesabına formalaşır. Qeyri-neft sektorunu da araşdırsaq orada da neftin payının olduğunu görərik. Hökumət hər il böyük həcmdə investisiya layihələri həyata keçirir. Bunun üçün də dövlət büdcəsindən pullar ayrılır və məktəb tikilir, körpülər tikilir, hansısa infrastruktur layihələr həyata keçirilir. Bütün bunların hamısı yeni iş yeri yaradır. İndi neftin qiymətinin iki dəfəyə qədər azalması neftdən gələn gəlirləri də kəskin şəkildə azaldıb. Ona görə də hökumətin hazırda bir nömrəli vəzifəsi büdcə icrasını tam təmin etməkdir. Tam təmin etmək üçün isə neftin indiki qiyməti əlverişli deyil. Çünki dövlət büdcəsində neftin qiyməti 90 dollar nəzərdə tutulub. Amma indi neftin qiyməti 50 dollar civarındadır. Ona görə də hökumət büdcəni icra etmək üçün məcburdur ki, iri layihələrini ixtisara salsın. Bir sıra təmir-tikinti işləri var ki, bunlar ya tam, ya da qismən dayandırılıb. Bunların da dayandırılması avtomatik olaraq həmin sahədə işləyən insanların iş yerlərini itirməsi deməkdir. Mən işsizliyin çoxalmasını bununla əlaqələndirirəm. Bir tərəfdən, neftin ucuzlaşmasına görə SOCAR-da gedən ixtisarlar, digər tərəfdən, neftin azalmasına görə dövlət investisiyalarının ixtisarı səbəbindən həmin sektorda işləyən işçilərin iş yerini itirməsidir. Bir səbəb isə neftin ölkə iqtisadiyyatına təsiri ilə bağlı olan məsələdir. Artıq ölkəyə pullar az gəlir. Bu da ölkəmizə mənfi təsir göstərir və bir sıra şirkətlər var ki, onlar hansısa xidmətlər göstərirlər. Bu xidmətlər isə neftlə bağlı amillərdir".

Maraqlıdır, müxalifət son vaxtlar artan işsizlik və ixtisarlar haqqında nə düşünür?

**Müsavat Partiyasının başqan müavini Elman Fəttah ixtisarların hələ uzun müddət davam edəcəyini dedi:** "İxtisarların artması məlum məsələdir ki, neftin qiymətinin aşağı düşməsi ilə bağlıdır. Çünki Azərbaycan iqtisadiyyatının hər bir sahəsi bu və ya digər formada birbaşa və ya dolayısı yolla neftdən əldə edilən gəlirlərdən asılıdır. Ən çox ixtisarlar neft istehsalı və yaxud xidməti ilə məşğul olan şirkətlərdə baş verib. İxtisarlar hələ uzun müddət davam edəcək. İxtisarlardan əlavə rəsmi olmayan daha bir ciddi məsələ var. Bilirsiniz ki, Azərbaycanda rəsmi əməkhaqları dövlət müəssisələrində və digər yerlərdə də qənaətbəxş səviyyədə deyil. Onu kompensasiya etmək üçün bütün müəssisələrdə əlavə olaraq paketdə işçilərə, rəhbər şəxslərə böyük məbləğdə maaş əvəzi vəsaitlər ödənilirdi. Artıq onların kəsilməsi ilə bağlı ciddi məlumatlar var. Həm paketlərin kəsilməsi, həm ixtisarların baş verməsi iqtisadiyyatımızın ciddi keçid mərhələsində olduğunu göstərir. Bu da sübut edir ki, Azərbaycan hakimiyyəti dövlətimiz üçün dayanıqlı bir iqtisadi sistem qura bilmədi. Bu dəfə neftin qiymətinin düşməsi ilə yaranan çətinliklər qaçılmaz olacaq. Düşünürəm ki, bu da xalqın kütləvi şəkildə hakimiyyətin səhv siyasətinə qarşı birgə etiraz aksiyalarına səbəb olacaq".



**AXP sədri Pənah Hüseyn əmək hüquqlarının yarıtmaz vəziyyətdə olduğunu bildirdi:** "Vətəndaşların əmək hüquqları istər dövlət, istərsə də özəl və fərdi sektorda yarıtmaz vəziyyətdədir. Böyük ixtisarların olması ilə bağlı məlumatlar durmadan artır. Təbii ki, neftin qiymətinin düşməsi, ölkəyə gələn gəlirlərin azalması bu şəkildə özünü göstərir. Gözlənilir ki, bu tendensiya davam edir. Ancaq burada sosial ədalət məsələsi gözlənilirsə, ilk olaraq insanların sosial vəziyyəti əsas götürülməlidir.

**Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, əhalinin sosial cəhətdən güvənə biləcəyi bir siyasət olmalıdır:** "Hər bir halda əhalinin sosial güvənliliyi olmalıdır. Əhalinin sosial cəhətdən güvənə biləcəyi bir siyasət sərgilənməlidir. Təəssüflər olsun ki, bu hələlik yoxdur".

❑ **Günel MANAFLI**

# Ölkədə başkəsmə cinayətlərində İŞİD izi...

## **Psixoloq Dəyanət Rzayev:** "Televiziyalarda, internetdə bu cür hadisələrin çılpaqlıqla, detalları ilə göstərilməsi insanların şüuraltına təsir edir..."

**Azərbaycandakı kriminal hadisələrin təhlilini aparsaq son zamanlar başkəsmə üsulu ilə törədilən qətllərin sayının artdığını görərik. İŞİD terror təşkilatının həyata keçirdiyi cinayət səhnələrinin mediada yayılmasının ardından Azərbaycanda da bu tendensiya artmaqdadır. Bəs görəsən, bu kimi hadisələrin mediada yayımlanması cəmiyyətə, insanların psixologiyasına necə təsir edir? Belə hadisələr cəmiyyətdə qətl, intihar hallarının artmasına səbəb ola bilərmi?**

**Psixoloq Dəyanət Rzayev** bildirdi ki, cəmiyyətdə faciəvi hadisələr hər zaman silsilə şəklini alır: "Məsələn, bir müddət öncə Qarabağ qazisi özünü yandırdıqdan sonra onlarla insan bu yola əl atdı. Son zamanlar körpünün üzərinə çıxaraq intihar çağırışı etmək də bir ənənə şəklini alıb. Təbii ki, bu tendensiya olmasa belə, intihar etmək istəyən insan bunu edəcək. Deməli, bu, sadəcə, üsul seçimidir. İnsanın beynində intihar etmək üsulu cəmiyyətdə geniş yayılan xəbərlərə əsasən formalaşa bilər. Televiziyalarda, internetdə bu cür hadisələrin çılpaqlıqla, detalları ilə göstərilməsi insanların şüuraltına təsir edir və onlar intihar edərkən və ya kimisə qətlə yetirməyə qərar verərkən mediadan tanış olan üsulu seçirlər. Təbii ki, qətllərin, intiharların səbəbi televiziyada göstərilən cinayət hadisələri deyil. İnsanları cinayətə sövq edən səbəblər başqadır. Bu,




sadəcə, cinayətin hansı üsulla həyata keçirilməsini seçməyə təkan verir. Müəyyən strukturlar özlərinə bəraət qazandırmaq üçün deyirlər ki, mətbuat bu haqda yazmamalıdır. Əksinə, bu haqda daha çox yazmaq və maarifləndirmə işləri aparmaq lazımdır. Medianın bu hadisələri işıqlandırmaqdan imtina etməsi ilə nə ailədaxili münaqişələr azalacaq, nə də intihar halları. Bu sahədə profilaktik tədbirlər aparmaq lazımdır. Çünki bu kimi hadisələrin meydana gəlməsi sosial-psixoloji amillərin nəticəsidir. Bu, tipik psixoloji problem deyil.

İntihar edən, qətl törədən insanların əksəriyyəti sağlam insanlardır. Çox zaman yaxın insanlar özlərinə bəraət qazanmaq üçün həmin insanların ruhi xəstə olduğunu iddia edirlər".

**Psixoloqun sözlərinə görə, televiziyada, mətbuatda bu tipli xəbərlərin çox getməsi hadisələri adiləşdirir:** "Məsələn, biz bu barədə çox sakit və rahat şəkildə danışırıq. İnsanın hər hansı məsələ ilə bağlı adaptasiyası təbiətin qanunudur. İnsanlarda həssaslıq azalıb və məişət cinayətlərinin də sayı artıb. Ancaq ən önəmli sual budur: intihar və ailədaxili qətl hallarının qarşısını almaq üçün hansı tədbirlər görülür? Cəmiyyətə fikir versəniz görərsiniz ki, insanlar çox gərgin və aqressivdir. Bunun da əsas səbəbi sosial problemlərdir. Cəmiyyətdə həmçinin kəskin təbəqələşmə gedir. Bir təbəqə həddindən artıq kasıb, digər təbəqə çox varlıdır. Ailə başçısı çörək pulunu qazana bilmir, evə gərgin gəlir, kiçik bir qığılcım kifayətdir ki, o, özündən çıxsın. Bu gün Azərbaycandakı qiymətləri nəzərə alsaq, 300-500 manat gəlirlə bir ailəni normal dolandırmaq mümkün deyil. Bütün bunlar insanların psixikasına mənfi təsir edir və onlarda tədricən həssaslıq, humanizm hissləri itir. Adətən əsəbiləşib özündən tez çıxan insanlar belə addımlara əl atmır. Daha çox sakit, hisslərini büruzə verməyən insanlar müəyyən müddət dözəndən sonra problemlərini bu cür aqressiv yolla həll etməyə çalışırlar".

**Həmsöhbətimizin qənaətincə, internetdə yayılan videolar, televiziyada yayımlanan görüntülər, filmlərdə aqressivlik aşılayan kadrlar, kompüter oyunları insanların şüuraltına təsir edərək, onlara özlərinin də hiss etmədiyi instinktlər aşılayır:** "Bunu sadə bir misalla sübut etmək olar. Məsələn, televiziyada çox keyfiyyətsiz və zərərli bir içkinin reklamı gedir. İnsanlar bunun zərərli olduğunu bilsələr də daha çox həmin məhsuldan almağa başlayırlar. Əgər belə olmasa idi, iri şirkətlər gəlirlərinin 30%-ni reklama sərf etməzdilər. Deməli, qətl, intihar görüntüləri ilə bağlı da bunu demək mümkündür. İnsan bu görüntülərə baxarkən yolverilməz olduğunu anlayır, ancaq yaranan ilk məqamda öz hərəkətlərində şüuraltında formalaşan düşüncəni həyata keçirir. İndi hətta uşaqlar üçün olan kompüter oyunlarında da, cizgi filmlərində də aqressivlik, zorakılıq təbliğ olunur".

❑ **Nərgiz LİFTİYEVA**

# YENİ MÜSAVAT

Son səhifə

N 19 (6047) 28 yanvar 2015




## Eyni anda bir neçə iş görmək stress yaradır

Alimlərin sözlərinə görə, bir neçə işi eyni vaxtda etmək beynimizin çox isinməsinə səbəb olur. Sosial media, e-postalar, mesajlaşmaq, mobil telefonlar və digər cihazlar həyatımızın bir parçasına çevrilib. Bu qədər məlumatı eyni vaxtda beynimizdə toplamaq və bir çox işi eyni vaxtda etmək beynimizin həddən çox isinməsinə səbəb olur. Amerikalı professor Daniel J.Levitin texnologiyaya bağlı olmağın bizə zərər verdiyini açıqlayıb: "Yeni texnologiya vasitələri beynimizi lazımsız yerə məşğul edir. Bizə lazım olan və olmayan həqiqətlər, yalanlar, dedi-qodular beynimizə yerləşir. Beynimiz nəyin doğru, nəyin yanlış olduğunu anlamağa çalışarkən yorulur. 10 il əvvəl 10 adamın gördüyü işi indi tək başımıza etməyə çalışırıq. Ağıllı mobil telefonların bizi daha ağıllı etdiyini düşünürük. Lakin şeytan bizi aldadır. Beynimizi bu qədər işlətmək doğru deyil. Alimlər yeni texnologiya vasitələri yaradaraq beynimizə qəsd edirlər".

Levitinin sözlərinə görə, bir çox işi eyni vaxtda etmək beyində stress hormonunu daha da artırır və insanlarda diqqətsizlik yaranır.

# Elektrik istehsal edən ayaqqabı

Alman mütəxəssislərin hazırladıqları ayaqqabıların köməyi ilə yeriyərək enerji istehsal etmək mümkündür. Yeni ayaqqabıların içərisində iki cihaz var. Cihazlardan birincisi "şok toplayıcı" adlanır. O, topuq yerə dəydiyi anda meydana gələn enerjini toplayır. "İkinci cihaz isə "addım toplayıcı" adlanır və insan yeridiyi zaman ortaya çıxan enerjini toplayır. Toplanan enerjinin köməyi ilə ayaqqabı sahibinin üzərindəki bütün cihazlar əlavə elektrik enerjisinə ehtiyac olmadan da çalışa bilir. Yeni ayaqqabının bütün detalları haqqında "Ağıllı maddələr və əşyalar" adlı jurnalda məlumat verilib. Ayaqqabının özəlliyi enerji istehsalı ilə bitmir. Yeni ayaqqabı həm də naviqator kimi çalışır. Belə ki, sahibinin hara getdiyini, neçə addım atdığını ölçə bilir. Üzərindəki sensorlu ekran vasitəsilə sahibinə yol göstərə bilir.



# Kor ana uşağını cihaz vasitəsilə gördü

Amerikada yaşayan kor qadın gözləri görməyən insanlar üçün hazırlanmış xüsusi eynəyin köməyi ilə övladını görə bilib. Uşaqlığından bəri gözləri görməyən 29 yaşlı amerikalı Keti Beitzin bir günlük də olsa xəyalları gerçək olub. İngiltərənin "Daily Mail" qəzetinin xəbərinə görə, Beitzin uşağını görmək xəyalı olduğunu öyrənən "Esight" adlı şirkət görməyən insanlar üçün hazırlanmış xüsusi eynəyi bir günlük ona verib. Gənc qadının yeni doğulmuş övladını ilk dəfə görməsi kamera ilə çəkilib. Həyatının ən xoşbəxt anını yaşayan qadın eynəkləri taxa biləcəyini eşitdiyi zaman çox həyəcanlandığını deyib: "Hər zaman övladıma kitablar oxumağı xəyal edirdim. Bu eynəklər analıq etmək üçün mənə çox kömək edəcək. Ömrümdə ilk dəfə gördüyüm uşağın öz övladım olması mənim üçün böyük xoşbəxtlikdir. Həyat yoldaşımın ona sevgi ilə baxmasına da sevinirəm".

15 min dollara olan bu eynəklər kamera və görüntü texnologiyasının köməyi ilə kor insanların görməsinə kömək edir. Bu eynəklərdən dünyada yalnız 140 nəfər istifadə edə bilir.





## Ata qızlarını idmana məcbur etdiyi üçün həbs olundu

İtaliyada kök olan iki qızını arıqlamaq üçün idmana məcbur edən ata həbs edilib. Torino şəhərində məhkəmə ölkə tarixində bənzəri olmayan bir qərara imza atıb. Ərindən boşanmış qadın məhkəməyə müraciət edərək qızların atalarının yanına getdikləri zaman idmana məcbur edildiyini və onlara çox az yemək verildiyini deyib. Ananın sözlərinə görə, ata qızlarını çox kök olduqları üçün hər kəsin yanında təhqir edib. Bu da uşaqların psixologiyasının pozulmasına səbəb olub. Bundan sonra polislər tərəfindən nəzarətə götürülən kişi məhkəmə qarşısına çıxarılıb. 53 yaşlı ata haqqında hakim qəribə cəza verib. O, uşaqlarına pis davrandığı və onların psixologiyasını pozduğu üçün 9 ay müddətinə azadlıqdan məhrum edilib. Qızlarının səhhətini düşündüyü üçün onlara idman etdirdiyini deyən kişi məhkəməni yuxarı instansiyalarda davam etdirəcəyini deyib.




**QOÇ** - Günün birinci yarısında bütün işlərinizi yekunlaşdırmağa çalışın. Çünki sonrakı müddətdə buna imkan tapmayacaqsınız. Ulduzlar nahardan sonra maraqlı görüşlərdən xəbər verir.

**BUĞA** - Nəhayət ki, ulduzlar bürcünüzə maliyyə səxavəti göstərməyə yaxın olacaq. Saat 13-16 arası bu istiqamətdə daha əlverişli şanslar qazana bilərsiniz. Qərarlarınızda qəti olun.

**ƏKİZLƏR** - Yaxşı olar ki, fəaliyyətə ara verib daha çox istirahətlə məşğul olasınız. Bunu etməsəniz, ümumi yorğunluğunuz və daxili süstlüyünüz səngiməyəcək. Səfərə çıxmayın.

**XƏRÇƏNG** - Düşərli bir gün yaşayacaqsınız. Özünüzü nikbin səviyyədə kökləyin. Çalışın ki, ətrafda hər şeyin gözəl olduğunu duyasınız. Bu gündən etibarən taleyinizdə dönüş yaranmalıdır.

**ŞİR** - Məhəbbət aləmində romantik məqamlar yaşamaq istəyirsinizsə, bu təqvimdən maksimum yararlanın. Əmin olun ki, cəhdləriniz boşa çıxmayacaq. Riskli sövdələşmələrdən yayının.

**QIZ** - Daxili sabitliyinizi qorumaq istəyirsinizsə, keçmişdə olanları müzakirə etməyin. Onsuz da olmuşları düzəltmək mümkünsüzdür. Özünüzü sevgiyə həsr edin ki, xilas olasınız.

**TƏRƏZİ** - Mübahisəli gün olsa da, Göy qübbəsi maliyyə durumunuzda irəliləyiş olacağını bildirir. Bir şərtlə ki, kisənizdən etibarsız insanlara borc verməyəsiniz. Yoxsa müflisləşəcəksiniz.

**ƏQRƏB** - Görüşə çıxmaq, yeni işlərə başlamaq, sövdələşmələrdə iştirak etmək üçün səmərəli vaxtdır. Çalışın ki, ürəyinizin səsinə qulaq asasınız. Ağır fiziki işlərdən uzaq olmağa cəhd edin.

**OXATAN** - Günün birinci yarısında müəyyən gərginliklə baş-başa qala bilərsiniz. Odur ki, həmin ərəfədə bütün vacib planlarınızı təxirə salmalısınız. Fəaliyyətdə öz məsuliyyətinizi anlayın.

**OĞLAQ** - Kifayət qədər məhsuldar gündür. Kiminsə işlərinizə mane olacağını ağlınıza gətirməyin. Əksinə, nəzərdə tutduğunuz planların böyük əksəriyyəti öz həllinə yaxınlaşacaq.

**SUTÖKƏN** - Planetiniz olan Uran narahat kosmik bucağa düşdüyündən fəaliyyətinizin səmərə verməyəcəyini bəyan edir. Odur ki, daha çox istirahətə yer ayırmalı, xəstəliyə təslim olmamalısınız.

**BALIQLAR** - Ulduzların düzümü səhhətinizdə problemlər olacağını bəyan edir. Bunun qarşısını almaq üçün ilk növbədə əsəblərinizi qorumalısınız. Nahardan sonra büdcənizdə artım gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qəhvə narkotik təsiri yaradır



Braziliyada aparılan araşdırmalar nəticəsində qəhvənin tərkibində daha əvvəllər varlığı bilinməyən bəzi maddələr aşkarlanıb. "Embrapa" şirkəti və Braziliya Universitetinin professorlarının sözlərinə görə, yeni bəlli olmuş bu maddələr bədəndə narkotik təsiri yaradır. Araşdırmaçıların "opioid peptitler" adı verdikləri bu maddə ağrıları kəsir və əsəbləri sakitləşdirir. Siçanların üzərində sınaqdan keçirilən maddələrin narkotikdən daha təsirli olduğu məlum olub. Həmçinin qəhvənin insanlarda asılılıq yaratdığı iddia olunur.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300